# İsgəndər Etibar

# SINMAYAN GÜZGÜ

www.kitabxana.net
YYSQ - Milli Virtual Kitabxananın
e-nəşri N 12 (2012)

Virtual Redaktoru və e-nəşrə hazırlayanı:
Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı - 2012

2012

www.kitabxana.net


İSGƏNDƏR ETİBAR
SINMAYAN GÜZGÜ

**İSGƏNDƏR ETİBAR**

**M.Ə.Sabirin anadan olmasının
150 illiyi şərəfinə**

# SINMAYAN GÜZGÜ

Tanınmış və istedadlı şairin **yeni satirik**-poetik kitabı…

YYSQ - Milli Virtual Kitabxananın
e-nəşri N 12 (2012)

Virtual Redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı - 2012

**İSGƏNDƏR ETİBAR**

**M.Ə.Sabirin anadan olmasının
150 illiyi şərəfinə**

# SINMAYAN GÜZGÜ

*Bax, bax, bu güzgüyə,
gör özünü.
Eybini görsən əgər,
Turşutma üz-gözünü.
Düşün, daşın, yol ara,
Dərk edəsən sözümü,
Düzəldəsən özünü.
Yesən elin malını,
O, yeyəcək ömrünü.
Vaxtsız icra edəcək,
Bir Allahın əmrini.
Tər tökmə sındırasan...
Bu güzgü sınmayacaq!..*

**05.12.2011**

Redaktor: **İlqar Fəhmi**

**İSGƏNDƏR ETİBAR**
**Sınmayan güzgü**
Bakı, “Elm və təhsil”, 2012, 304 səh.

*İsgəndər Etibarın əlinizdəki “Sınmayan güzgü” kitabı Mirzə Ələkbər Sabir yaradıcılığına böyük məhəbbətin təzahürüdür. İnanırıq ki, bu kitab Siz oxucuların diqqətini cəlb edəcək və satiramızın inkişafında öz sözünü deyəcək.*

$\frac{4702000000}{N098-2012}$ ***qrifli nəşr***

**© «Elm və təhsil», 2012**

## MÜƏLLİFDƏN

Əziz oxucu, "Sınmayan güzgü"də cəmlənən şeirlər mənim həyat eşqim, həqiqətə, vətənpərvərliyə, dünyaviliyə, bəşəriliyə olan sədaqətim, can yanğım, alovlu məhəbbətimdir. Hər satirik şeir gördüyüm səhvin, nöqsanın, nadanlığın, biganəliyin, qarınquluğun, Vətənə, millətə, bəşərə laqeydliyin qəlbimdə, ruhumda baş qaldıran göynərti və harayın təzahürüdür. Heç zaman özüm üçün, yəni varlanmaq, vəzifə tutmaq üçün yaşamamışam. Kiminsə faciəsini görəndə o şəxsdən mən daha şox sızlamışam. 75 illik ömrümdə yalan, böhtan, şər deməmişəm. Ancaq həqiqətə xidmət etmişəm. Fəqət! Fəqət! Xəbislərdən, qarınqulu, vəzifə, pul düşgünü qohumlardan, dostlardan saysız xəyanətlər, hətta cinayətlər görmüşəm. M.Ə.Sabir dövründəki azsavadlılıqla bugünkü 80-90% ali təhsillilər arasında fərq nədir? Elə müasir geyimmi? Diplomlu nadanlar daha qorxulu deyilmi? Qəribədir, düşünürəm ki, heç kimə pislik etməmişəm, ictimai bəlaları göstərmişəm, heç bir felyetonumda şəxsi mənafeyim, kimdənsə qisas almaq eşqim olmayıb. Bu insanlar eybindən çəkinməkdənsə, niyə mənə düşmən kəsilirlər? Görünür bu, dünyada belədir. Mərhum akademik, filoloji elmlər doktoru Əziz Mirəhmədov deyirdi: - "İsgəndər, tarix boyu dünyada heç bir satirik əcəli ilə ölməyib, özünü qoru". Bir az təvazökarlıqdan uzaq olsa da deyirəm: - Mən, məndən xəbərsiz Xaqani, Nəsimi, S.Ə.Şirvani, M.Ə.Sabir, M.Hadi ruhu ilə yoğrulmuşam ki, onların ömür yükünü daşımışam. Təəssüf ki, .....

Həqiqət budur ki, nə bəla çəkmişəm, insanlığımdan, insana, insanlığa böyük qayğıdan, məhəbbətdən irəli gəlmişdir. Çoxları bu mədəniyyətimdən sui istifadə etmişlər.

Satiralarım gözlərimin yox, ürəyimin göz yaşıdır, qələmimin həyata tutduğu güzgüdür, nə quruyar, nə də sınar. Bunlara şahid olmaq üçün 21 iyun 1992-ci ildə həyat döyüşünə atılan

"Tək səbir"i oxu, bil ki, bu dediklərim həqiqətdir. Əsl sözü sən, sən deyəcəksən, bu günün, sabahın oxucusu. Kövrəldim, daha yaza bilmədim, sən yaz, sən de, yaza, deyə bilmədiklərimi...

"Tək səbir"i niyə susdurdular?..

"Sınmayan güzgü"yə bütün satirik şeirlərimi cəmləməyə səbrim çatmadı. Qalan şeirlərimi "Tək səbir"in səhifələrində, arxivdəki qovluqlarda arayarsan.

Bu satiralar xalqımızın keçdiyi həyat yolunun (1988-2011-ci illər) əks-sədasıdır.

## «SINMAYAN GÜZGÜ»DƏ GÖRÜNƏNLƏR

Əsası Mirzə Ələkbər Sabir tərəfindən qoyulan Milli satira məktəbimiz artıq yüz ildən çoxdur ki ədəbiyyat sevərlərə maraqlı poeziya nümunələri bəxş edir. İyriminci əsrin ilk onilliyində fəaliyyət başlayan «Molla Nəsrəddin» jurnalı Sabirlə bərabər onlarla başqa satirik şairimizin də yetişdirilməsində böyük rol oynadı. Əli Nəzmi, Əliqulu Qəmküsar, Həmmal və sair şairlər bizim satirik şeirimizin ilk pleyadasını təşkil edirdilər. Sovet dövründə də həmin ənənəni Rüfət Zəbioğlu, Rüfət Əhmədzadə və başqa şairlər poeziyanın məhz bu qoluna üstünlük verdilər və öz kəskin satirik şeirləriylə o dövrdə cəmiyyətdə olan əyrilikləri, naqislikləri tapıb üzə çıxartmağa, müxtəlif mənfi tipləri ifşa etməyə çalışırdılar. Həmin dövrdə «Molla Nəsrəddin»in yerini isə məşhur «Kirpi» jurnalı tuturdu.

Müstəqillik dönəmində də poeziyamızın satira xətti yeni imzalarla zənginləşdi. Kamil Sərbəndi, Baba Pünhan, Rafiq Dağlı, Əvəz Qurbanlı kimi şairlər çoxəsrlik Milli satiramızı iyirmi birinci əsrə də uğurla gətirə bildilər. Məhz bu son silisilənin içində tanınmış publisist, satirik şair İskəndər Etibarın adı xüsusi çəkilməlidir. Haqqında danışılan şairlərdən onun əsas üstünlüyü sadəcə şairlii yox , həm də naşirliyidir. Cəlil Məmmədquluzadənin adı «Molla Nəsrəddin» jurnalıyla nə qədər bağlıdırsa, gələcək nəsilərçün İskəndər Etibarın da adı şairlikdən əlavə həm də «Tək səbir» qəzetiylə bağlıdır.

Təxminən iyirmi il əvvəl çap olunmağa başlayan bu qəzeti İskəndər Etibar yaradıb, uzun illər çap edib.

Şəxsən mən həmin dövrlərdə yeniyetmə olsam da, bu qəzetin yaratdığı ajiotaj çox yaxşı yadımdadır. Doxsanınci illərin əvvəllərində müxtəlif səbəblər ucbatından «Kirpi» jurnalı demək olar ki çıxmırdı və satira həvəskarları mətbuatdakı bu boşluğu dolduracaq yeni bir jurnal, yaxud qəzet həsrətindəydilər. Ölkəmizdə də həmin vaxtlar baş verən gərgin ictimai siyasi prosseslər məhz satira güzgüsündə göstərməyin əsl məqamıydı və məhz həmin an İskəndər Etibar qollarını

çırmalayıb meydana çıxdı, «Tək səbir»i yaratdı. Həm də hansısa siyasi bir qüvvənin yardımıyla, kimlərinsə maddi dəstəyiylə yox. Təkbaşına, öz gücünə.

O qəzetin ilk saylarının ölkədə necə maraqla qarşılandığı yaxşı yadımdadır. Poeziya həvəskarı olan biz yeniyetmələrə ən maraqlı gələn isə İskəndər Etibarın hədsiz cəsarətiydi. Əgər əvvəllər «Kirpi» jurnalında tənqid obyekti cəmiyyətin yalnız aşağı təbəqələrində yer alan mənfi tipajlar idisə, «Tək səbir»də həmin vaxtlar ölkənin ən tanınmış siyasi xadimləri, dövlət adamları açıq-aşkar şəkildə tənqid olunur, onların əməllərindəki naqisliklər kəskin şəkildə ifşa olunurdu. Düzü, təzə vaxtlarda bu bizə bir az qeyri-adi gəlirdi, axı biz sovet dövründə satiradakı ümumiləşdirmələrə, şərtiliklərə öyrəşmişdik. Məhz bu baxımdan İskəndər Etibarın «Tək səbir»i bizi demək olar ki hər sayında neçə dəfə diksindirirdi. Hətta bəzi məqamlar olurdu ki bu cür açıq, cəsarətli tənqidin düşünülməmiş addım olduğunu da fikirləşirdik. Başa düşürdük ki, belə kəskin tənqidi adama bağışlamırlar. Ona görə də hər sayından sonra elə bilirdik ki, əlimizdə tutduğumuz bu qəzetin artıq son sayı olacaq və hər dəfə də köşklərdə «Tək səbir»in yeni sayını görəndə dəhşətli dərəcədə sevinirdik.

«Tək səbir»dəki bir məqam da bizi xüsusiylə sevindirirdi. Açıq-aşkar hiss olunurdu ki, İskəndər Etibar hansısa bir siyasi qüvvəyə söykənib əks tərəfi satira atəşinə tutmur, cəmiyyətdəki bütün naqisliklər, əyriliklər onun gözündə eynidir və cəbhənin müxtəlif tərəflərində qərar tutan ictimai siyasi qüvvələrdəki mənfi cəhətlər eyni kəskinliklə ifşa olunur.

Əlbəttə, biz sıravi oxucu olaraq bu qəzetin necə bir əziyyətlə başa gəldiyini, naşirin nə qədər təzyiqlərlə üzləşdiyini yalnız təsəvvür edə bilərdik. Həqiqət isə biz təsəvvür etdiyimizdən də ağır imiş. Həmin illərdə İskəndər Etibarın bu qəzeti hansı zülümlə nəşr etdirdiyini yəqin ki onun özündən başqa heç kim bilməz.

Yadımdadır, həmin dövrlərdə «Tək səbir»dən əlavə daha bir neçə satirik qəzet və jurnal çıxırdı. Lakin onlar qısa ömürlü oldular, çünki bu qəzet-jurnalların naşirləri təzyiqlərə

dözə bilmədilər. İskəndər Etibar isə dözdü. Və kökü ulu ustadımız Sabirə gedib çıxan «Tək səbir»i iyirmi birinci əsrə qədər gətirib çıxartdı.

Mən İskəndər Etibarı ilk dəfə yalnız doxsanıncı illərin ortalarında, Bakıdakı ədəbi məclislərdə iştirak etməyə başladığım dövrlərdə gördüm. O vaxtacan şəxsən tanımadığıma görə, nədənsə həmişə mənə elə gəlirdi ki «Tək səbir»in naşiri mütləq pəhləvan cüssəli, Koroğlu görkəmli bir adam olmalıdır. Lakin onu şəxsən tanıyandan sonra başa düşdüm ki qəhrəmanlıq, cəsarət heç də zahiri görkəmdə deyil, orta boylu, nurani görkəmli, yorğun baxışlı bu sadə adamın içində Koroğlu cəsarətindən də böyük bir cəsarət var. Beləcə ona olan hörmətim birə yüz artdı.

İskəndər Etibar naşirlikdən əvvəl əlbəttə ki şairdir və onun poeziya diapazonu da çox genişdir. Həm məzmun, həm də forma baxımından. Onun satiraları arasında həm əruz vəznində, həm heca vəznində, həm də sərbəst şeirlərə rast gəlmək mümkündür. Mövzu baxımından da rəngarənglik diqqəti çəkir – klassik satira üslublu şeirlər, taziyanələr, siyasi pamfletlər, təmsillər, ictimai ruhlu lirik şeirlər, - bütün bunlar İskəndər Etibarın yaradıcılığının yalnız kiçik bir hissəsini təşkil edir. Bu neçə ildə onun xeyli sayda kitabı çıxmış və istər «Tək səbir»də, istərsə də başqa mətbu orqanlarda çıxan müxtəlif məzmunlu şeirləri bu kitablarda yer almışdır. Son iyirmi ildə cəmiyyətimizdə baş verən müxtəlif ictimai-siyasi hadisələr, sosial təbəddülatlar, müxtəlif mənfi tipajlar – bütün bunlar İskəndər Etibarın satirik şeirlərində əks olunur. Gündəlik həyatda rastımıza çıxan mənfi keyfiyyətlər – riyakarlıq, yaltaqlıq, rüşvətxorluq, yerlibazlıq, vəzifəpərəstlik – bütün bunlar şairin iti qələmindən keçir, ifşa olunur, bu keyfiyyətlərin daşıyıcısı olan insancığazlara həyatda həqiqi yeri göstərilir. İskəndər Etibarın qələmi rəhmsiz, satirası acı, kinayəsi kəskindir. Və zənnimcə əsl satirik şairə vacib olan bu keyfiyyətlər onun yaradıcılığında özünü bariz şəkildə göstərir.

Onun şeirlərini geniş xalq kütlələrinə sevdirən də məhz bu keyfiyyətlərdir.

Mirzə Ələkbər Sabir məktəbinin 20-ci əsrdə layiqli davamçısı kimi İskəndər Etibarın bir çox şeirlərində məhz Sabir ruhu, Sabir nəfəsi açıq aşkar hiss olunur ki, bu da şairin ulu ustadına böyük məhəbbətin, sonsuz sevginin nişanəsidir.

*Bənzəmərik dünyada hər millətə,*
*Biz dözərik ölkədə hər zillətə,*
*Nuru boğub yol açırıq zülmətə*
*Mindiyimiz kor yabıdan düşmərik,*
*Yadlara qul, doğmalara düşmənik.*

*Yad nə desə, meydan açıb oynarıq,*
*Əl-qol aça qardaşımız, qoymarıq,*
*-Ye – desələr yurdu yeyib doymarıq,*
*Mindiyimiz kor yabıdan düşmərik,*
*Yadlara qul, doğmalara düşmənik.*

**"Doğmalara düşmənik"**

Şeirin elə başlancığından görünür ki, İskəndər Etibar ölməz Sabirin «Öz aramızdır necə gör millətik» şeirini sanki iyirminci əsrin sonunda yenidən canlandırır, sanki demək istəyir ki, yüz il əvvəlki mənfi xüsusiyyətlərimiz - kənardan gələnlərə aşağıdan yuxarı baxmaq, onlara az qala səcdə etmək, əvəzində özümüzünküləri sıxıb əzmək, irəli getməyinə imkan verməmək- bütün bu mənfi keyfiyyətlər əfsuslar olsun ki, indi də qalmaqdadır və millətimizin inkişafına mane olur. Təəssüf ki dövr dəyişir, amma xarakterlər bir çox hallarda olduğu kimi qalır.

İskəndər Etibarın bu tipli «ümumiləşdirilmiş» satiraları çoxdur və bütün bu şeirlər böyük bir ürək yanğısıyla doludur. Bu gülüş sadəcə yumor deyil, bəlkə də kimlərisə oyada biləcək, bir qədər dəyişə biləcək bir gülüşdür.

*Bəh-bəh yetişir hörmətə hər gün həşəratlar,*
*Bəh-bəh, daraşır millətə hər gün həşəratlar.*

*Qat, qat ucalır evləri, istər aya çatsın,*
*Pul, pul elə artsın, sayı saymaz saya çatsın,*
*Sərvət sel olub sel kimi coşqun çaya çatsın,*
*Xalqı gah ayı, gah cin edirlər həşəratlar,*
*Xalqın malını çin-çin edirlər həşəratlar.*

**"Həşəratlar"**

Həqiqətən də, müxtəlif riyakarlıqlarla,əyri yollarla əlini bir vəzifəyə, rütbəyə keçirən və tutduğu vəzifəni xalqa xidmət yox, yalnız özünə sərvət toplamaqçün vasitə hesab edən dırnağarası məmurları İskəndər Etibar həşəratlara bənzədir. Həqiqətən də başqalarının əziyyətini, iztirabını özüyçün sərvət mənbəyinə çevirənləri həşəratdan artıq nə adlandırmaq olar ki? Bu şeirdə həm də şairin bu tiplərə qəti bir nifrəti, barışmazlığı hiss olunur.

Hələ doxsanıncı illərin əvvəllərində, rayonlarımız mənfur qonşularımız tərəfindən işğal olunarkən, o vaxtkı ölkə rəhbərlərinə də İkəndər Etibar eyni nifrətlə, eyni barışmazlıqla yanaşır.

*Verilir düşmənə torpaqlarımız, daşlarımız,*
*Başların boşluğudur çəkdi bəla başlarımız.*

**(Millət ağısı)**

O dövrdə ölkənin başına gələn qanlı faciələr, dırnağarası siyasətçilərin min cür oyunlarının badına gedən torpaqlarımız, millətin səfil gününə düşməsi – bütün bunlar azmış kimi hələ xalqın bəzi etiraz səsini qaldıra bilməməsi də İskəndər Etibarı hiddətləndirir və bu məqamda üzünü Allahdan başqa heç kimə tuta bilmir.

*Tanrım, bizi susdurmaq ilə lal edəcəksən?*
*Üç-dörd ilə ağzında küləş, mal edəcəksən?*

*Neyçün bizi atdın, unudub yad eləmirsən?*
*Millətlər içində bizi də şad eləmirsən?*

*Dul qalmışıq evdə, kiməsə ad eləmirsən?*
*Yoxsa bizi susdurmaq ilə lal edəcəksən?*
*Üç-dörd ilə ağzında küləş, mal edəcəksən?*
**(Tanrım, bizi susdurmaq ilə lal edəcəksən?)**

Elə həmin illərdə saxta vətənpərvərlərin gecə-gündüz «Millət-Millət» bağıraraq, əslində isə milllətçilikdən öz siyasi məqsədləriyçün istifadə etməsi də şairin gözündən yayınmayıb, riyakar, saxta millətçilərin qışqır-bağırına, boş boş danışıqlarına özünəməxsus şair münasibətini bildirir.

*Milliləşib, milli olub hər yetən,*
*Hey danışır, dilli olub hər yetən,*
*Bilməmişik, bəlli olub hər yetən,*
*Nadan adamlar yetənə dərs verir,*
*Zurna çalanlar səsinə səs verir.*

*Özgələşib yurda yananlar bizə*
*Örnək olub cılxa yalanlar bizə,*
*Xam görünür eldə qananlar bizə,*
*Yığ beləsin, qoy mələsin, at düzə,*
*Bəsdi kişi, yerdə qalanlar bizə.*
**(Milli olub hər yetən)**

Xalqımızın indiki ruhani durumu – qloballaşmanın gətirdiyi mənəviyyatsızlıq, açıq-saçıqlıq, Avropalaşma adı altında xalqın mənəvi dəyərlərini itirərək yaddaşsız bir topluma çevrilməsi bir həssas şair kimi İskəndər Etibarı da düşündürür, bu gedişlə gələcəkdə millətin hansı duruma düşəcəyi onun içində çox ağır bir yük kimi asılıb.

*Ey ürəyi ovulmuş,*
*Ey mənliyi qovulmuş,*
*Çalxalanıb yorulmuş,*
*Millət, hara gedirsən?*

*Başında zəlzələdi,*
*Qəlbində vəlvələdi,*
*Yaltaqlar əl-ələdi,*
*Millət, hara gedirsən?*

**(Millət, hara gedirsən?)**

İskəndər Etibarın yaradıcılığında ümumiləşdirilmiş satiralar o qədər də çox deyil. o daha çox konkret mənfi tipləri, konkret xarakterləri, şeytani keyfiyyətləri tapıb üzə çıxartmağa və ifşa eləməyə, belə demək olarsa, onları öz satira güzgüsündə göstərməyə çalışır. Şairin bu üslubda şeirlərinə uğurlu poetik karikaturalar kimi də baxmaq olar.

İskəndər Etibarın bu üslublu şeirləri də ustad Sabirdə olduğu kimi iki bədii vasitə ilə işlənib – bir qismində şair özü konkret tipajı tənqid edir, onu içi üzünü açıb göstərir, ikinci qisim satiralarda isə şair tuş gəldiyi mənfi tipajı böyük ustalıqla danışdırır, onu öz diliylə ifşa edir, mənfi keyfiyyətlərini göstərir.

*Tər tökür el, biz yeyirik ölkədə,*
*Hey yatırıq dincəlirik kölgədə.*

*(Müxalifət)*

Yaxud,

Dost əlini tuta-tuta
Pərçim olub instuta,
Oğul gərək tutub ata,
Tərsə dönə bu gərdişi,
Bəs necə? Alimdi kişi.

*(Alimdi kişi)*

Daha bir misal…

Yaxşı günə yaxşı təpik atdılar,
Yaxşını da zorla pisə qatdılar,
Hay-küy ilə milləti aldatdılar,

Daddı bu aşdan eləki hər yetən,
Azdı bu millət, oda düşdü vətən.
*(Demokratiya aşı)*
Yenə…

Nəfsinə qurban eləmə milləti,
Üstünə yorğan eləmə milləti.
*(Qurban eləmə)*

Yuxarıda göstərdiyimiz üslubda yazılan şeirlərin hamısında İskəndər Etibar kokret mənfi tipajlara sanki meydan oxuyur, onların şeytani xarakterlərini, riyakarlıqlarını bir-bir üzlərinə deyir, mənfur xislətlərini satirə diliylə açıb xalqa göstərir. Mənfi tipaj – müxalif siyasətçilərdən tutmuş saxta alimlərə qədər - hər biri şairin gözündə eynidir, nifrətə layiqdir, ifşa olunmalıdır.

İkinci qisim satralarda qeyd elədiyimiz kimi şair mənfi qəhrəmanları öz dilləriylə danışdırır. Bunu bəzi məqamlarda mənfur xislətin tövbəsi, etirafı kimi də qəbul eləmək olar. Sanki şair belə tiplərin heç vaxt öz mənfi keyfiyyətlərini boyunlarına almayacaqlarını bilir, buna görə də bu addımı onların əvəzinə özü atır, satira müstəvisində bu tipajları sanki sıraya düzür, qiyamət günündəki kimi tövbə etməyə, içindəki riyakarlıqları açıb tökməyə vadar edir.

Millət qul olub qalsa da yadların əlində,
Yıxmaz məni tufan nədi, fəryadı elin də.
Düşsəm, çıxaram, ölmərəm ağzında selin də,
Baş açmaz əgər gəlsə fələk də əməlimdən,
Tufan edərəm, zara gələr millət əlimdən.

**

Kətirin , pul gətirin, məktəb üçün parta alaq,
Tavana, pəncərəyə vurmaq üçün taxta alaq.
*(Kətirin , pul gətirin)*

**

Gedirəm, qalana nəsihətimdir,
Bu mənim son anda vəsiyyətimdir,

Rüşvətlə parlayıb ucaldım eldə,
Bir gün tufan qopub yıxdı məni də.
Əvvəli xoş idi, sonra nar kimi
Bir qızıl kasaya sıxdı məni də.

*(Yaltağın oğluna vəsiyyəti)*

***

Damarlarım paslanıb, daha qan qovmur ürək,
Mədə də əldən düşüb, həzm eləmir ət, çörək,
Can üşüyür dözməyir, əssə də sakit külək,
Şimşək olub göydə yox, kürsüdə çıxsın canım,
Çəkmərəm əl kürsüdən, kürsüdə çıxsın canım.

*(Çəkmərəm əl kürsüdən)*

***

Onda ki yay-qış yerimiz var idi,
Baxma ki hərdən yerimiz dar idi,
Bilməz idik, çöldə soyuq-qar idi,
Bizlər idik əyriləri düz yozan,
Bizlər idik hər işə fərman yazan.

Kim nə yeyirdi, biz idik həzm edən,
Kimsə ağız, dil, biz idik ac gödən,
Can kimin idi, biz idik cangüdən,
Bizlər idik adlı ləyaqətlilər,
Əndamı yağlı, sinəsi ətlilər.

İskəndər Etibarın yaradıcılığının böyük hissəsini satirik təmsillər və taziyanələr təşkil edir. Şairin haqqında danışdığımız əvvəlki satirik müxəmməsləri Sabir üslubunda - əruz vəznində yazılsa da, təmsil və taziyanələri daha çox heca vəznindədir ki, bu da İskəndər Etibarın yaradıcılığının vəzn, üslub rəngarəngiliyini göstərir. Bundan əlavə şairin ictimai ruhda çoxsaylı sərbəst şeirləri də var ki bunların bəziləri əvvəlki əruz satiralarındakı yumor ruhunun sərbəst şeirə uğurlu transformasiyası kimi də baxmaq olar.

Budağın yanından ötüb,
Almanın üzündən öpüb,
Görmüsən alma gülüb
Fürsət bilib almanın,
Ürəyinə girmisən,
İçini yeyə-yeyə
Almanı çürütmüsən.
Gör nə böyük namərdsən,
Bəlkə yerdə namərdlik,
səndən qalıb, alma qurdu?
(*Alma qurdu)*

Yaxud..

Ac-yalavaclar!
Ucuz qiymətə
Kəndir satılır.
Elə bilməyin,
Yağ, çörək, şəkər,
Pendir satılır.
*(Ac yalavaclar)*

Daha bir nümunə…

Pul ver, talat,
Pul ver, yarat,

Pul ver, pul ver
Çökər polad.

Pul ver, ağlat,
Pul ver, çağlat,
Günü öldür,
Ayı saxlat.

Pul ver mənə,
Dəli olum,
Əliyəmsə
Vəli olum…
*(Pul ver)*

Bu təmsil və taziyanələrdə öz həqiqətpərəstlik missiyasını şair müxtəlif şərti obrazların köməyiylə həyata keçirir. Nağıl qəhrəmanlarına bənzəyən, lakin onlardan qat-qat məkrli, hiyləgər olan, müasir «çaqqallar», «canavarlar», «milçəklər», «köpəklər», «ağcaqanadlar», «siçanlar» və başqa bu cür şərti obrazlara diqqət yetirəndə görərik ki, onlar hansısa dağda, meşədə yox, məhz insan cəmiyyətində, bizim aramızda yaşayırlar, hörmət-izzət, mənsəb sahibidirlər, şan şöhrətləri var, lakin bütün bunlara rəğmən yalnız zahirən insandırlar. Daxilən insanlıq zirvəsinə isə yüksələ bilməyiblər ki şair də oxucularına məhz bunu çatdırmaq istəyir. Vəzifə, sərvət, şan-şöhrət, nüfuz heç də həmişə insanlığa dəlalət eləmir, zahirən insan olanların bir çox hallarda batini heyvanxislət olur.

İskəndər Etibar hələlik sonuncu olan və «Sınmayan güzgü» adlandırdığı kitabı ölməz Sabirin anadan olmasının 150 illiyinə həsr edib. Bu da əbəs deyil. Bütün yaradıcılığı boyu ölməz saitra ustadımızın poetik ənənələrini davam etdirən, Sabir şerini iyirmibirinci əsrə qədər gətirib çıxaran bütün satirik şairlərimiz kimi İskəndər Etibar üçün də Sabir adı sadəcə ustadlıqdan çox, çox üstündür. Sabir qaranlıqda bir işıqdır, Sabir qəhrəmanlıq mücəsəməsidir, Sabir son anda

ümid, pənah yeridir. İskəndər Etibarın yaradıcılığında Sabirə həsr olunmuş çoxlu sayda şeirlər var ki bunların hansı birinə nəzər salsaq, ustad şairimizə dərin hörmət və ehtiram , onun yaradıcılığına sitayiş görərik.

Dünyada bir dahi də
Eldə deyil təkrarsız.
Yerdə, göydə Allahdı,
Bir də Sabir təkrarsız.
*(Sabirə)*

İskəndər Etibarın şeirlərini ayrı-ayrılıqda təhlil etmək, bədii keyfiyyətlərini, ictimai əhəmiyyətini bütövlükdə açıb göstərmək fikrində deyiləm, çünki bununçün ən azından ayrıca tənqidi əsərlər yazılmalıdır, bu işlə tənqidçilər, ədəbiyyatşünaslar məşğul olmalıdır.

Mən sadəcə bu tanınmış satirik barədə öz fikirlərimi yazdım.

Oxucunun əlindəki bu kitaba bu il 2012-ci ilin fevralında 75 yaşı tamam olan şairin müxtəlif illərdə yazdığı satirik və ictimai şeirləri topanmışdır. Zənnimcə diqqətli oxucu bu kitabı vərəqləyəndə Azərbaycanın yaxın tarixini görməyə bilməz – bütün mənfi və müsbət cəhətləriylə. Şairçün məncə bundan artıq xoşbəxtlik ola bilməz – xalqının ruhunu və tarixini yaşatmaq. Ağına və qarasına baxmadan.

Sən elə bilmə ki mən yol azmışam,
Gör nələr yaradıb nələr yazmışam,
Qələmi külüngə, belə çevirib,
Xəbisə, nadana qəbir qazmışam.
*(Taziyanələrdən)*

Məhz bu yol hər bir satirik şair üçün müqəddəs amal yoludur.

**İlqar Fəhmi**

## DALĞALI ZAMAN GƏLİR

Dalğalı zaman gəlir,
Kimsəyə, kimsələrə
Vermədən aman, gəlir;
Çəkil qoca kapitan,
Gücün yoxdu, tutasan,
Top keçəcək qapıdan.
Bir az meymun cəldliyi,
Bir az tülkü hiyləsi,
Bir az aslan hünəri,
İti insan ağılı,
Fil dözümü gərəkdir,
Qapıda durmaq üçün.
Bir də, bir də, bir də ki,
Tamah, nəfs çox gödək,
Cibdən uzaq əl gərək!

## RÜŞVƏT

Rüşvət bataqlığı Yer kürəsində
Çəkir ağuşuna nə varsa Yerdə.
Fatehdi, gah da ki, gözəl pəridi,
Bütün ürəkləri fəth edir eldə.

O da vəba kimi, taun kimidi,
Süzülən virusu sürətlə artır.
Bəşəri məhv etmək təmənnası var,
Bəşər nəşəlidir, hələ də yatır.

Dolub damarlara, axır qan kimi,
Qaynayır, çağlayır həyəcan kimi.

Nə millət, nə vətən deyil eyninə,
Yatır villalarda təzə xan kimi.

Rüşvət ehtirası - qara qurğuşun,
Uçmağa qoymayır könlümün quşun.
Vurub gözlərini çıxardır hər gün,
Düzəltmək istəsə kimlərin qaşın.

Fikrə, düşüncəyə hakimdi rüşvət
Rüşvətlə yaşayır el oğrun-oğrun.
Ağıl dəyirmansa, suyudu rüşvət,
Rüşvətlə fırlanır çarxı ağılın.

Ağıl da, qanun da süpürgəçidir,
Açarı rüşvətdir müşkül işlərin.
Haqqın, ədalətin, doğru sözlərin,
Rüşvət kəlbətinsiz çəkir dişlərin.

Bəşər həşarata dönür dünyada,
Eşir ürəkləri rüşvət güvəsi.
Elə dağıdacaq Yeri bu rüşvət,
Dağıtmaz hidrogen, atom nüvəsi.

Hamı rüşvət alır. Zibil atan da,
Zibili atmayır, rüşvət almasa.
Rüşvət vitamini kəşf edib bəşər,
Bu nəsil boy atmaz, rüşvət olmasa.

Rüşvətsiz kişini bəyənmir qadın,
- Maymaqsan, əfəlsən, ay yazıq – deyir.
- Kül sənin başına, sən də kişisən?
Kar, keçəl qadınlar gör nələr geyir?!

Odur ey-y, dünənki bitli Xanımın
Küçəyə sığmayır forsu, fasonu.

On ildi rəissən, dünənki rəis,
Villalar tikdirir. Kim tutub onu?

* * *

Rüşvətxor: - rüşvətdən doymadım! – deyib
Ulayır yalquzaq canavar kimi.
Fınxırır at kimi, şahə də qalxır,
Qaynayır içindən samovar kimi.

- Öpsün ayağımı! – deyir – bu bəşər,
Dünyanı fırladan mənim pulumdu.
Sabah saxlayacam fırlanan Yeri,
Bezənlər düşsünlər, qalan qulumdu.

Əsməsə Dünyanın dəli küləyi,
Bəşər qırılacaq rüşvət iyindən.
Götürməz qəbir də əgər çıxmasa,
Rüşvətdən biçilən köynək əyindən.

Zəlzələ gözləyir uçub-dağılsın.
Eşqi-məhəbbəti çatlayan Dünya.
Oksigen balıncı gətir, can verir
Rüşvətdən havası çatmayan Dünya.

## ALLAHA MÜRACİƏT

İnsana həyatın zirvəsi – dedin,
Zirvə yaratdığın alçalır, Allah.
Qoyunun abırlı, keçin abırsız,
Qoyunlar keçiyə əl çalır, Allah.

Dəstə-dəstə olub yerdə insanın,
Bölünüb dinlərə, təriqətlərə;

Fikir çirkabında boğulur, fəqət,
Göz yumur parlayan həqiqətlərə.

Sən «Quran» verdiyin ərəb hələ də
Kölədi, düşməndi biri-birinə.
Siyasət toruna düşüb, inanmır,
Nə mənə, nə də ki, ölü-dirinə.

Ağıl ver heyvana, «Quran» oxuyub,
Yerdə aliləşsin, utansın insan.
«Quran»la düz yola gələ bilmirsə,
Sil-süpür, Yerində qurtarsın insan.

Bəşərin qurduna çevrilib nəfs,
Nəfsi sən verdin, sən də cilovla.
Bağla mədələri, ağıla nur ver,
Cilova gəlməyən nəfsi, ovla.

İlahi, Yerində bu gördüklərim –
Həyata qarışan həşəratdılar.
Nədən yarandılar? Necə dözürsən?
Yerdə təmizlərə hey şər atdılar.

Hamı insan kimi yaranıbsa, de
Nədəndir bu qədər ağıl fərqləri?
Hamı bir Günəşdən nur alır, niyə
Ağı qara görür insan fərdləri?

Bir ana döşündən süd əmənlərin
Niyə biri ali, biri nadandı?
Bərabər yaratdın yaratdığını,
Bu sonda başlanğıc söylə, hardandı?

Gecə qaranlıqdı, gecələr yağan
Bəm-bəyaz qarında ağlıq nədəndir?

Rühüm azad ikən, canda həbs olan
Ruhumu incidən qəfəs, - bədəndi.

Nədir fəlsəfəsi, nədir hikməti,
Zirvənin yanında təpə nədəndir?
Heyvana heyvanlıq versən də, Yerdə,
İnsanlar müxtəlif, heyvanlar təndir!

Hamını ağılda bərabər et ki,
Hamı dəli olsun, ya da ağıllı,
Bəlkə dinclik tapa bəşərin, Allah,
Bu da bir arzudu! Yoxsa nağılmı?

*Yanvar, 2009.*

**REKLAM YAĞMURU**

Par-par yanır,
Reklamlanır
Pislər – hislər ekranlarda.
Reklamın yağmurundan
Saralır yarpaqlarımız,
Ucalır yaltaqlarımız.
Çürüyürük,
Vaxtı güclə sürüyürük.
Hələ də bilmirik ki,
Yaxşı yaxşıdırsa,
Özü çağıracaq.
Yaxşını gözə soxmurlar,
Gözlər tapır,
Havada qapır.

Reklam, reklam; -
Kimlərsə pullanır,

Miləltin başı, beyni
Ağrılardan fırlanır.

*12.07.09.*

## MƏNİM BALAM

Mənim balam,
Səndən ötrü yağam, balam;
Ye, böyüyüncə,
Ürəyində, canında
Millət eşqi döyününcə.
Ye. – MƏN! – deyib öyününcə!

Mənim balam, -
Mənim barama qurdum,
Mən bir tut yarpağıyam
sədən ötrü;
Ye, ipək toxu,
Ye, çiçək qoxu,
Ye, bülbül ol, nəğmə oxu!
Xain olma, - əclaf olma,
Mal-qaraya ələf olma!
Ye, ipək toxu,
Ye, çiçək qoxu!
Sən mənim qədrimi bilməyib
Çay aşağı axıdacaqsan!
Çay yuxarı axtaracaqsan!
Həyat belədir, belə,
Belə yaradıb bizi Tanrı
billə-bilə!

*Avqust 2000*

## SÖZ ŞİLLƏSİ

Sağa da, sola da atımı çapdım,
Hər sözüm şillədi, zamana çırpdım,
Yanar söz dağıyam, söz püskürürəm,
Yanar, hara düşsə sözüm bir çırtım.

Gözüm niyə belə alacalanmış?
Bədənim əriyib balacalanmış.
Kasıbın haqqını yeyib quduran,
Bəxtimin ağına qara salanmış!

Mənə yuxarıdan baxma, çaşarsan,
Qudurmuş it kimi əsib – coşarsan,
Baxıb unudarsan adını yazıq,
Gedib özgələrdən ad soruşarsan.

Şairəm kasıblıq şanım, vüqarım,
Pul yox! Tüpürcəkdi sənin pulların,
Yaxşı sabunlanıb girib-çıxanlar,
Qorxma, ağrı verməz sənə qulların.

Pörtüb yanağını tüpürcək yeri,
Nifrətdən yoğurub yazdım bu şeiri.
Pul səni yox edib səndə, nəçisən
Qoduq, aldadırsan eldə şairi?!

Batırma iynəni, palanduzum var,
Səni dondurmağa sözdən buzum var.
Baxmakı kasıbam, sən öləsən əgər,
Xeyratda kəsməyə keçim, quzum var!

*13.05. 08.*

## BU MİLLƏT

Yadı dahi bilir, özünü nökər,
Toxdu, - Acam – deyib göz yaşı tökər.
Qabağa gedəni geriyə çəkər,
Bir dahi, min nadan yetirib, Allah!
Bu millət başını itirib, Allah!

Başı yuxu görür, qarnı kefdədi,
Fikri, düşüncəsi, əli nəfdədi.
Qıfıl saxlamayan çürük cəfdədi,
Bu xalqı kim hardan gətirib, Allah?
Bu millət başını itirib, Allah!

- Sərvət ağacıdır! – deyir – vəzifə,
Nəfs ilə yetişir, dəyir – vəzifə.
Yurda xidmət üçün deyil vəzifə.
Bu dərdi kim hardan götürüb, Allah?
Bu millət başını itirib, Allah!

Bu vətən çoxunun deyil eyninə,
Vətəni əyirib geyir əyninə.
Şeytanlar, iblislər dolub beyninə,
Bilmir dahi ölüb, it ölüb! Allah!
Bu millət başını itirib, Allah!

Misdən qazandılar, dibləri paxır,
Papağın götürsən, üfunət qalxır.
Artır sürü-sürü, hey naxır-naxır,
Ruhunu kimi soyub, öldürüb, Allah!
Bu millət başını itirib, Allah!

Niyə paralanıb, pərən-pərəndi?
Odamı, bu yerə sən göndərəndi?

Günahkar onunmu, mənim dədəmdi?
Kimdi bizi bölüb, böldürüb, Allah?
Qardaşı, qardaşı öldürüb, Allah!

Qalxmırıq, enirik hər ay, ay Allah!
Didişib, edirik ah-vay, ay Allah!
Oyat, çalma bizə lay-lay, ay Allah!
Kimlərdə pis nə var, götürüb, Allah!
Bu millət başını itirib, Allah!

Göydələn göyü yox, könlümü dəlir,
Baxıram boyuna, üstümə gəlir.
Çox şükür kasıba kölgəsin sərir,
Toxları, acları tərlədib, Allah!
Bu millət başını İtirib, Allah!

Çox nadir nüsxədi, gəzmə, tapılmaz,
Paslı tüfəng kimi, dərdə atılmaz,
Desən – Vətən yanır! Qaşı çatılmaz,
Başı var idimi, itirib, Allah?
Səni də cəzana gətirib, Allah!

*11.05.08.*

**AY XANIM**

Nə istəsən,
Verib sənə təbiət:
Qapqara göz, çatma qaş,
Qönçə dodaq.
Elə göz ki,
Şimşəkləsə, sınar daş.
Sinə verib – ağappaq!
Nəyə gərək bu rəng, boya?

Aman vermir
Gözəlliyi ürək duya!
Gözəlliyə naxış vurmaq
bir başqa,
Gözəlliyə qarşı durmaq
bir başqa.
Özünə bax,
Dörd yana bax,
Gözəl varmı səndən başqa?!
Gözəlliyi malalama,
Sənin deyil,
O, onundu, o, mənimdi.
İtirmisən,
Səndə mənim olanı,
De, neyləyim mən indi?!.

## İNDİ

İndi qəssab olub nadan adamlar,
Kimi qoyun soyur, kimi də Vətən!
Gəlmələr sehirli açara dönüb,
Açılıb-bağlanan kilidi – Vətən!

Bu harın gədələr… öpər hər gün,
Yarışar, yarışda dost ötər hər gün.
Ocağa hamıdan tez yetər hər gün,
Kasıbın ocağı, piri də Vətən!

Vətənə daraşan birədi kimi,
Yurdu ələkləyən güvədi kimi,

Atom bombasıdı, nüvədi kimi,
Kasıbın tökülən külü də Vətən!

## BƏŞƏR VƏ DÜNYA

*(ABŞ-in sağ əli İsrail Fələstini, Əfqanıstanı, İraqı bombalayır. Bəşər susur və susdurulur)*

Ah, bəşər əlləri qoynunda durub,
Seyr edir ABŞ-ın oyunlarını.
Elə bil bir çoban əlində çomaq,
Hoylayır harasa qoyunlarını.

Körpə parçalanır, ana saç yolur,
Tükü də tərpənmir bəşərin, nədən?
Hamı tıxır, tıxır, tıxır, hey tıxır,
Ağıla güc gəlir bir ovuc gödən!

Çoban köpəyini fitləyən kimi,
Əfqanı əfqana fitləyir özgə.
Ətəyə qoz tökür, başlara bomba,
Yalanı, böhtanı bütləyir özgə.

Qırılır dünyanın müsəlmanları,
Uşağı güldürən bəhanələrlə.
Silinir dünyadan kəndlər, şəhərlər,
Bəşər hara gedir biganələrlə?

Döyür gözlərini bəşər mal kimi,
Adam başı kəsir qəssab siyasət,
Dayanıb növbəyə, səsi də çıxmır
Əlində pul tutub almaq üçün ət.

Baxıram, deyirəm – nə yaşı var ki,
Dimdiyi sapsarı cücədi dünya.

Bəlkə doğulmayıb hələ, hardasa,
Səhəri bəsləyən gecədi dünya?!

Dünyanın əlləri sevinclə dolu,
Niyə kədər yeyir bəşər dünyada.
Hamıya hər şeyi çatırsa Yerin,
Niyə şahlıq edir bu şər dünyada?!

Kin qonub dünyanın göbəyi üstə,
Bəşər hamilədir şərə, böhtana.
Sanki nəşələnib yatır bostançı,
Dəvələr, keçilər girib bostana.

Azlar qarınlayıb – harınlayıblar,
Dünyanın hələ də xeyli acı var.
Cəmiyyət çalxanır, Yer kürəsinin
Təzə peyğəmbərə ehtiyacı var.

*25.10.2001.*

## YALTAĞIN QARĞANI ÖYMƏSİ

Zövq alıram səsindən,
Bülbül, nə xoş ötürsən.
Ölərəm, sən nəğməni
Bülbül, qəfil bitirsən.

Qadasını alaram
Hər gün səni öyənin.
Gözlərini tökərəm
Sənə qarğa deyənin!

## HAQQIM VAR

Haqqım var, dövlət olum;
Saysan, 50 milyonam –
Əlli milyon ömürəm,
Əlli milyon düz yolam!
Bəşər oğlu bəşərəm,
Dirilirəm, ölürəm!..

Haqqım var, dövlət olum;
Fikri aydın, gözü tox.
Özgə torpağında, elində
Birimizin gözü yox!

Haqqım var, dövlət olum;
Öz elimdə, torpağımda –
Bütöv Azər..bay..canımla!
Niyə susursan, Buş?
Nə pusursan, Jak Şirak?
Yoxsa, başında qalmayıb huş?
Cavab ver, cavab ver,
Cənab Putin!
Bəs niyə iki dövlət qurur;
Erməni itin?
Nədir niyyətin?
Niyə erməni bicliiyndən qaralmır qanın, Buş?
Niyə, niyə, cənab Putin,
Erməni gicliyindən tökülmür ətin?
Jak Şirak, niyə yatıb,
Silkələnmir qeyrətin?!

Siz, ey..y..,
Haqqa-haqq! Deməyə qorxanlar,
Yalan gələndə ayağa qalxanlar;

BMT-də oturan
Sən! Sən! O! O!
Yalan yeriyir,
Olmayan,
Olan, yeriyir,
Tufan olub kürüyür.
Haqq, ədalət əriyir,
Torpağı toz bürüyür!

Demokratiya!..
Dünən sənə uyanlar,
Ölkədə can sürüyür!
Amerika!-
Üzü harasından qırmızı, -
Zalım oğlu, zalım qızı –
Demokratiya pazı!

Dünya yalan qoruyur,
- Ədalət! -Haqq! – deyənlər
ayaq üstə quruyur!
Avropa!.. Baxma, baxma,
Vətənimə ov kimi,
Sənə qənim olar şair Xaqani.
Alçaltma nəslimi;
Yeriyər üstünə
Soyulmuş dərisi çiynində,
Qan buludu Nəsimi!
Avropa! Lovğalanma!
Ağıl olmaz lovğa başda…
Bilmək olmaz,
Kimi, nə gözləyir qarşıda!

Kinimi sıyırıb
Yazdım bu şeri, qardaş,

Qoşul döyüşə,
Ərimə, qar daş!...
*28 mart 2001*

## ABŞ-IN BƏYANATI

Fələstin, Suriya, çox ərəb sussun,
İsrail vurduqca, ağlasın, qussun.
Ərəblər özgə yox, özünü pussun,
İsrail mənimdi, əziz balamdı,
Damcıdı, «hünərdə» dəniz balamdı.

İsrail, o mənim tələbə balam,
Haqqı var, nə etsə ərəbə balam.
Mənimdi çaldığı  qələbə, balam,
Asmışam bonuna, atom muncuğu,
Qanaddı çiynində raket ucluğu!

İraq; - nəyim varsa, mənimdi – deyir,
Neftimin sahibi elimdi – deyir.
Öz başım, öz sözüm, əlimdi – deyir.
Çalışdıq İraqı oyuna qataq,
Nə olsa, Səddamın boynuna ataq.

- Nə var mənimkidir, - erməni deyir,
Doymaram! Olsa da Yer mənim – deyir.
Rusların ovcunda – ər mənəm, - deyir.
Utanan üzü yox, necə utansın,
- Genosid! Deməkdən necə usansın!

## QARINOTARANLAR

Səhəri yox alatoran, -
Ay qarınotaran,
Ömrü boyu həyatda
Hey peyin yumbaladan,
Hər saat nəfsə uyub,
Torpaqda qanad açan,
Ay insanlıqdan uçan,
Hara, hara gedirsən?!
Dibsiz quyu deyilsən,
Gecə-gündüz yeyirsən.
Bir gün – Doydum! – demirsən,
Axı, nə qədər olar
Qarına qulluq etmək?
Qarın üçün il boyu
Ölümə doğru getmək?!

Sən ki, toyuq deyilsən,
Elə dən axtarırsan.
Qoyun, keçi deyilsən,
Ölüncə otlayırsan.
Axı, insansan, insan!
Bəsdi toyuq olmağın,
Toyuq olmaqdan usan!

Unutma ki, insansan!
Yerə, göyə, bəşərə
Hörmətin olmalıdır.
İnsansan! İnsan kimi
Qiymətin olmalıdır.

*21.08.09.*

## RƏNGLƏMƏ MƏNİ

*(Əxalqsızlıq zirvəsində olan və özünü kölgədə saxlamaq üçün Nəinki ətrafını, qohumlarını belə, əxlaqsızlıqda suçlayan bir qadına)*

Rəngləmə məni,
Rəng götürmürəm,
Qarayam.
Elə-belə qara yox,
Yanıb qaralmışam
Kömür kimi.
Ömür yoxdu ömrüm kimi.

Rəngləmə məni,
Rəng götürmürəm.
Ocaqdayam,
Közərirəm, alovlanım,
Yanıb sönən ocaqlara
Alov yayım.

Hər yetənin təpildiyi,
Tüpürdüyü
Şərəfsiz qadın,
Bəllidir adın!

Rəngləmə məni,
Rəng götürmürəm.
Suya töküb bulama,
Doymuş məhlulam.
Tanıtma məni
Məlumam.

Get öz dərdini çək, heçnə!
Əxlaqdan uzaq oldun,
Hörükləyib çiYnindəki keçəli,
Hər gədaya qucaq oldun.
Bənzətmə məni hər keçənə,
Məni görə bilmərsən,
zülmət çöküb gündüzünə, gecənə.

*27.10.2007*

## JURNALİST REDAKTORLARA

*İstedadlı qələm sahibi, kişi xislətli qadın, Flora xanım Xəlilzadənin dilindən.*

Bu dünyada xumarlanıb yatmadım,
Hər sözə-söhbətə fikir qatmadım,
Nazını oxşadım gül sətirlərin;
Dönüb söz gülünə, söz çiçəyinə,
Söz ətirlədim.
Mən də söz arısı, söz pətəyiyəm,
Nə qədər istəsən, ye söz balımı.
Söz nədi, bilmirsən, duya bilmirsən,
Dünyada yeməkdən doya bilmirsən,
Kövrəkdi, incitmə bu söz balamı.
Yağışla dolmayan buludlar kimi,
Sözlə dolmamısan, yağa bilmərsən.
Xəlbir ürəiynə şair sözünü
yığa bilmərsən.
Ruhunu oxşasa Nəsimi, Sabir,
Ağzını açmasan, çiçəklənər söz.
Dilin öyrənməyib, dilinə alma,
Natəmiz dilində tez çirklənər söz!
Əlin öyrənməyib, əlinə alma,
Sürüşər əlindən, çiliklənər söz!
Söz nədi, bilmərsən,

Sözlə çiçəkləyib, sözlə solmarsan.
Kaman ürəyini, tar ürəyini
sözlə çalmaran.
Ürəksiz deyilən sözü, ağızdan
Düşüb çilik-çilik olan görmüşəm,
Yetim cücə kimi söz çiliklərin
Yerdə civildəşib qaçan görmüşəm.
İnana bilmərsən, uçan görmüşəm!

*18 yanvar 2002*

## MƏNİM POLİSIM

Əyriyə düz,
Düzə əyri deyib,
İnsanın
İnsana olan inamını
Öldürmə,
İnsanı
İnsanlığa güldürmə,
Mənim polisim!

Çiynindəki o çinlər,
Həqiqətə qalxandı.
Çiynindəki o çindən
Əyri, yalan qorxandı.
Əyrilər doğrulara
ilan kimi sarılar,
Doğru sənə güvənər.
Əyrilər səni görcək,
Gələn payızı görmüş
yarpaq kimi saralar,
mənim polisim!

Kölgə qovan işıq ol,
Cücərt ürəklərdəki
etibarı, inamı.
Elə yaşa, çağla ki,
Gülsün şair ilhamı,
Alqışlasın səni hamı,
Mənim polsim!
*20.05.03.*

**TAPMACA**

Məndən keçir,
Səndən keçir,
Göydən köçür,
Yerdən köçür,
O, kimdi,
O, nəçidi?

Bir nəslin köçüdü,
Qoyun, dəcəl keçidi,
Çaydı, axır, görünmür,
Gözdü, baxır, görünmür,
O, kimdi,
O, nəçidi?

Dirildib-öldürəndi,
Ağladıb-güldürəndi,
Hər işi gördürəndi,
O, kimdi,
O, nəçidi?

Dolam-dolam dolanır,
Çoxlarında durulur,

Çoxlarında bulanır,
Çoxlarından açılır,
Çoxlarına dolanır,
O, kimdi,
O, nəçidi?

*8.06.03.*

## 20 YANVAR FACİƏSİNIN 11 İLLİYINƏ

On bir ilin
On bir qatdı hasarı;
Tanrı elə gizlədib
Tapılmayır açarı.

On bir ilin altında
Ölülər və dirilər.
Eşitsə bu naləmi,
Ölülər də dirilər.

Gecələr baş daşıdı.
Hər gün ölən günlərə.
Bu dünya on bir ildi
Ağ, qara daş daşıdı: -
Günləri hörmək üçün,
Qoyub ayaq altına,
Sabahı görmək üçün.

On bir ilin bu günü –
Alnı qara nişanlı.
Oğul öldü, qızları
Oldu qarı-nişanlı!

On bir ilin
On bir qatdı hörgüsü

Bir gün ötdü,
Bir gün artdı hörgüsü.
Kimə yaxın,
Kimə yaddı hörgüsü.

On bir ilin
Tanrı qara bağlayıb
Bir gününün başını…
Şer arif dilidi,
Necə deyim,
Başa salım naşını…
*20 yanvar, 2011-ci il.*

## ÖLKƏ BAŞDAN-BAŞA SİRKDİ

Görən nə düşünüb, fikirləşiblər,
Qorxaqlar bu qədər kişiləşiblər,
«Gözəllər» nə yaman kifirləşiblər?..
Dağıldı ilğımı xumar gözlərin…
Aldanıb yatanlar, uyub yatanlar,
Bir də inanmıram yumar gözlərin.
İlanı bağrına basıb yatanlar,
İstidi, pencək kimi,
İstidi, əlcək kimi,
Çirklidi köynək kimi.
Qulağı divardan asıb yatanlar,
Axır ki, ayıldı daş yuxusundan,
Gördü ki, asılıb daş, yaxasından,
Peysəri arxadan tətik gözləyir.
Özünü cənnətdə bilib bal yeyən,
Arxası arxadan təpik gözləyir,
Dinib-danışmayıb, susub, lal yeyən.
Bildi ki, dərindi düşdüyü yarğan,
Bildi ki, yalandı yatdığı yorğan;

Ömrü halva kimi gəvələyənlər,
Sağını, solunu hədələyənlər,
Yalanı, böhtanı dədələyənlər,
Arvad atasına – Dədə! – deyənlər,
Fikrimi, sözümü hədəf edənlər,
Yalanı boynuna sədəf edənlər
Gəldilər, mən gedən yola gəldilər,
Üzülən, yorulan qola girdilər.
Haqqı soyanların dili gödəldi,
Haqq! Deyən səsimin zili göydədi.

Düz yolun düzlüyü nə ağır imiş,
Düz adam nə yetim, nə fağır imiş,
Doğrunu qul edib yalan dahilər,
Fikri, düşüncəsi yalın dahilər.
Oğrular baş olub, doğrular ayaq,
Həyat gəmisinə yalandır mayak.
Sökün, nəyə gərək sirkin binası,
Ölkə başdan-başa sirkdi, ustası
Doğrunu qəfəsdən çəkib oynadır,
Şallağı od saçır, uğunub gedir,
Gülüşü, divarlar uçurub gedir,
Düşünə bilmir ki, gördüyü nədir?!
Necə qılınc çəkim yox həyasına,
Vuracam yalanın od, tayasına!
Diksinib yuxudan oyanan adam;
Yalan közdə, kabab olan
Dərdlərinin sırasına,
Dəftərinin sonrasına
Məni də yaz, savab olar.
Sən arzulu,
Mən arzulu sabah olar!

*23.10.2001.*

## HƏYATIN DİLINDƏKİNƏ

Həyatın dibində eşələnən,
Özündə özünə şeşələnən,
Həyatın üstü var!
Orda nə bataqlıq,
Nə də tüstü var.
Ürək var,
Dilək var, billur kimi.
Sevgi var;
Qönçəsi açılmaıb,
Ətri saçılmayıb.
Açılan qönçələr
çiçək-çiçəkdi.
Çıx həyatın üstünə,
Bilirsən necə göyçəkdi?!
Donuz bataqlığı
cənnət bilən tək,
cənnət bilmə həyatın dibini.
Oxu şeyrimi;
Sil, təmizlə qəlbini,
Bil, bircə dəfə,
Tək bircə dəfə verilən
Həyatın qədrini.

## HEYVAN ADAM

Əlli il,
Gündüzü sərib yoluna,
yıxılmasın!
Ağlayana baxmayıb,
- Gülənə baxmayıb ki,
yanıb-yaxılmasın.

Gecəni sevməyir ki,
Gecə qəbir kimidi!..
Məzələnə bilməyir,
Ot yemir, mal kimidi.
Təzələnə bilməyir,
Çox qədim val kimidi.

Başının,
Qaşının,
Ürəyinin əlli yaşı,
Ağlının üç yaşı var.
Elə bilir;
şöhrətdi, şöhrət,
heyvani şəhvət!

İnsanların müşgülüdü,
Ehtiras düşgünüdü.
- Şəhvət üçün doğulur insan,
Əxlaq çərçivəsində
boğulur insan! – deyir.

Mal kimi yaşayır,
Mal kimi yeyir.
Heç nə eyninə deyil.
Elə gəzir, yeriyir,
Elə bilir dardı göy,
Onun əyninə deyil!

*May 2002.*

## QOCALIQ

İnsanı yaş qocaltmır,
Vəziyyətdi,
        əziyyətdi qocaldan.
Deyər: - Bu, bir həqiqətdi!
Soruşsan hər qocadan.
Aclıq qapı döyürsə,
Öyünürsə, öyürsə,
Yaş neyləsin?
Nadan başda başdısa,
Ağıllı baş neyləsin?
Daşı başa vuran var,
Səbirli daş neyləsin?
Aşı abırsız yeyir
Abırlılar baxırsa,
Sinidə aş neyləsin?

*20.03.2002.*

Qanad açıb uçur çörək,
Buludlara qaçır çörək,
İşığını kasıblara
Əlçatmazda saçır çörək!

Loxma olub elə boğma,
Çoxlara yad, aza doğma,
Ey hamilə ana, dayan,
Uşağını hələ doğma!..

## YERALTI KEÇİD –
## YERALTI CƏHƏNNƏM

*(28 may metrosu yanında C.Cabbarlı meydanının altındakı yeraltı keçiddə açılan bazar bu dünyanin əsl cəhənnəmidir).*

Bir cəhnnəm yaşayıram,
Bir də ki, cənnət.
Cəhənnəmdi cənnət də,
Cənnətdə varsa minnət.
Bu cəhənnəm odunda
Can verir kimə millət?

Qırı yoxdu. Qaynayan
Cəhənnəmdi bu bazar.
Hər alan da, satan da
Burda canından bezar.

Ürəyim qanad çalır,
Qonmağa yeri yoxdur.
Hər yerdə alver gedir,
Qalmağa yeri yoxdur.

Günahlı və günahsız
Burda cəhənnəmdədi.
Bircə kərə gələnlər,
Bilər, cəhənnəm nədi.

Səsləyirəm, gəlsinlər;
Prezident, neçə nazir, -
Desinlər, bu milləti
Kim demiş kimə nəzir?!

Vətənimiz, elimiz, kəndimiz birdi.
Arzumuz, diləyimiz, dərdimiz birdi,
Hər birimiz peyğəmbər, ocağdı, pirdi
Niyə, bölük-bölüyük?

Tanrı bərəkətindən
Ekiz doğuluruq çoxumuz,
Bir-birimizin əyninə gəlir,
Köynəyimiz, çuxamız!
Dədə Günəş – Dədə Qorqud
uşaqlarıyıq.
Nəsil-nəsil barlamışıq.
Çaylarımız, bulaqlarımız
Qurumasın deyə,
Bir-birimizin
dağlarına qarlamışıq.
Niyə, bölük-bölüyük?

Dədə Günəş – Dədə Qorqud qopuzuyuq,
Koroğlunun toppuzuyuq,
Boy boylayan,
Söz sözləyən,
Qız toylayan
Bir eldənik,
Niyə, bölük-bölüyük?

Bu dünyanın heyrətiyik,
Qazax, Şirvan,
Əlincə, Bəz qalasıyıq,
Azərbaycan balasıyıq,
Niyə, bölük-bölüyük?!
*10 dekabr 2002-3iyul 2003-cü il.*

**SABİR**

Torpağa köçdün,
Torpağa çökdün,
Torpağa çəkdin nəyin var.
Torpağa toxudun,
Torpağa oxudun sözü,
Ürək bitirdi, qoxudun sözü.
Ürək ətri gələni, elə verdin,
Ətirsizi yelə verdin.

Xaqaniyə,
Nəsimiyə baxdın,
Yerə axdın,
Bulaqladı yamaclar,
su içdi toxlar, aclar.
Paxıllığa,
Nifrətə axmadın,
Yandırıb-yaxdın!
Daşı, qayanı yıxasıydın,
Daşlara axasıydın;
Heyf, heyf,
Çatmadı vaxtın.
Yol idin, keçdim səni,
Bulağım, içdim səni,
Zəmisi sünbül-sünbül
söz idin,
Biçdim səni
Tarla-tarla
kağızlara səpirəm,
söz bitirən ağızlara səpirəm,
Oxuyurlar;
«Dərsə gedən bir uşaq,
Çıxdı buz üstə qoçaq…»

«Pulsuz kişi, insanlığı asanmı sanırsan»,
«Fəhlə, özünü sən də bin insanmı sanırsan?»
*27.09.2001*

## «TƏK SƏBİR» OXUYUN

Qəlbinizi, ruhunuzu dindirən,
Sizi, sizləri əzənələrə güldürən
«Tək səbir»i oxuyun.
Sözlərini çiçək kimi qoxuyun,
Ayılın yuxulardan,
Sıyrılın qorxulardan!

Sən, ey içinə çökən,
Səni içindən çəkən
«Tək səbir»i oxu ki,
Xof ərisin içində,
Cəsarətin kişnəyib,
Dik yerisin içində.

Vurhavur oyununda,
Əlin qalıb qoynunda.
Hər oğulun, nəvənin
Minnəti var boynunda,
Nə durmusan?

## BELƏ ŞAİR

Kitabını oxudum,
Kütləşdi beynim,
Neylim?
Nə düşmənə nifrətim artdı,
Nə də gözələ meylim,
Neylim?

- Şairəm! – Deyib
          beçə tək banlayırsan,
yetəni danlayırsan.
Səndə ki bu ürək var,
Ömrün boyu beçə qalarsan,
Çətin xoruz olarsan.

**14.06.07.**

## ŞAİR VƏ SƏN

Mən ömrümü yeyəndə,
Sən evdə aş yeyirdin.
Mən sözümü yeyəndə,
Sən evdə xaş yeyirdin.

Mən qələmlə yatanda,
Sən vətəni söyürdün.
Mən sözə don biçəndə,
Sən pulunu sayırdın.

Məni söz ağladanda,
Yüz-yüz araq atırdın.
Qeyrətini ağladıb
Sən suya süd qatırdın.

Mən piyada, gəzirdin
«Mersedes»də, «Volqa»da.
Oxşayırdı ruhunu
Marusa da, Olqa da.

Daha hər şey tükənib,
Dolu döyən bağmısan?
Niyə gəlmir karına,
Xaralla pul yığmısan!

Mənə baxıb gülərdin,
İndi həsəd çəkirsən.
Şöhrətimin önündə
Əyilib diz çökürsən.

Hanı haylı-haraylı,
Gətir-götür günlərin?
Qulların saymır səni,
Saymaz ötür günlərin…
*24.02.2002.*

## MAL-QARA

*(Ömrün mənasını ancaq və ancaq meşşanlıq-da, yeyib-içməkdə görənlərə)*

Qarın dolub, dəfdi, dəf,
Çal, oyna, çal, kefdi, kef.
Ye, durma, ye, var ələf,
Qanqal açıb hər tərəf,
Naxır səni gözləyir
Axur səni gözləyir.

Et qələmi zurna, çal,
Hər tərəfə haray sal.
Şəhərdə, gah kənddə qal,
Gəlsə dədən, rüşvət al.
Naxır səni gözləyir,
Axur səni gözləyir.

Salma elə meylini,
Baxma, pozar eynini.
Ye, piyləsin beynini,
Sev dərini-əynini.
Naxır səni gözləyir,
Axur səni gözləyir.

Qoduğ kimi lovğa gəz,
Şıllaq atıb dahi əz.
Tüstü çıxır, durma, tez,
Qaç, özünü yetir tez,
Naxır səni gözləyir,
Axur səni gözləyir.

İşləmir ağlın daha,
Paxır səni gözləyir.
Əvvəlin əldən qaçıb,
Axır səni gözləyir.
Mal-qara, ay mal-qara,
Naxır səni gözləyir,
Axur səni gözləyir.

*May 2002.*

## YENƏ

*(Azərbaycan nümayəndə heyəti Avropa Şurası-nın Fransada keçirilən toplantıdan qayıdıb).*

Yenə, yenə qulaqlar
oddan-oda düşəcək,
Yenə bizə güləcək
yaxınlar və uzaqlar.
Yenə yada düşəcək
Çil toyuq, tək yumurta,
Nə verəcək bu yurda?

- Gözün aydın, ay Vətən,
Qoç Koroğlu doğulub,
Onun qadir əlində
düşmənimiz boğulub.

Yat arxayın, a qaçqın,
Çırtma vur, oyna köçkün.
Yat, yuxu gör, yuxuda
Bəlkə yurduna köçdün.

Yada düşdü Lissabon;
O vaxt qaynadı, daşdı,
Tərif həddini aşdı,
Dil ağızda dolaşdı,
Söz də qana bulaşdı.
Partladı boş körpüklər,
Cücərmədi kötüklər.

Həya, abır gözləyin,
Bəsdi, bizi çəkməyin
Yalançı cənnət-gora,
İnanmırıq goplara!..

*27.09.2001.*

## SÖNDÜRÜN İŞİQLARI

Söndürün işıqları;
Qamaşdırır gözümü!
Söndürün işıqları;
Mən görmürəm özümü!
Söndürün işıqları;
İşıq işığa düşmən!
Yetəni söndürməyin,
Sönsün, üstümə düşən!
Söndürün işıqları:
Boy verməsin boyuma,
Kölgə salar soyuma!
Günəşi də söndürün;
Qoy məni görməsinlər!
- Sən ki. sönmüsən! – deyib

Üstümə gəlməsinlər!
Söndürün işıqları;
Qoy közərsin yalanlar!
Hələ sağam, varam mən,
Qoy gözləsin yananlar!
Söndürün işıqları;
Rəqs eləsin yalınlar!
Söndürün işıqları;
Yarasalar çoxalsın,
Beşiyimi çalxasın,
Məni Dahi tanıdıb
Gözü üstə saxlasın!
**22 iyul 2001.**

**YALTAQLARA SÖZÜM**

İqtidarın önündə uşaqlaşanlar,
Kökündən, soyundan uzaqlaşanlar,
Pulla, sərvət ilə qucaqlaşanlar,
Aylarla, illərlə mazaxlaşanlar,
İlhamı zorlamayın,
Sözləri korlamayın!
Uunutmayın, şairlər,
Tanrıdan seçilmisiz –
Qulların seçdiiynə
- Tanrı! – deyib
kiçilmisiz!
İqtidarı görəndə
ey bağrı yarılanlar,
Xaqanisi, Nəsimisi var sözün.
Ağrıların zirvəsinə çıxmaq üçün,
İynə sözün, tikan sözün
ağrısına siz dözün!

Söz sobası – şairlər
Əritməli dərdi, qəmi,
Göyə bülənd olmalı sözün nəmi!
Qarınotarana dönməsin şair,
Tanrı zirvəsindən enməsin şair!
Xəcalətdən ölün, itin,
Sözə güvə düşməsin.
Torpaq süzsün,
çiçək bitin, qoxlasınlar.
Ürəklərə güc gətirin,
qorxmasınlar!
Xaşa bitin,
Yonca bitin,
Keçi yeyib süd eləsin,
At otlayıb güc eləsin!

*22 iyul 2001.*

## BU TƏKƏBBÜR, BU İNAD

- Sən! Sən! – dedik,
- Mən! Mən! – dedik,
Qorumadıq Qarabağı.
Bu təkəbbür, bu inad
Doğmaları yad etdi,
Yapışmadı əl əldən,
Ayrı düşdü el eldən.
Ermənıyə yağ olduq,
Özümüzə dağ olduq,
Pərən-pərən dağıldıq.
Kürsüyə yetmək üçün,
Kürsüdə bitmək üçün,
Gizli-gizli
Özümüzlə hünərləşdik.
Gizli-gizli

Düşmən ilə hənirləşdik;
Bic olarlar bic oldular,
Üstümüzdə güc oldular,
- Mən! Mən! – deyən ağıllılar
Bic əlində gic oldular.

Deyil tamam, kəmdi Vətən;
Gözləyirik, görək nə vaxt
Ağ sinidə gəldi Vətən!..
*26.10.2001.*

**YUXU**

Pişiyin yuxusuna siçan gəlir,
İtin yuxusuna ət.
Cıdır atlarının yuxusuna
Yarışda sürət!
İş atının yuxusuna ot,
Toyuğun yuxusuna dən gəlir.
Kasıbın yuxusuna yağlı pulov.
Ovçunun yuxusuna uğurlu ov,
Canavarın yuxusuna
Səsindən diksindiyi,
qorxduğu zınqırov gəlir.
Tülkü yuxuda da iy çəkir.
Yaltaqlanır, diz çökür,
Belədir həyat,
canlılar
Gündüz necə yaşayır,
Yuxusu onu daşıyır.

# ƏRUZ VƏZNLİ ŞEİRLƏR

## NEYLƏYİM ALLAH

Çoxları qanmazdı, qana bilməyir,
Hiylə hopub canda qana, bilməyir.
Daşdı, kəsəkdi! Bu elin, bu yurdun
Eşqinə bir gün də yana bilməyir
- Can! – dedim, onlar elə anqırdılar,
Neyləyim Allah, məni yandırdılar!

Kimsə qumarbaz, kimi itbaz olub,
Ağlı sönüb ölkədə kütbaz olub.
Qarnı şişib guyə ki, kefbaz olub:
Gördülər el dərdini yan durdular,
Neyləyim Allah, məni yandırdılar!

Bunlara məxsusdu gəlir, nəzirlər,
El malını lum-lum udub gəzirlər.
Harda görürlər düz adam əzirlər,
Doğrulara düzlüyü dandırdılar,
Neyləyim Allah, məni yandırdılar!

Özgə kimi eldə işi əyirlər,
Günahsıza – günahkardı!,-deyirlər,
Sərçə kimi it tökəni yeyirlər,
Nə etmişəm onlar üçün, danırlar,
Neyləyim Allah, məni yandırırlar!

Harda günah var, atılır üstümə,
Şövqlə, ləzətlə baxılır tüstümə.
Gör neçə nadan dayanıb qəsdimə:

Güclü şiri, tülkünü andırırlar,
Neyləyim Allah, məni yandırırlar.

## NƏ QƏMİM VAR MƏNİM

Günəş dönüb, gün olur artıq yarı,
Elçi gedin elçiləyin gül yarı.
Kama yetim mən də alıb dildarı;
«Naxçıvan»ım, üç «Məmməd»im var mənim,
Evlənirəm, eh, nə qəmim var mənim?!

«Vağzalı» çal, qoy başıma bəy tacı,
Süfrələsin toy yerini hər bacı,
Tərk eləsin qoy canımı hər acı;
«Naxçıvan»ım, üç «Məmməd»im var mənim,
Evlənirəm, eh, nə qəmim var mənim?!

Bəxt açılıb, pullu çıxır qarşıma,
Çox pəzəvəy çullu çıxır qarşıma,
El tanıyan soylu çıxır qarşıma;
«Naxçıvan»ım, üç «Məmməd»im var mənim,
Evlənirəm, eh, nə qəmim var mənim?!

Saymaram əsla yetəni, şir ola,
Zərbi məsəldir bu sözüm ay bala;
Əldə burun dəsmalı de «Şirvan»[1]a,
«Naxçıvan»[2]ım, üç «Məmməd»[3]im var mənim,
Evlənirəm, eh nə qəmim var mənim?!

1 – XX əsrin 90-cı illərində onluq,
əllilik və bir manat idi.

## VARSA ÜMİD, BƏSDİ BU

Tüstü çıxır başından ölkədə kasıbların,
Hərarəti qırxdadı kölgədə kasıbların,
Yatan bəxti oyandı bəlkə də kasıbların,
Səbr eləyin, gözləyin, hiylə hələ yoldadır,
Varsa ümid, bəsdi bu, söyləyin – əl baldadır!

Kim qazanır, kim yeyir, son qərarı kim verir,
Tərif edib işçini rəis ağa gül verir,
Ocağ necə yansa da sonda yerə kül verir,
Səbr eləyin, gözləyin, hiylə hələ yoldadır,
Varsa ümid, bəsdi bu, söyləyin – əl baldadır!

İşçi maaş istəyir, rəis umur rüşvəti,
Marıqdadır it kimi, görsə cumur, rüşvəti,
Axır keçir yanından, Kür də yumur rüşvəti,
Səbr eləyin, gözləyin, hiylə hələ yoldadır,
Varsa ümid, bəsdi bu, söyləyin – əl baldadır!

Vəzifəyə kim gəlir, yalmanırıq it kimi,
Zəncirinə baş verib yalvarırıq it kimi,
Eldə pişikdən geri qalmayırıq it kimi,
Səbr eləyin, gözləyin, hiylə hələ yoldadır,
Varsa ümid, bəsdi bu, söyləyin – əl baldadır!

## ALİMDI KİŞİ

Kukla kimi gəzər əl-əl,
Şəstimizə vurar xələl.
Dolar cibi, verər xəbər
Hünər bilər bu vərdişi,
Bəs necə? Alimdi kişi!

İgid oğul ordu basar,
Fərsiz oğul yurdu basar.
Arxalı it qurdu basar –
Kəşf eləyib o, bu işi,
Bəs necə? Alimdi kişi!

Çətin yolu «gələ» bilib,
Sirr qatına «girə» bilib,
Otuz ilə görə bilib
Burnunun üstündə şişi,
Bəs necə? Alimdi kişi.

Dost əlini tuta-tuta,
Pərçim olub instituta.
Oğul gərək tutub ata,
Tərsə dönə bu gərdişi,
Bəs necə? Alimdi kişi!

Faydası yoxdur elmə,
Saman dirəkdir elinə.
Düşəndə fürsət əlinə,
Üç eləyir dördü, beşi.
Bəs necə? Alimdi kişi!

## MÜXALİFƏT

*(Müxalifətəm! – deyib yad ölkələrin pulu ilə coşub çağlayan bəzi partiya və dəstələrə)*

Tər tökür el, biz yeyirik ölkədə,
Hey yatırıq, dincəlirik kölgədə!

Ölkəni vıranə qoyan bizlərik,
Hiyləmizi pərdələrik, gizlərik,
Yadlar üçün daim ocağ közlərik,
Səhvdi, deyirlər biz həya gözlərik,
Hər şeyi tərs, əyri görən gözlərik!

Cılxa qızıldır ipimiz, xaltamız,
Yox, hələ bilmir nəçiyik xalqımız,
El küsəcək, çıxsa üzə xaltımız,
Tər tökür el, biz yeyirik ölkədə,
Hey yatırıq, dincəlirik kölgədə!

Biz beləyik, eh, bizə nə, inci, küs,
Kim nə desə, hay salarıq: - pisdi, pis!
Üzdə gülük, aç içimiz hisdi, his,
Millət adından danışıb çağlarıq,
Hər birimiz beş-on qoçu saxlarıq!

Dahilərə hürdürərik xamları,
Uçurdarıq üstünə daş-damları,
Bəsləyərik yaltağı, nadanları,
Dünyada məşhur, tanınan adlarıq,
Kim toxunar nəfsimizə, odlarıq!

Kimlərə nə, pul bizə hardan gəlir,
Arxadan, öndən, ya da daldan gəlir?
Bayrağı ulduzlu diyardan gəlir,
Xərcləmirik, pul səpirik ciblərə,
Şeytana diz, arxa bizik cinlərə!

Kimsə pişikdir, hələlik biz siçan,
Biz də şir olluq dolanar vaxt haçan.
Yox sıramızda hələ bir sirr açan,

Yadlara doğma, Vətənə yad bizik,
El gözü yaşlı, ürəyi şad bizik!

Bizləri yadlar tanıyır, oxşayır,
Başda Klinton, neçə Kol oxşayır,
Duymuşuq artıq - bizi el boşlayır,
Bizlərə nifrətli hücum başlayır…

*Qeyd:*
*Klinton – ABŞ prezidenti*
*Kol – Almaniyanın konsleri.*

## NADAN VƏZİFƏLİLƏR

Yeyib-içib yatanlar,
Bu millətin yolunda
Hər günaha batanlar,
Doğru sözə fit çalıb
Yalan sözü tutanlar.
Süd demirəm, süd nədi,
Ayrana su qatanlar,
Yeyib əti, qaymağı,
Xalqa sümük atanlar,
Yeyin, şişin, dəmlənin,
Var zərəri, var cana
Nəbadə siz qəmlənin!
Bəxtə zərərdir, zərər,
Xalqa qaqaş olmayın,
Bağrı-badaş olmayın.
Seçilmisiz, çatmısız
Vəzifəyə, şöhrətə,
Layiqsiniz ölkədə
Mükafata, hörmətə!
Bu millətə, bu xalqa;
Qalxmaq üçün enmisiz,

Tumarlayıb, tovlayıb,
Noxtalayıb minmisiz!

## VAR

Zahirdə də, batində də min bir yalanım var,
Bu milləti yox etməyə min bir planım var,
Hər sahədə, hər yerdə də min bir klanım var,
Baş açmaz əgər gəlsə fələk də, əməlimdən,
Tufan edərəm, zara gələr millət əlimdən!

Millət qul olub qalsa əgər yadın əlində,
Yıxmaz məni tufan nədi, fəryadı elin də,
Düşsəm, çıxaram, ölmərəm ağzında selin də,
Baş açmaz əgər gəlsə fələk də əməlimdən,
Tufan edərəm, zara gələr millət əlimdən!

## SAHİBINİ İT TANIMAZ BƏLKƏ DƏ

Ac-yalavaclar daraşıb millətə,
İndi qoduğlar yaraşıb millətə,
Milləti yadlar qarışıb millətə;
Sahibini it tanımaz bəlkə də,
Sahibi də öz itini ölkədə!

Çoxlar itirmiş başını, baş gəzir,
Boş başına salmaq üçün daş gəzir,
Yandı quru, eldə ocağ yaş gəzir,
Kimdi qovan, kimdi qaçan, kim bilir?
Sübh açılar bir də haçan kim bilir?

Hey qaçır el, bilmir hara kim qaçır,
Odlu ocaqlar qaralıb kül saçır,
Alver üçün hər yerə millət uçur;
Ölkə qazandır, qarışır, çömçə kim?
Körpəçə qızlar dul olub, qönçə kim?

Bit daraşan quş kimi el küllənir,
Kimdi? Baxır, daş ürəyi güllənir,
Küldə qalan qor ara-bir dilələnir;
Tez su səpirlər başına, sönsün o,
Olmasa kül, qoy kömürə dönsün o!

Harda durub yurda nəzər salmışam,
Fikrə, xəyala nə qədər dalmışam,
Vallah, özüm də gic olub qalmışam;
Bəxt açılar, bəxti sönər zülmətin,
Dərdinə dərman tapılar millətin!

Arxayınam, bax, belə bir gün gələr,
Onda qəbirdə ürəyim dincələr!

## KİMDİR O?

Tər çiçəyi başdan əzir, kimdir o?
Şər işi də güldə gəzir, kimdir o?

Gül bitirir cümlə şəhər, kəndimiz,
Kəşf edirik bir yenilik gündə biz,
Tikanlı qanqal, yemişan, gül də biz,
Tər çiçəyi başdan əzir, kimdir o?
Şər işi də güldə gəzir, kimdir o?

Ölkələrin indi bizik möhtacı,
Gündə gəlir üstümüzə neft acı,
Baş axtarır qonmaq üçün neft tacı,
Hey çalışır, tər də tökür mərdimiz,
Neftlə yuyulmur Qarabağ dərdimiz.

Quduzlaşıb bəziləri it kimi,
Bəziləri lal yeriyir bit kimi,
Kimdi, bilir eldə özün büt kimi,
Eldə eli dərdi əyir, ay kişi,
Nakəsi yox, mərdi əyir, ay kişi.

Hamı susur, mən deyirəm hər nə var,
Tərləmisən, al, belinə sal navar.
Fərqi nədir, at olmasan, ol davar,
Kimdi kimi, zorla atır tonqala,
Kimdi, kimi zorla qatır qanqala?!

Milləti kimlərdi salan pis günə,
Şişmiş alaqlar deyir hey – pis, gülə.
Kimdiki, qoymur çiçəyi püskürə?
Püsgürən olsa, yox olar, qan qalar,
Əl-üzünü qanla yuyar qanlılar!

Tut qulağından, tanıyaq kimdir o?
Bəlkə ocaqda qaralan küldür o?
Ay kişi, bəlkə dəridə kirdir o,
Çək kisə çıxsın, canımız dincələr,
Duyğularım, arzularım incələr!

Ay camaat, canımız əldən gedir,
Kim kimədir, kim gedir, eldən gedir,
Eldə igidlər, kişi, feldən gedir,
Tanrı, bizə sən tələsik çarə qıl,

Alimi, nadan kişiyə etmə qul!...
Yurda, elə əngəl olan puldu, pul!
Pul kimə qul, kim də pula quldu, qul!

## NƏFSİNƏ QURBAN ELƏMƏ MİLLƏTİ

*(Satqın siyasət dəllalına)*

Nəfsinə qurban eləmə milləti,
Üstünə yorğan eləmə milləti.

Çox da ki, elmin ucadır çoxundan,
Var xəbərin eldə elin toxundan,
Hökm eləsən, var eləyər yoxundan,
Nəfsinə qurban eləmə milləti,
Üstünə yorğan eləmə milləti!...

Miləltimin dərindədir kökləri,
Hünərlidir arıqları, kökləri,
Qoşunları şül-küt edər təkləri;
Zirvədi, dağdan eləmə milləti,
Üstünə yorğan eləmə milləti!...

Etmə dəli cibləri boş dahini,
- Qarğa! – deyib vurma yerə şahini,
Etmə zəlil xalqı sevən şairi,
Millətə yarğan eləmə milləti,
Üstünə yorğan eləmə milləti!...

Sən nə dedin, biz də coşub qaynadıq,
Bəsdi daha hiylən ilə oynadıq,
Keçdi ömür, yaxşı xəbər almadıq?
Yükləmə, yorğun eləmə milləti,
Üstünə yorğan eləmə milləti!...

## AZƏRBAYCAN BU GÜN

Milliləşib – milli olub hər yetən,
Hey danışır, dilli olub hər yetən,
Bilməmişik, bəlli olub hər yetən,
Nadan adamlar yetənə dərs veirir,
Zurna çalanlar səsinə səs verir!

Hərzə Həcər fit püləyir kölgədə,
Tülkü Nəcəf qaz diləyir kölgədə,
Qoç Nəbilər tük tüləyir kölgədə,
Körpələrin alveri əla gedir,
Bax gözünə, gözləri fəryad edir!

Özgələşib yurda yananlar bizə,
Örnək olub cılxa yalanlar bizə,
Xam görünür eldə qananlar bizə,
Yığ beləsin, qoy mələsin, at düzə,
Bəsdi kişi, yerdə qalanlar bizə!

Neft qoxusu çoxlarını dəmləyir,
Özgələri yurdumuza cəmləyir,
Gülləsi səssizdi, səsi gəlməyir;
Hər tərəfə rüşvət açır pəncərə,
Təlim edir əyriliyi gənclərə!

Ölkəni almış əlinə gəlmələr,
Dönsə də südlü yelinə gəlmələr,
Süd verə bilməz elimə gəlmələr,
Olsa da dildən qaçaraq gəlmələr,
Zərrə zərərdən qaçacaq gəlmələr!

## NƏYƏ LAZIM

Satdım vətənin hər qarışın yadlara bir-bir,
Gördüm neçə cür tədbirə qarşı yeni tədbir,
Getməz uzağa, varsa qanan, ölkədə tək bir,
Tikdim, tikirəm onlar üçün də təzə zindan,
Vermək yada, yox! yox! Sevirəm onları candan!

Olmaz yetişə ölkədə hər gün yeni dahi,
Bəsdi, tanıyır körpə, böyük də məni dahi!
Zənd etmə, bilə ölkədə kimsə səni dahi,
Görsəm belə şəxs, gözlərimə qəsd edərəm mən,
Gizlin yol ilə, iynələyib məst edərəm mən!

Eldə pisimi pərdələyib əla edən var,
Qanqal bitirəm, tilsim ilə lalə edən var,
Sözdür, deyilir: - ac dolanıb nalə edən var,
Düşmən sözüdür, şayə yayır ölkə içində,
İnsandısa da cin yaşayır bəlkə içində?!

Əzdim, ələdim milləti, xəlbir nəyə lazım?
Əqlin xədim etdim, daha tədbir nəyə lazım?
Kəsdim başı min-min, kişi, bir-bir nəyə lazım?
Qazdan ayığam, ölkədə kimsə mənə batmaz,
Kəssəm kiminin köklərini, bir daha artmaz!

Yığdım yanıma yaltağa yaltağları hər gün,
Tərif deyələr şənimə, qəmlər ola sürgün.
Kişnərti çəkəm at kimi mən, el ola ölgün,
Baş açmaya mən neylmişəm, neyləyəcəm də,
Etdim nə bilirdim, hələ mən eyləyəcəm də!

## QULAQ ASMA DEYİLƏN SÖZLƏRƏ

Qopa lap Yer kürəsi, Ay təməlindən,
Ölərəm, çəkmərəm əl öz əməlimdən.
Tutam a…a, ölsə də çıxmaz əl əlimdən,
Qulaq asma deyilən sözlərə, oğlum,
İçi boş qozdu o sözlər, kəsir ağlım!

Fal açın, ovsun ilə lal ola millət,
Bilməyə söhbətini, mal ola millət,
İtə, qurda, pişiyə yal ola millət,
Dili ağzında yana, göz döyə bilsin,
Olmaya taqəti ki, söz deyə bilsin!

Yalanı tüstülədin, ölkə bulansın,
Nur görənlər sevinib ağzı sulansın,
Kor olan millətimiz çöldə dolansın,
Yesin otdan, ələfindən, kama çatsın,
Qış gələndə nəyi var, qoy yenə satsın!

Düzə qalsa, mən özüm, hambal olardım,
Tez açıb gül kimi mən, tez də solardım,
Tay olub bir çobana çöldə qalardım,
Nədi fərqi, sürüdür el də, qoyun da,
Sənə qurbandı oğul, kəs ye toyunda!

Top atıb doğru sözü küy, yalan etdim,
Həmişə doğru deyən kəsləri ötdüm,
Yalan ilə ucalıb gör hara yetdim?
Yalana qurban olum, bəxt üzüyümdü,
Yalan üstə qalayam, küy özülümdü!

## ETİRAF

Yanıram, köksümə dağlar çəkilir,
El niyə kordu?
Çəkirəm, naləmi eldə eşidən yox,
El niyə kardı?
Aman Allah!
Bu vəzifə məni yordu!
Yedi kimlər vətəni,
Ad mənim oldu!
Daraşıb yurda qohumlar,
Demə: - olmaz!
Olur eldə canavar
hətta qoyunlar, keçilər!
Dəyişir bunlar üçün
yol, bütün izlər, küçələr.
Sinələr meydan olur
nəşəli gözlə baxana,
Demə-Gündüz! Gecə də!
Dəyişir xislətimiz,
hər gədədən dərs alırıq,
Kim bizə versə düz əl,
Yüyürüb tərs alırıq biz,
İnanıb; - keyfimi qoydum dəmə ki,…
Zamanın çarxı geri
Fırlanar imiş demə ki;
Dənizə döndü bu millət, dənizə,
Dirənib durdu üzə!
İstədi dağlar aşa,
ermənıyə tor da hörə;
Dalğa-dalğa dağa dəydi,
qırılıb düşdü yerə!
Havada qapdım elin kürsüsünü,
Sındırıb yurdun, elin güzgüsünü,

Qoymadım görsün özündən qabağı,
İşlədi! Çıxdı topuğdan qabığı!
Yığılıb xarici banklarda pulum,
Bütün aləmdi qulum!

## YA MƏNƏM, YA DA Kİ, ALLAH

Elə-Xalq! Xalq! – deyirəm kəlməbaşı,
hiyləmi gizlətmək üçün,
Pıça-pıçla yaşayan millətimi
hər gecə izlətmək üçün!
Verirəm yağlı ümidlər bu elə,
kölgəmi gözlətmək üçün!
Bölürəm millətimi, bir-birini
it kimi dişlətmək üçün!
Gözünü kölgəli etdim, kişini
qul kimi işlətmək üçün!
Bəslərəm oğrunu, nazir bilirəm
doğrunu gizlətmək üçün!
Mənə kəm baxsa biri, həps edərəm,
mal kimi bizlətmək üçün!
Bəslərəm bir neçə şair, məni də
dahiyə bənzətmək üçün!
Verərəm yurdun, elin sərvətini
canımı gənc etmək üçün!
Qıymaram, millətimə zövqü-şəfa,
zilləti tərk etmək üçün!
Qoymaram el tox ola, elmə gedə
məntiqi dərk etmək üçün!
Dikələn başları kəsdim, bu elə
üsyanı tərgitmək üçün!
İçirəm qan ki, cəhənnəm yoluna
ömrümü ləngitmək üçün!
Yığıram baş başın üstə göyəcən,

Allaha yol getmək üçün!
Ya mənəm, ya da ki, Allah!
Gedirəm bu işi həll etmək üçün!

**GÜL BALA, GÜL, GÜL**

Bəsdir mənə güldün, daha bəsdir,
İndi özünə gül bala, gul, gul!
Bəsdir məni çəp görmüsən, indii
Sən çəp gözünə gül bala, gül, gül!
Tökdün başına ölkəmizin kül,
Ağla, vətənə gül bala, gül, gül!
El Məcnun olub! «Volqa»da gəzdi,
Xalqın yamağı sən kimi bic, gic!
Bax, bax, ləzzət al, gül bala, bic-bic!
Tax, tax yaxana saxta qızılgül,
Ol qəhrəmanı məğlub elin sən,
Əl vur əlinə, gül, bala, gül, gül!
Çaldır «Qarabağ» sən Qarabağsız,
Gəlsin, de, Məlahət fala baxsın;
Versin sənə cənnət, xumar ol, yat,
Gülsün, o xumar gözlərin axsın!
Öyrət, sülək olsun vətən oğlu.
Bil, qədrini bil, gül bala, gül, gül!
Bir gün güləcəm mən, bunu bil, bil!
Bəxtin oyanıb! Gül bala, gül, gül!

**MƏN QƏMİN HEYKƏLİYƏM**

Halımı eldən soruş, halıma kimlər nə deyər?
Halımın halı üçün ağlasa güllər, nə deyər?
Qor olan halımızı gizlədə küllər, nə deyər?

Halımın halına ağlar halı məndən də betər,
Yetməsə halıma kim, halı pərişan ki, yetər?!

Qəmlini qəm əridər, qəmsizə cənnətdi vətən,
Qəmliyə eşqin odu, qəmsizə minnətdi vətən,
Qəmsizə qəm yetirib, qəlbini inlətdi vətən,
Mən qəmin torpağıyam, hər cürə qəm məndə bitər,
Yetməsə halıma kim, halı pərişan ki, yetər?!

Qəm ilə bağrıbadaşam, fərəhim gəldi-gedər,
Qəm gələr mənzilinə, çöldə fərəh növbə güdər,
Mən qəmin heykəliyəm, əsmə külək, əsmə hədər,
Zərrəmi almaq üçün milyon əsr vaxtın itər,
Yetməsə halıma kim, halı pərişan ki, yetər?!

## TANRI, YA AL CANIMI

Gündəliyin, aylığın, hər şamın hazır gəlir,
Arxalısan sən deyə, süfrənə nazir gəlir,
Səbr ilə sat yerləri, arxada nazın gəlir,
Mən də yetim şairəm, nəynə gərək mən kiməm,
Şölə saçan külümdə, sönən, solan boz küləm!

Qardaşınam, dostunam, görməmisən sən məni,
Çox da ki, çox məqsədə kökləmisən sən məni,
Eldə səsim gəlincə bəkləmisən sən məni,
İndi tamam dönmüsən: - yerdə mənəm, göydə sən,
Bir dəriyəm, bir sümük, sən yekə bir gövdəsən!

Yad gələ, yaltaqlanıb, önündə çest verirsən,
- Qal! – desələr, qalırsan, - Öl! – desələr, ölürsən.
Doğmaların dahidi, doğmalara gülürsən,

Gülməlisən, gülməli, ay kişi, mən neyləyim?
Ölmədi mən ölməli, ay kişi, mən neyləyim?!

Hər nə ki, var ölkədə, sahib olub qoduqlar,
Yatsa biri kölgədə, nökər gəlib qıdıqlar.
Yeyər, içər özgələr, bizimkilər qan ağlar,
Biz inciyək ay dadaş, inciməsin qonaqlar,
Biz incələk, inciyək eyb eləməz, qonaq var!

Cənnət idi ölkəmiz, kimlərə meydandı gör,
Dünya dönüb tərsinə, kim kimə heyrandı gör,
Əhlilləşib çox heyvan, kim hələ heyvandı gör,
Vay halına şairin, halına heyvan yana,
Tanrı, gəl al canımı, tay eləmə heyvana!

## HAQQA GƏLİN, HAQQA!

Haqqa gəlin, - haqq! – deyib dadi-bidad eylərəm,
Nəsimini, Hadini, Sabiri yad eylərəm!

Haqqa gəlin, haqqa ey..y..! Xalqa yalan deyənlər,
Canda sümüklərimi haqq üçün od eylərəm!

Haqqa gəlin! Yoxsa mən, haqqı zəfərləndirib,
Şəhidlərin, - mərdlərin ruhunu şad eylərəm!

Haqqa gəlin, cənablar! Haqq ilə yoğrulmuşam,
Gözləmərəm kimdi kim, doğmanı yad eylərəm!

Haqqa gəlin, haqqa ey..ey! Mənəm! Mənəm!-deyənlər,
Zülmü viran eyləyib, dünyada ad eylərəm!

Dünya gülür bizlərə pis üzlərin üzündən,
Pis üzlərə pis baxıb – dadi-bidad! – eylərəm!

## AY ÖLÜLƏR

Tarla, zəmi qaynayar, çağlayardı nəfəslə,
Dərsə, işə, məktəbə gedərdi el həvəslə,
Bir insanı, kimsəni nə hayla, nə də səslə!
Salam verib, əl verib, dillərə bal qatdılar,
Pərdələyib gözləri, milləti aldatdılar!

Tarla küsüb adamdan, adam küsüb tarladan,
Hamı qaçıb alverə, alver edir parlaman,
Arpa, buğda, urfa yox, pişik çıxır torbadan,
Pişik qaçdı, dalıycan çəkmə tayı atdılar,
Deyib: - vara nə darlıq, eldə başı qatdılar!

Avam bilib milləti yalan deyir başbilən,
İndi ayaq dahidi, köhnəlikdi baş bilən.
Başdaşını qaldırıb dinlə məni ay ölən,
Bulandırıb milləti eldə nə var, satdılar,
Ay ölülər, sizləri, bizləri aldatdılar!

Millət uyub alverə, ildən-ilə cırlaşır,
Bazarda, bulvarda, həm meyxanada zırlaşır,
Vətən satan, el satan əlbir olub curlaşır,
Ay kişilər, ayranı yağlı südə qatdılar,
Vedrə çalıb, əl çalıb milləti oynatdılar!

Kimdi baxan, dinləyən, mən nə deyim millətə?
Ağ dərilər gönləşib, işləməyir mil ətə!
Söz də düşüb kəsərdən, etmir əsər dil ötə!
Qələm küsüb, söz küsüb şairi də atdılar,
İş! İş! – deyən əllərim mürgüləyib yatdılar!

Böyük nədi, körpələr bir-birinə yaddılar,
İnsana, insanlığa bir quruca addılar,
Dilənçi, alverçi də kösövləşən oddular,
Çətin bir də şöləsi eldə qazan qaynada.
Çətin bir də milləti kimsə çala, oynada!

## BƏSDİ

Bəsdi danışdın, kişi,
Yandın, alışdın, kişi,
Bu millətin yolunda
Qəmlə qarışdın, kişi.

Sözlə qarın dolmayır,
Nə dərd, nə qəm solmayır,
Ha çalxala, silkələ,
Uzun qısa olmayır.
Zavod, filan işləmir,
Kim işləyir, dişləmir,
Uşaqlar hey gözləyir,
Qazanda daş bişməyir,
Beyinləri kir basır,
Əyinləri bit basır.
Maşında mal görəndə,
Yüz polisin fit basır.

Ay bala, sən banlama,
Toyuq görüb yanlama,
Bilmədiyin çoxdu, çox,
Sığışmaz o, anlama.

## KİMDİ

Gop eyləyir ölkədə ağlı, beyni yalınlar,
Çiçəklənir, tozlanır, bar gətirir yalanlar,
Göbəklənir, piylənir nəfsi iti olanlar,
Hər almanın, heyvanın qurdu kimi, inan sən,
Bu iqtidar qurd olub xalqı yeyir içindən!

Kraxmallı köynəyi, kalustuku varsa da,
Bir çoxunun zahiri qonşu bağrı yarsa da,
İş yerinin yolları adamları yorsa da,
Evdə acdı külfəti, mədəsi dumbul çalır,
«Tək səbir»in naləsi aləmə hay-küy salır!

Axtalayıb qeyrəti kimdi çəkən canından?
Mənliyini titrədib kimdi tökən canından?
Öz canına baryeri kimdi tikən canından?
Kimdi, kimdi, hay salıb bu milləti xoflayan,
Çıxıb mavi ekrana millət üçün goplayan?

Ölkə vətəndaşları Rusiyada alçalır,
Burdakılar goplara, yalanlara əl çalır,
Talançılar, küyçülər yurdumuza küy salır,
Avam gəlir riqqətə, əl-qol açıb oynayır,
Yalançı, «fakt» önündə doğruçunu danlayır!

## YOL BOYU

*(Türkiyə prezidenti S.Dəmirəl*
*Bakıya gələndə)*

Millətə əyyandı bizim zövqümüz,
Kürreyi-ərzi bürüyüb şövqümüz,
Lal eləyib şərqliləri şərqimiz,
Kəsdi qoyunar qoyunu yol boyu,
Kəsdi diləklər boyunu yol boyu.

Qırmızı lentlə bəzənib nəzirlər,
Alver edənlər girəvə gəzirlər.
Çıxsa səsi, toxlar acı əzirlər,
Kütlər açırlar oyunu yol boyu,
Qurda satırlar qoyunu yol boyu.

Guya sevincdən bayılıb çoxları,
Bir də qəbirdə ayılıb çoxları,
Qurddu, adam da sayılıb çoxları,
Çalqı da var, ver qoyunu, yol boyu,
Ac gedib etsin toyunu yol boyu.

Çıxdı zilə qiyməti yaltaqların,
Yol keçib üstüylə bu ət tağların,
Yağladı, eşdi kimi də bığların,
Sərçə unutdu soyunu yol boyu,
Nər kimi gördü boyunu yol boyu.

Görməmiş Allah da belə təntənə,
Seldi, şırımlar da açıb tər tənə,
Kim kimə qurmuşdusa, tutmuş tələ,
Fənd ilə almış payını yol boyu,
Bir günə vermiş ayını yol boyu.

Düşməz ələ bir belə fürsət deyə,
Taleh edib bir belə qismət deyə,
Get-gedə alsın belə vüsət deyə,
Düz adamı, lap ayını yol boyu,
Get-gedə artır sayını yol boyu,

Çək kasetə, gəzsin əl-əl dünyanı,
Heyrətə salsın bu əməl dünyanı,

Salmaq üçün sahmana, gəl, dünyanı.
Tanrı, özün tap tayını yol boyu,
Çör-çöpə döndər payını yol boyu.

## M.Ə.SABİR TİPLƏRİ BU GÜN

- Nə xəbər var, Məşədi?
- Sağlığın.
- Az-çox da yenə?
- O gədə!
- Hansı gədə?
- Ələsən-hey tələsən AXC-dən də doyub,
Yeni bir partiyanın üzvü olub!
- Dəxi kim qaldı Xudaya,
Bu vilayətdə birüzlü?
Məgər o bir siqaret, partiyalar külqabıdır?
«Elə isə pəs o lənin də işi qüllabıdır»!

- «Dəxi bir başqa xəbər?»
- O gədə
Gah küsür, gah da görürsən çoxuna gəldi hədə…
- O gədə! hansı gədə?
-Ələsən – hey tələsən
Soxulubdur AMİP-ə.
-Ola bilməz!?
- Olub artıq!
- Belə sırtıq,
Onda AMİP-dən də gedər,
Yeni bir partiyaya minnət edər!
- Dəxi bir başqa xəbər?
- Yenə bir şübhəli şəxslə danışıb!
- Kim, adə?
- Ələsən – hey tələsən.

- Yenə o?!
Məgər o bir siqaret, partiyalar külqabıdır?!
«Elə isə pəs o lənin də işi qüllabıdır!»
Yaxşı ki, gəlmisən oğlan,
Daha nə görmüsən, oğlan?
- Yenə Qabil hürəyənli,
Yenə olmuş küsəyənli!
- Yenə kimdən küsüb o?
AMİP-in baş bakanı,
Sözü göydə qapanı,
İncidib hər söz ilə,
Xoş halın halsız edib.
- Nə deyirsən? Bunu o,
Hiyləgər, o arsız edib?!
Hara getmiş yenə də?!
- ADİP-in üzvü olub.
- Nə yaman üzlü olub?
Məgər o bir siqaret, partiyalar külqabıdır?!
«Elə isə pəs o lənin də işi qüllabıdır!»
- Daha nə etməyə hazırlaşır o?
- Hər səhər meyvə kimi cırlaşır o!
- İndi də kimlər ilə curlaşır o?
- Üz tutub indi "Musavat" tərəfə!
- Xəbər eylə hərifə,
Gəlməsin biz tərəfə.
Bizdə yer yoxdu riyakarlar üçün,
Qəlbi kirli, ürəyi karlar üçün!
Belə kəslər,
Gün gələr eldən, özündən,
Bu vətəndən də küsər!

# KÜRSÜ DƏLİLƏRİ

Millətə bax, əl-qol açıb oynayır,
Sanki qazandı, necə gör qaynayır,
Hər nəfəri gündə on ad qollayır,
Çoxları da boş başa boş söz döyür,
- Eldə prezdent olacam mən! - deyir.

Əmralı da hər tərəfə hay salır,
Kimlərə gör kimlər üçün alçalır,
Bəzi qoduqlar da ona əl çalır,
Indi xoruz tülküyə – Mən! Mən! – deyir,
- Eldə prezdent olacam mən! - deyir.

Bəzisi lap fildi – qarın bağlayıb,
Ağlı başında pas atıb, zaylayıb,
Çoxlu qarınbaz kişini haylayıb,
Yüz-yüz atır, isti kababdan yeyir,
- Eldə prezdent olacam mən! – deyir.

Üçdə biri tumarlayır saqqalın,
Könlün alır tülkülərin, çaqqalın,
Gülür, deyir: mən gedirəm, siz qalın!
Girir suya, sudan çıxar qupquru,
Gah bulanar, gah da olar dum-duru.

Kütlə toyuqdur, o xoruz, banlayır,
Keçmişini, indisini danmayır,
Ərk eləyib lap dədəsin danlayır,
Söz deməli olsa, baxıb göz döyür,
- Eldə prezdent olacam mən! – deyir.

**OYNA BALA, DOYUNCA**

Palan-navar qoyuldu, var şələsi dalınca,
Utanmadın oynadın, oyna bala, doyunca!...

Nəşələyib milləti əyri yola çəkirlər,
- Güney pisdi – söyləyib, quzey yala çəkirlər.
Demokratiya adından qeylü-qala çəkirlər,
Palan-navar qoyuldu, var şələsi dalınca,
Utanmadın oynadın, oyna bala, doyunca!...

Avam bilib şərqlini yerdə yetən səsləyir,
Kimsə deyir: nəzirdi – qoyun kimi bəsləyir,
Millət hələ gərnəşir, əl çənədə əsnəyir,
Palan-navar qoyuldu, var şələsi dalınca,
Utanmadın oynadın, oyna bala, doyunca!...

Adət edərsən bala, inləmə fəryad ilə,
Təsəlli tap, eşşəyi, lap qatırı yad elə,
Vərdiş ilə çək yükü, sahibini şad elə,
Palan-navar qoyuldu, var şələsi dalınca,
Utanmadın oynadın, oyna bala, doyunca!...

Kimliyini unut ki, kin yeməsin qəlbini,
Olma Həcər, qoç Nəbi, kim biləcək qədrini?
Qazanmısan cənnəti, gözlə kişi, qəbrini,
Palan-navar qoyuldu, var şələsi dalınca,
Utanmadın oynadın, oyna bala, doyunca!...

Tanrı Şərqə qızıl, neft, Qərbə siyasət verib,
Bizlərə bal tək yuxu, onlara cürət verib,
Sancı çəkək biz deyə, bizlərə çiy ət verib,
Palan-navar qoyuldu, var şələsi dalınca,
Utanmadın oynadın, oyna bala, doyunca!...

## EŞŞƏK

Eşşək balası, sən kimin eşqiylə coşursan?
«Şairlik» edib kimlərəsə söz də qoşursan?!
Kimlər nə yesə, kimlərə sən taxta qaşıqsan,
Kimdən sənə nə? Sən bala, anqır tayın ilə,
Düşsə tamahın, tövləyə gir sən peyin iylə!

Tanrı hərəni bir şey üçün yerdə yetirmiş,
Eşşək yaradıb, eşşək üçün ot da bitirmiş,
Eşşək ola insan, demək, insanlıq itirmiş,
Formaldı bu, eşşək ola insan şəkilində,
Çaşmış Yaradan döllüyə insan çəkiləndə!

Büzdün dodaq, anqırmadı kim, şəstinə dəydi,
Bizdən neçəsi keçdi sizə, siz tərəf əydi,
Eşşək qoduğu lovğalanıb insanı döydü,
Əmr etdi dilin, yazdı qoduğ, ölkə lal oldu,
Anqırmaq üçün, ildə bir ay festival oldu!

Tərif səni çaşdırdı, dedin: - xırdaqulaqlar,
Eşəşkdi tamam, ölkədə insandı ulaqlar.
Gəlsin, yesin aş kef eləsin körpə qoduqlar,
Soncuqlasın, aləm də baxıb zövq ilə gülsün,
Dünya yığılıb ölkəmizin seyrinə gəlsin.

Tərifləyək eşşək tükünü hey gecə-gündüz,
Tarix elimində bu da olsun bizə bir iz!
Yandırdı qələm sözləri, söz də əlimi,
Getməz! Yeni əsrə belə eşşəkşünas elmi!

## YERLİBAZ OĞLU YERLİBAZ

Bu ölkədə oğru da sən,
Baş da kəsən, doğru da sən,
Eldə kədər, ağrı da sən,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

Sən əkmisən yurda kələk,
Bitib orda, burda kələk,
Elə o da, bu da kələk,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

Gədə-güdə tulan oldu,
Torpağımız talan oldu,
Yollarımız toran oldu,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

Çox qapını taxtaladın,
İgidləri noxtaladın,
Cəsarəti axtaladın,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

Ürəklərə xofun çöküb,
Ümidləri qırıb-töküb,
Qohumların yurdu söküb,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

Amerikanın oyunları,
Tez oynadır qoyunları,

Tutma bizə tay onları,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

Aşıb-daşır ziyanlılar,
Yazıqlaşıb ziyalılar,
Söndü! Kimin ziyası var,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

Sənə qulaq asa-asa,
Ellərimiz batıb yasa,
Səbir daşır, dolur kasa,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

Lənət sənə it balası,
Başımızın hər bəlası,
Qalmağının nə mənası,
Yerlibaz oğlu yerlibaz,
Bəsdi yalan! Doğru de, yaz!

## ÖLKƏDƏ

Kövrək ürəklər yuxadır ölkədə,
Vədə verənlər çoxalır ölkədə.
Əski miraslar çuxadır ölkədə,
Millət inansın kimə bəs ölkədə,
Şövq ilə versin kimə səs ölkədə?!

Kim kimə aldandı, çəkir xəlvətə,
Layiq olub guya, böyük-hörmətə,
Söz desə, o, dünya gələr heyrətə,

Millət inansın kimə bəs, ölkədə,
Şövq ilə versin kimə səs ölkədə?!

At fil ilə bəhsə girib kişnəyir,
İt-xoruzu tülkü tərəf kişləyir,
Nər dəvələr «uf» da demir, işləyir,
Millət inansın kimə bəs, ölkədə,
Şövq ilə versin kimə səs ölkədə?!

Eyni deyil məhlə nədi, evdə söz,
Qaş düzəlincə, kor olur eldə göz.
Bu dərdlərə kütlə dözür, sən də döz,
Millət inansın kimə bəs, ölkədə,
Şövq ilə versin kimə səs ölkədə?!

Indi siçan da pişiyə dərs verir,
Tez-tez hüquqdan söz açıb, bəhs edir,
Hində yatan, tülkü bəyə səs verir,
Millət inansın kimə bəs, ölkədə,
Şövq ilə versin kimə səs ölkədə?!

Bilmir ayaqlar hara getsin bu gün,
Çoxdur «Ağıllı» deyə, çoxdur düyün.
Ay vətən oğlu, sinənə döy, öyün,
Millət inansın kimə bəs, ölkədə,
Şövq ilə versin kimə səs ölkədə?!

Yad nə desə millətə, qanundu bu,
İçməlisən, - İç! – desə – qanındı bu!
Baş deyil ha, baş kimi qarnındı bu,
Doldur onu, şəst ilə gəz ölkədə,
Yet yetənə, peysərin əz ölkədə!

- Bəy deyirik yad elin hambalına,
Əmr edirik millətə: - al dalına!
Şor deyirik Kəlbəcərin balına,
Yad verə ayran, ya qəfəs ölkədə,
Şükr edərik: - Yoxdur əvəz ölkədə!

## VAR XATASI BU İŞLƏRİN

Çox dedilər harınlama,
Haram yeyib qarınlama,
Onu-bunu burunlama,
Var xatası bu işlərin.

Özündə qal, çıxma bala,
Şimşək olub çaxma bala,
Xalqı oda yaxma bala,
Var xatası bu işlərin.

Çox dedilər, etmədin ar;
Yüz-yüz içib olma xumar,
Yad ölkədə açma qumar,
Var xatası bu işlərin.

Olub əsir-yesir elin,
Çadırdır əsir elin,
Diş dilini kəsir elin,
Var xatası bu işlərin.

El malını anla, utan,
Qazanmayıb anan, atan.
Bir qazanıb, əlli udan,
Var xatası bu işlərin.

Sərvətimiz qumardadı,
Millətimiz tumardadı,
Nifrətimiz damardadı;
Var xatası bu işlərin!

Tülkülüyü bitirmisən,
Türkiyədə ütülmüsən,
Hardan hara itilmisən?
Var xatası bu işlərin!

Yad ölkədə görüşlərin,
Gedişlərin, gəlişəlrin,
Kölgələmir! Bu işlərin
Var xətası! Yaxşı düşün,
Vicvicədir! İndi üşün!
Qızıldır dişin,
Fırıqdır işin,
Sellənər eli,
Heç olar beşin,
Tapılmaz leşin!

**VUR BALA, VUR**

Ov görünür! Dur bala, dur,
Qiyamçını vur bala, vur!

El qudurub, üsyan edir,
Coşub-daşan seldi, gedir,
Qeyrətimi bu hal didir,
Oturma, dur! Dur bala, dur,
Qiyamçını vur bal, vur!

Qoyma, yudu bəndini sel,
Döy qoduğu sınınca bel,
Vur, bulana al qana tel,
Hiddət ilə dur bala, dur,
Qiyamçını vur bala, vur!

Yerli! Deyib səsləmişəm,
Əzizləyib bəsləmişəm,
Səndən ötrü əsməmişəm?
Müxalifət susunca vur,
Yediklərin qusunca vur!

Ah, necə də şirindi qan,
Kim ovlasa, Şirindi qan.
Yoxdu Xeyir! Şərindi qan,
Qan ki, axıb göl-göl olur,
Zövq alıram, vur bala, vur!

Kötək bizim, can özgənin,
Axsın, axan qan özgənin,
Qəm eləmə, qan, özgənin
İç qanını, iç, alçı dur,
Bu ölkədə sən də qudur!

Vur! – qabağa çıxanları,
Qəlbimizi sıxanları,
Xoxanları-çoxanları,
Qollarını qır bala, qır,
Vur bala, vur! Vur bala, vur!

Hazır elə qəfəsləri,
Vur, kəsilə nəfəsləri,
Vur, elə vur, o kəsləri,

Al qan ola yoldakı qır,
Vur bala, vur! Dayanma, vur!

Puç olacaq diləkləri,
Partlayacaq ürəkləri,
Yoxdu dərin bilikləri,
Qoyma qaça, yolunda dur,
Başlarına vur bala, vur!

Maşınlara salın açar,
Dörd yanıma çəkin hasar,
Başçıları pusun, qaçar,
Tutun, basın! Sınsa qürur,
Bizimkidir eldə uğur!

Oyunçu biz, oyundu xalq,
Biz çobanıq, qoyundu xalq,
Dur! – Deməklə – durandı xalq?
Yoxdu çomaq, dubinka var!
Vur başına kötəklə, yar!

Dovşan ovdu, sən ol tazı
Olsa sayı milyon azı,
Neyləyəcək çölün qazı,
Son qərarım, sözüm budur;
Bu milləti qır bala, qır!

Susmasa el, susduracam,
Yedikəlrin qusduracam,
Ölməyini pusduracam,
Sər küçəyə, belində dur!
Ölüncə vur! Vur bala, vur!

Polis vurur vətəndaşı,
El də atır vətən daşı.
Yurdun, elin itən daşı;
Azadlığın təməl daşı!
Zaman gələr, bayraq edib,
Qaldıracaq əl bu daşı!

## YALTAĞIN OĞLUNA NƏSİHƏTİ

Hər sözünü dəstələ,
Tərif ilə məst elə,
Ver yuxuya, qəst elə;
Yurdu, eli çap, tala,
Çap atını, çap, bala!

Hər nə qədər bassa kif,
Piylə başın! Qoy hərif
Zənd eləsin mifdi, mif
Saqqalı tut sığalla,
Çap atını, çap, bala!

Tərif elə oğrunu,
Rusvay elə doğrunu,
Eldə apar sorğunu;
De: - Tanrısan sən daha ,
Çap atını, çap, bala!

Gündə şirin dil ilə,
Milçəyini fil elə,
Noxtasını al ələ,
Çək irəli, çək dala,
Çap atını, çap bala!

Yansa tükü, fəryad ol,
Qəm dağına Fərhad ol,
Olsa gərək, arvad ol,
Olma əfəl, çap bala,
Çap atını, çap, bala!

Pul elə dərmandı ki,
Bir elə fərmandı ki,
Baş elə fırlandı ki,
Dəydi daşa az qala,
Çap atını, çap, bala!

## BİRİ KİM?

Bu milləti iki bölüb üç edən,
Biri sənsən, biri mənəm, biri kim?
Bu vətəndə var olanı heç edən,
Biri sənsən, biri mənəm, biri kim?
Torpaqları erməniyə satanın,
Biri sənsən, biri mənəm, biri kim?
Millət üçün min bir oyun açanın
Biri sənsən, biri mənəm, biri kim?
Zorakratiya paltarını dəyişən,
Biri sənsən, biri mənəm, biri kim?
Millət! Deyib özü üçün döyüşən,
Biri sənsən, biri mənəm, biri kim?

## BAŞ

Məni görüb göz yumursan, ay vətən,
Dəli məndən nə umursan, ay vətən?!

Mən dəlinin nə günahı, ay vətən?
Ərşə çatır hər gün ahı, ay vətən!

Söz köz olub ocağlanıb dilimdə,
Nəyim var ki? Bir qələmdi əlimdə!

Dəliyəm ki, - dəli – demir el mənə,
Yoxsa, atar kəsək, dəmir el mənə!

Ağıllı baş papaq görməz başında,
Qoca olar onbeş, otuz yaşında.

Rüşvət üçün oynayırsa gözlə qaş,
Demək, hələ yetişəmyib, kaldı baş.

El yanında gizlənirsə kolda baş,
Karvan keçib, daşdı, qalıb yolda baş!

## ACİZLƏR

Nadanlıq üstünə ayaq açanda,
Dönüb çətin olur işdə asan da,
Nadanın önündən arif qaçanda,
Dünya acizləşir, insan cırlaşır.
Xamırı sıyıqlar eldə zırlaşır.

Min budaq oynayır bircə dələdən,
Min ağıllı bezir bircə dəlidən,
Fil düşər, yan keçər cücə tələdən,
Cücə tənəsinə fil dözə bilməz,
Ağıl yerindəsə, dil bezə bilməz.

Satqın da, dahi də olar cücülər,
Yığılar başına dahi cücələr,
Bəzən qarışqa da filə güc gələr,

Dünyanın baş-ayaq işləri nə çox.
Düzlər dilənçidir, əyrilərdi tox!...

## GƏLİN, GƏLİN

Gəlin, gəlin, yadellilər;
Nökər bizdən, çulu sizdən.
Tikmək üçün, qurmaq üçün
Yabı bizdən, ulu sizdən!

Gəlin, gəlin, a yellilər,
Ağıl verin dahilərə!
Dərd üşüdər, sızlar ağıl,
Gülün, gülün, şairlərə!

Yad ölkələr alim gəzir,
Bizdə alim kələm satır!
Bircə günlük çörək üçün,
Alim kitab, qələm satır!

Yad ölkədən gələn deyir:
- Öz ölkəmdi, yatasıyam!
Öz atası bilinməyən
Deyir – millət atasıyam!

Gülməlilər gülünc etdi,
Bu vətəni, bu milləti!
Aman! Vətən qaranlıqdı,
Kim dağıdar bu zülməti?!

## SEÇKİ MARAFONU

### EŞŞƏKLƏR:

Nə olsun ki, eşşəyik;
Çox zərif, çox kövrəyik.
Kim bol etsə arpanı,
Biz ona səs verərik!..

### QOYUNLAR:

Qorxu hissi güclüdür
Canımızda əzəldən,
Bu hiss ilə ölürük,
Doğuluruq təzədən.
Canavara səs verək;
Canavardı Tanrımız,
Qurbanıyıq hamımız!

### PALANLAR:

Kim seçilir, seçilsin,
Biz hazırıq belində,
Nə fərqi var bizimçün,
Kimin nə var əlində!..

### KÜTLƏ:

Kütük – çoxuq – kütləyik,
Biz həmişə kütləyik.
Dosta nədir, qardaşa
Qəfil dəyən gülləyik.
Biz də koruq, yel kimi,
Aşıb-daşan sel kimi.

## SİÇANLAR

Baxma, kiçik varlığıq,
İdrakımız böyükdür;
Çoxalmışıq, ordumuz
İndi bölük-bölükdü.
Bilin, siçan namizəd
Bu ölkədə döllükdü.
Qüdrətimiz hər eldə
Adamlara çatmayıb:
Səs verərik pişiyə,
Pişik bizi satmayıb.

## CANAVAR

Bir tükümdən asılıb
Azərbaycan ölkəsi;
Bu milləti qoruyur
Bir tükümün kölgəsi!..

## DOVŞAN

Kimdir məndən ağıllı,
Gəlsin bu gün meydana.
Məndədi güc, təfəkkür,
Kimləyəmsə, bəxtinə
Etsin şükür, təşəkkür!

## BALIQ

Hər iş pulla düzəlir,
Pula dağ da diz əyir.
Kimdi pullu balıqdan?

Bu, vergidir xalıqdan!
İşi görən puldusa,
Məndən pullu kimdi, kim?
Mən Prezident olacam,
həm də ki, hakim!..

## DUET

- Millət inləyir!..
- Kimlər dinləyir?
- Göy kar olub,
  Yer kor olub,
  Onu kimsə dinləmir,
  Kimlər isə dənləyir!
- Millət arpa,
  Kimsə xoruzdur məgər?
- Arpa! – demə, ay kişi,
  Allah əyər ağzını!
  Arpa ruzu, bərəkət!
  Bu millətin qazancı
  Boş danışıq, hərəkət!
- Demokratiya azardı,
  Ellər ondan bezardı.
- Quru şüar, hay-haray,
  Boş söz imiş eh, o da!
- Neft satışı – ağ plov –
  Müştərilər boldu, bol,.
Millət üçün demə ha..a..
Bizdən ötrü ovdu, ov.

## MARAQLANMIRIQ

Yetəni soyuruq, həya qanmırıq,
Ölənlə, qalanla maraqlanmırıq.

Hər kimik, nəçiyik, ölkə bizimdi,
İşığı qərq edən kölgə bizimdi,
Hər mahal, hər oba, bölgə bizimdi,
Yetəni soyuruq, həya qanmırıq,
Ölənlə, qalanla maraqlanmırıq!

Atası deyilik, oğlu deyilik,
Başında düşünən ağlı deyilik,
Nəyi var bizimdir, oğru deyilik;
Yetəni soyuruq, həya qanmırıq,
Ölənlə, qalanla maraqlanmırıq!

Dilənir dilənsin, şəxsi işidir,
Dilənmir, qoy ölsün, əgər kişidir,
Fərqi yox erkəkdir, yoxsa dişidir,
Yetəni soyuruq, həya qanmırıq,
Ölənlə, qalanla maraqlanmırıq!

Xəstə professor ölür acından,
Öskürür, ökbəsi gəlir ağzından,
Azqınıq ölkədə hər cür azqından;
Yetəni soyuruq, həya qanmırıq,
Ölənlə, qalanla maraqlanmırıq!

Fabriklə, zavodla özəlləşir el,
Şüar buraxmışıq: - gözəlləşir el.
Ac deyil, toxdu ki, az əlləşir el;
Yetəni soyuruq, həya qanmırıq,
Ölənlə, qalanla maraqlanmırıq!

İtimin zənciri qızıl deyildi,
Arvadım, gəlinim üç ay deyindi.
İtimə qızıldan xalta döyüldü…

Yetəni soyuruq, həya qanmırıq,
Ölənlə, qalanla maraqlanmırıq!

## QURD LƏLƏ

Ay erməni, çox da ki, yazılmayıb şərtimiz,
Nəğd, nisiyə hörmətə az olmayıb şərtimiz,
Dərdin alım, incimə, pozulmayıb şərtimiz,
Hayım-küyüm ölkədə, bir balaca səngiyər,
Pozulmaz əhdim mənim bir balaca ləngiyər.

Seçdi məni nəslinə etdi ata bu millət,
Nəşəsini bol etdim, bəlkə yata bu millət,
Yatmadı, gündən-günə etdi xəta bu millət,
Ay erməni, erməni, sən məni məndən alma,
Səbr edərəm xeyrinə, sən mənə əngəl olma!

Erməniyə güllə, daş atanları kül etdim,
Əllərinə əl verib öpənləri gül etdim,
Kim ki, küsüb, inciyib, əzizləyib dil etdim,
Asta basıb, bərk kəsib gör nə tufan etmişəm,
Bilməlisən, xeyli çox mətləbimə yetmişəm.

Pul üstünə pul gəlir, sərvətimiz sellənir,
Qohumlarım, qardaşım, balım-balam şellənir,
İp üstə yox, pul üstə körpə balam yelələnir,
Çoxdu pulum, sərvətim, ay erməni, neyləyim,
Yetişməyir vaxt, zaman əhdə vəfa eyləyim.

Salıb məni xəlvətə, hey sınama sən məni,
Yetirmədim kamına, çox qınama sən məni,
Az hədələ, vəlvələ sal canıma sən mənim,
Mən deyənlər olmayıb, sən deyəni etmirəm?
Hər havana əl çalıb, hər oyuna getmirəm?

Zənd eləmə mən ya bəy, ya da ağa olmuşam,
İşlərimin xətrinə həm də dığa olmuşam,
Kimlər ilə dost, brat, kimlə qağa olmuşam,
Tez dəyişib, tez dönən hər cürə şey olmuşam,
Zurna çalan yanında ay kişi, ney olmuşam.

Bağışlayıb mən sənə gör nə qədər torpağı,
Kəlbəcəri etmişəm qollarına qolbağı,
Küllü Azərbaycanı eyləmişəm pulqabı,
Pul mənim haqqımdısa, yer də sənin payındı,
Unutma, ay qurd lələ, kimsə sənin dayındı!

**MƏNƏM GÜC DƏ, HÜNƏR DƏ**

Yaşa, ölmə, dirilmə,
Var ol, eldə bilinmə.

Səsi çıxsa hər kimin,
Haraylayın həkimin;

İynələsin, gic olsun,
Qoy ölümü gec olsun.

Eldə kim ki tanınır,
Qovun, dəli tanıdın.

Dörd yanım yalquzaqdır,
Onlara dərd uzaqdır.

Yaşadacaq erməni,
Yaşatmasa el məni.

El evdi, mən buxarı,
Kimdi məndən yuxarı?

Harda görsən beləsin,
De, yandırım dədəsin.

Mələdərəm, daş olsa,
Tanrıya sirdaş olsa.

Yaşasın ölməlilər,
Var olsun ermənilər.

Kül üfürün gözlərə,
Tez tüpürün közlərə;

Açılmasın biri də,
Ölü olsun diri də.

Tutan olmaz hürən it,
Qorxuludur gülən it.

Dörd yanım hasar olsun,
Öz əlim açar olsun.
Ayağım rezin təkər,
Qollarım uçaq olsun…

## TANRI BİZƏ QƏNİM OLDU

Yaxşılara yaman dedik,
Canilərə – Aman! – dedik,
Utanmayıb yalan dedik,
Günah sənin, mənim oldu,
Tanrı bizə qənim oldu.

Qıl körpüdən keçilmədik,
Boyumuza biçilmədik,
Tanrımıza kiçilmədik,
Günah sənin, mənim oldu,
Tanrı bizə qənim oldu.

Söndürmədi mərəzini,
Yetən əydi tərəzini,
Uduzdu el mərcini,
Günah sənin, mənim oldu,
Tanrı bizə qənim oldu.

Nadanlara qulaq asdıq,
Alov olub odu qarsdıq,
Dahiləri fitə basdıq,
Günah sənin, mənim oldu,
Tanrı bizə qənim oldu.

Qurdu görüb dinsiz olduq,
Qoyun kimi dilsiz olduq,
Yersiz gəldi, yersiz olduq,
Günah sənin, mənim oldu,
Tanrı bizə qənim oldu.

Üzə durdu halalımız,
Halal oldu haramımız,
Dəyişmədi əhvalımız,
Günah sənin, mənim oldu,
Tanrı bizə qənim oldu.

## DOĞMALARA DÜŞMƏNİK

Bənzəmirik dünyada hər millətə,
Biz dözərik ölkədə hər zillətə,
Nur boğarıq, yol açarıq zülmətə,
Mindiyimiz kor yabıdan düşmərik,
Yadlara qul, doğmalara düşmənik.

Yad nə desə meydan açıb oynarıq,
Əl-qol aça qardaşımız, qoymarıq.
- Ye! – desələr yurdu yeyər, doymarıq,
Mindiyimiz kor yabıdan düşmərik,
Yadlara qul, doğmalara düşmənik.

Zü püləsə eldə bütün mədələr,
Hər nə desən rəhbərimiz vəd edər,
Toxlarımız vursa, təpik yer dələr,
Mindiyimiz kor yabıdan düşmərik,
Yadlara qul, doğmalara düşmənik.

Xeyrimizə işləməsə beynimiz,
Açılmayır, qan ağlayır eynimiz,
Çox ölkədən qabaqdayıq xeyli biz,
Mindiyimiz kor yabıdan düşmərik,
Yadlara qul, doğmalara düşmənik.

Hər tərəfə yollayarıq dolları,
Açar bizə bağlı qalan yolları.
Doldurarıq qızla açıq qolları,
Mindiyimiz kor yabıdan düşmərik,
Yadlara qul, doğmalara düşmənik.

Doğru əkib, biçdi yalan ölkəmiz,
Dünyanı tutumuş, yekədi kölgəmiz.

Yüz İrana, Misrə dəyər bölgəmiz,
Mindiyimiz kor yabıdan düşmərik,
Yadlara qul, doğmalara düşmənik.

Şam axura, sübh naxıra səslərik,
Mülkü, malı candan əziz bəslərik,
İş zamanı mürgülərik, əsnərik,
Mindiyimiz kor yabıdan düşmərik,
Yadlara qul, doğmalara düşmənik.

## KİŞİYƏ BAX, KİŞİYƏ

Kişiyə bax, kişiyə;
Şəkərlənib, ballanıb,
Ticarətdə varlanıb.

Kişiyə bax, kişiyə;
Yanıb-sönür qeyrətdən –
Xoruz keçib həyətdən!

Kişiyə bax, kişiyə;
Başı girib deşiyə,
Çıxa bilmir eşiyə!

Kişiyə bax, kişiyə;
Qeyrəti yox, dayana
Qapısından oyana!
Kişiyə bax, kişiyə;
Odu yoxdu içində,
Xoruzlanır biçində!
Kişiyə bax, kişiyə;

Şalvarı var, dişidi,
Elə bilir kişidi!

Kişiyə bax,  kişiyə;
Qardaşını uladır,
Rəis üçün tuladır!

Kişiyə bax, kişiyə;
Yaşı dədəm yaşında,
Ağıl yoxdu başında!

Kişiyə bax, kişiyə;
İt  də yeməz, yalaqdı,
Millət üçün yamaqdı!

Kişiyə bax, kişiyə;
Yeyib, geyib əyninə,
Vətən deyil eyninə!

## KİMDİ BU

*(Yaxşılardan üzr istəyirəm,*
*yamanları belədir)*

Nə molladı, nə seyid,
Bilmir nəsihət, öyüd.
Bitib yolun içində,
Çinardı, yoxsa söyüd?
Kim deyər ki, kimdi bu?

Atıb abrı, həyanı,
Gizli güdür hər yanı,
Haray gəlsə, gizlənər,

Olmaz elin həyanı,
Kim deyər ki, kimdir bu?

Kim keçərsə yanından,
On beşindən, onundan
Siftə alır, nöksanı
Olmayandan, olandan,
Kim deyər ki, kimdir bu?

Yaman sürtük, paxıldı,
Başı yırtıq daxıldı.
Bir nəfər haqq vermədi,
Yaman yandı-yaxıldı,
Kim deyər ki, kimdir bu?

## BƏHRİ-TƏVİL

Vətənin canına bittək daraşanlar, yemək üçün söyüşənlər, dalaşanlar, gecə-gündüz haralarda dolaşanlar, ala gözdən, qara gözdən alışanlar, kozinoya, nə minoya doluşanlar neçə əyyaş, neçə fahşə qarışıb hər bir işə, vərdiş ilə, gərdiş ilə girişirlər başı başdan bulaşıq, hər biri dildən dolaşıq, ya əli çirkli, bulaşıq, rüşvət alan, işdə alan, siftə alan, liftdə alan, rütbə alan, faydalanan, qeydə qalan, əhdi yalan, nəfsə çəkən, diz də çökən, dağda çökən, düzdə çökən, yollar açan, sonra qaçan, marsa uçan bir neçə nazir əmiyə qız gətirirlər, nə yığırlar, götürürlər, ötürürlər, yetirirlər, göz açınca, o qaçınca, bu tutunca, yıxılır xalqın evi.

Ev uçur, dağ aşınır, el qaşınır, söz qarışır, mətləb itir, neft daşınır, kef daşınır, nəf daşınır, kim nə deyir, kim danışır, faydasız işdi, nə gedişdi, nə gəlişdi, nə bilən var, nə gülən var, deyilir: - xoşdu, firavandı vətən, başqa bir aləmdi vətən. Sürüşüb dağda bitən, düzdə bitən qırımızı laləmdi vətən… Minə bir, ya qoşun ilə, ya da bir-bir sənə rəhmət, sənə hörmət, rus

əmi. Demə lənət rusa qardaş, tuta qarqış, yapon, alman edə alqış, hanı ay başda duranlar, əzabından, qəzəbindən bu elə daş da vuranlar, niyə axmır süd ilə, boşdu kranlar, daraşıb yurda klanlar, vətəni torqa qoyanlar, kələmə, borşa uyanlar, ulayanlar, bulayanlar. Başını quyruq edirlər, yekə və yağlı gödənlər, yenə də qanla gedib, hər iş edib, vərdiş edib yurdu, eli hey suvaranlar qan ilə, dövrə vuranlar can ilə, əl açıb əldə quranla, haça bir dildə yalanla bu elə başçı olanlar. Darışıb pullu olanlar, satır, hey gündə satır, nəyi var yurdun, elin. Gələ dünya, yığıla əldə teleskop, ya da mikroskop ola, tapa bilməz, tuta bilməz, içimizdən uzanan əyri əli, qeyri əli.

Belə əllər oturub kürsü başında, kimi bəlli, kimi əlli, kimi yetmişcə yaşında… O, Barisdir, bu Klinton. Çoxalırlar necə on-on, ya da ton-ton, danışır qumbaralar, şül-küt olur gül balalar, kül balalar ərşə çıxır tüstü kimi, isti kimi, ta başım üstə dayanır, hey boyanır, hey dolanır, kölgələyir bağda barı, dağda qarı, hey deyinir evdə qarı…

Nədi xeyri, iş üçün Duma da var ki, danışırlar, alışırlar, qarışırlar, mələşir sanki, divarlar, uçulur köhnə divarlar, buna baxmır nə BMT, nə də NATO. Atışırlar, tutuşurlar, elə bil qurddu adamlar, nə yanan var, nə qanan var, nə sədaqət. Bu nə adət?

## KÜYLÜ ŞAİRƏ

Göynəyə-göynəyə el üçün yanan
Şairi yaşadan ulu ocaqdır.
Yarına-yarına alqış qazanan
Şairi, sabahlar unudacaqdır,

Aşıqdı, - şairəm! – deyib küyləyir,
Eşqi boğazından yuxarı «Şair».
Şeir meydanını yanan söyüd tək,
Hisləyir boğazı buxarı «şair»!

Özü ucalmadı, saray ucaltdı,
Özü cavanlaşdı, sözü qocaltdı.
Bir fikir deməyə ağlı çatmadı,
Sözü rezin kimi dartıb uzatdı.

Xaqani şerinin siqlətin duyub,
Bilmədi, şairlik küy-kələk deyil.
Şair söz püskürən əbədi dağdır,
Şair əsib keçən yel, külək deyil.

## İKİ DİLƏNÇİ

Ay it,
Ora sənin,
Bura mənim yerim…
Sən məndən,
Mən Tanrıdan pay umuram.
Neyləyim, utananda
Gözlərimi yumuram.
Bəzən cibimdən yox,
İçimdən,
Ürəyimdən çıxır əlim!
Elə bil ki, mən odun,
Köz dolu ocaq - yerim,..
İt xanım, ay it bəy,
Nəyim var, sənə verim?!

## HƏR GÜN

Qaçan da, qovan da yıxılır hər gün,
Yox olan var olur, yox olur hər gün.

Zəfər bayrağıdır hər gələn səhər,
Gecənin köksünə taxılır hər gün.

Həyat pəncərədir, nəsə görməyə,
Coşqun ehtirasla baxılır hər gün.

Həyat üfüq kimi sonsuzdu necə,
Hər gün genişlənir, sıxılır hər gün,

Açılan qönçədi doğulan insan,
Hər gün açılsa da, soluxur hər gün,

Cücü də, filban da, fil də varlıqdan,
Yoxluğa açılan ox olur hər gün,

Axdıqca damarda qanım, dəyişir,
Gah şeytan, gah da ki, mar olur hər gün.

Axsaq öndə olur, sürü dönəndə,
El çaşır, nadanı şah olur hər gün.

Bu xalqın köksündə dönüb-dəyişir,
İskəndər od saçan ah,.. olur hər gün.

## ÖLSÜN! BU MİLLƏTİ CIRLAŞDIRANLAR

Ağlı piyadalar öndə getdilər,
Bu eli, obanı yoldan etdilər,
Suyu bulandırıb gözdən itdilər,
Dəvəni eşşəyə yedək etdilər,
Danışan dilləri gödək etdilər!

Eşqi, məhəbbəti sönük olanlar,
Bu elə, obaya dönük olanlar,
Şeytana, İblisə döllük olanlar,
«Azadlıq» yolunda bizi soydular
«Yaxşı yaman günə bizi qoydular»!

Bəsdi, bu milləti calaq etdiniz,
Fikrini çaşdırıb çolaq etdiniz,
Zülmətə zər səpib çıraq etdiniz,
Sizlərə aldanıb zəlil olmuşuq,
Dubaya, nə bilim hara dolmuşuq!

Ölsün! Bu milləti cırlaşdıranlar,
Alverə cəlb edib zırlaşdıranlar,
Nadanı dahiyə calaşdıranlar.
Bu acı nifrətin kökü eldədi,
Sizlərlə davamız hələ öndədi!

## ŞAİR ÖLÜR ACINDAN

*İraqın Bəsrə şəhərində heykəli önünə gül düzdüyümüz şair Bədir Şakir əs-Səyyab acından ölüb. Dəfn edəni olmayıb. Nəhayət onu Bəsrə valisi dəfn edib.*

Adı dillər əzbəri,
Yol gözləyir gözləri,
Göy ot basıb izləri…
- Hə – almağa qadından,
Kimsə deyir şairin
Şerini öz adından;
Düşür ömrün tacından,
Şair ölür acından!

Bədir Şakir əs-Səyyab,
Söz dedi kitab-kitab.
Gətirməyib dərdə tab,
Düşür ömrün tacından,
Şair ölür acından…

Bezib kasıb özündən,
Həyat düşüb gözündən,
Tapılmayır bu eldən
Əs-Səyyabı dəfn edən!

Vaxtın gözü oyuldu,
Ona heykəl qoyuldu.
Şair könlüm duyurdu;
Heykəl çörək istəyir,
Ona çiçək verirlər!
*Bəsrə-Bakı 2000-ci il.*

**UTAN BARI**

Qovladıqca buludları küləklər,
İşıq düşür, işıqlanır kələklər,
Rahatlanır, nəfəs dərir ürəklər,
Hamı deyir mən deyəni, gecsə də,
O illərdən beş il, on il keçsə də!

Rəhim, Pənah bu milləti hayladı
Nemət onu körpə kimi tovladı,
Bəs nə bilib hər tərəfə hoyladı,
Suzsuz gəlib, susuz getdi gələnlər,
Bilmədilər nə haldadır gödənlər!

Sirr açılıb, indii çoxu faş olub,
Kimlər ayaq, kim ayağa daş olub,

Hamı bilib bu işdə kim baş olub,
Yumurtası tərsə gələn toyuq tək,
Vurnuxur o, bu ölkədə təkdi, tək!

Bilindi ki, kimdi çoban, kimdi qurd,
Kimdi deyən: - bu milləti lum-lum ud,
Ötürməsə boğaz nəyi, çaldır ud,
Olsa canın musiqidən məst, xumar,
İncə boğaz sərçə nədir, qaz udar!

İndi durub Həccə gedir tülkülər,
Təsbeh alıb tövbə edir tülkülər,
- Bu növbəti hiylə nədir, tülkülər?
İnanmayın, bir də uyaq sizlərə,
Xoruzlanıb arxa olaq sizlərə!

Durulduqca xatirələr, duyğular,
Xorna çəkib yatanlar da durdular
Yalan nədi, doğru nədi, duydular,
Başladılar bir-birin danlağa,
Məhkəmədə bir-birini danmağa!

Bu doğmalar ah necə də yad imiş,
Toyuq görən tülkü kimi şad imiş,
Köpüklənən ilğım imiş, dad imiş,
Oldu əyan fikirləri, hissələri,
El tanıdı yaxşıları, pisləri!

Bu milləti yaman günə salan yar,
Millət üçün ölüm marşı çalan yar,
Bir eldə yox! O sərvət ki, sən də var!
Bu idimi millət üçün yanmağın,
Haray çəkib saqqalını yolmağın?!

Mersedesdə xumarlanıb gəzirsən,
El – sözündən kədərlənib bezirsən,
Yurdun, elin töhmətinə dözürsən,
Aldığını ver barı bu millətə,
Buğda nədi, ver darı, bu millətə!

Çəkinmədin elin qeylü-qalından,
Utan barı, bu millətin halından,
Ver elə də topladığın malından,
O dilənən körpələri gör barı,
Bir insafa, mərhəmətə gəl barı!

## YALTAĞLARIN FƏRYADI

Ondaki yay, qış yerimiz var idi,
Baxma ki, hərdən yerimiz dar idi,
Bilməz idik, çöldə soyuq, qar idi,
Bizlər idik əyriləri düz yozan,
Bizlər idik hər işə fərman yazan!

Kim nə yeyirdi, biz idik həzm edən,
Kimsə ağız, dil, biz idik ac gödən,
Can kimin idi, biz idik can güdən,
Bizlər idik adlı, ləyaqətlilər,
Əndamı yağlı, sinəsi ətlilər!

Yer daha yoxdur, üşüyür canımız,
İydəki iptək eşilir canımız,
Tənə atırlar, deşilir canımız,
Tanrı, nə gündür, bizi saldın belə,
Cənnəti aldın, bizi saldın Yerə!

Ah, dönə dövran, açıla hər kəmər,
Gör necə yaltaq yüyürüb tez gələr,
Çöldə acından üşüyənlər gülər,
Tanrı, nə gündür, bizi saldın belə,
Cənnəti aldın, bizi saldın Yerə!

## SİYASƏT

Dalğalanır bayraqlar
Siyasət yellərində,
Dirlənirik daş kimi
Siyasət sellərində!..

Nə zaman ki, çəkildi
Yerə, göyə, suya sədd;
İstefaya göndərdi
Əzraili siyasət!..

## KİM ATDI, KİM TUTDU

Mən bilirəm,
Kim bilir ki, mən necəyəm həyatda:
Üzüm gülür,
Zil qaranlıq bir gecəyəm həyatda.
Qoca qurddu batinim,
Bir cücəyəm həyatda!...

## ELƏ BİLMƏ DİRİSƏN

Elə bilmə dirisən,
Ölülərdən birisən.

Danışırsan, gülürsən
İşə gedib-gəlirsən,
Ağı qara görürsən;
Elə bilmə dirisən,
Ölülərdən birisən.

Səhəri yox bir gecə,
Qara keçə, boz keçə,
Qırx nədi, yüz il keçə;
Elə bilmə dirisən,
Ölülərdən birisən.

Nə mənası min yaşa,
Kor ömrünü min, yaşa,
Ya dinmə, ya din yaşa;
Elə bilmə dirisən,
Ölülərdən birisən.

Adın çıxıb yeməklə,
Ağa qara deməklə,
Aran yoxdu əməklə;
Elə bilmə dirisən,
Ölülərdən birisən.

Məni vətən göynədir,
Sənin əlin göydədir,
Pula bürün, gey dəmir;
Elə bilmə dirisən,
Ölülərdən birisən.

## KİMDİ BİZİ AVAM BİLƏN

*(Bakının küçələrini «bəzəyən» sırtıq gənc qadın, kişi və papiros əks olunan reklamda yazılıb: «Amerikanın ləzzətini alın». Amerikanın ləzzəti budursa, yazıq Amerika xalqının bu gününə və gələcəyinə)*

Avam bilib bu milləti,
Zəhərinə – bal – deyirsən.
Yatmaq üçün, batmaq üçün
- Bu nəşəni al deyirsən.
Zatı qırıq, mayan yoxmu,
Boz üzündə həyan yoxmu?
Bu nə hikkə, bu nə dərsdi?
Niyə hər şey belə tərsdi?
Kimdi özün adam bilən,
Kimdi bizi avam bilən?
Amerikanın ləzzəti bu,
Amerikanın dadı bumu?
Min üz görmüş, min üzlü qız,
Bu millətə nə verəcək?
Ürəyi buz, duyğusu buz,
Bu millətə nə verəcək?
Səndə günah azdı, gəda!
Sənə meydan verən satqın.
Bu millətin düşmənindən,
Səndən xeyir görən satqın!

## GƏLMƏLƏR

Yad, səni bəzəyən bu var bizimdir,
Boyuna boy verən sular bizimdir,
Kimdi cavab verən? Sual bizimdir;
Deyin nə vaxtadək çəkər bu ağrı,
Vətənin ruhuna çökər bu ağrı?!

Gəlmələr ağadı, qulları bizik,
Xərcləyən özgədir, pulları bizik,
Ayaqlar altında yolları bizik;
Deyin nə vaxtadək çəkər bu ağrı,
Vətənin ruhuna çökər bu ağrı?!

Keçir üstümüzdən dəvə də, at da,
Sınır sümüklərim ayaqlar altda.
Demirlər: - insandı, əzilir altda;
Deyin nə vaxtadək çəkər bu ağrı,
Vətənin ruhuna çökər bu ağrı?!

Köçəri quş kimi köçür beyinlər,
Durna qatarını kəsir beyinlər,
Başımın üstündən keçir beyinlər;
Deyin nə vaxtadək çəkər bu ağrı,
Vətənin ruhuna çökər bu ağrı?!

## HARAY AY EL, HARAY

Yad elə xəlvət daşınır yurdumuz,
Turşuda mistək aşınır yurdumuz,
Sanki, qoturdu, qaşınır yurdumuz,
El, kömək ol, qoyma Vətən dağılsın,
Millətimiz yad əllərdə boğusun!

Ölkəmizin hər nəyi var talandı,
Yol qurtarır, qarşıdakı dalandı.
Gözlərinin heyrəti də talandı,
Haray ay el, qıyma Vətən dağılsın,
Nadan əldə ellərimiz boğulsun!

## BULVARDA

Bulvar olub çayxana başdan-başa,
Vur damino, at zəri xürrəm yaşa!

İş görən əllər yığışıb nərd atır,
Kimsi kələklə, kimi də mərd atır.
Kim də ürəkdən elə bil dərd atır,
Bulvar olub meyxana başdan-başa,
Kimsə deyir: - Ay belə dövran, yaşa!

Evdə xanımlar yenə meydan açır,
Əjdaha olmuş, nəfəsi qəm saçır,
Çox kişilər arvad əlindən qaçır,
Hər kəsi bir kəslə verir baş-başa,
Qəm dağılır hər kim atır «şeş» qoşa!

Yarsı əlil, yarısı zəlil millətin,
Əqlin alıb xırda gəlir millətin,
Körpəsi də şövqə gəlir millətin,
Tüstülənir közdə kabab, mədəmiz
Hökm eləyir, qövr eləyir dərdimiz!

Millət ağıldan dəm olub dəmlənir,
Dərk edə bilmir: - sevinir, qəmlənir?!
Qəmlər əlindən gözümüz nəmlənir,
Göz yaşı dərya olacaq, ay Paşa,
Al gəmi mindir bizi, qəmsiz yaşa!

At daşını, nəyinə gərək ev, uşaq,
Bulvara sübdən şamacan aç qucaq,
- «Yoxdu – gətir!» - dən də kişi, düş uzaq,
Bulvar olub çayxana başdan-başa,
Vur damino, at zəri, xürrəm yaşa!

Çox belə vacibdimi, ət bozbaşa?
Ağrımayırsa, nə gərək buz başa?
Varsa, bəsindir su, çörək, duz, yaşa;
Xərcləməyə yoxsa da az-çox para,
Şükr elə, sübdən baş apar bulvara.

## ELƏ CAN! CAN! – DEYƏ-DEYƏ

Kim deyir ki, balasıyam!
Bu, millətin bəlasıyam,
Hələ canlar alasıyam,
Elə Can! Can! – deyə-deyə!

El yolunda keçəl oldum,
Üzdə candan keçən oldum,
Doğru dili kəsən oldum,
Oğruları öyə-öyə!

Çörəklidir yaltağ adam,
Olma ona ortağ, adam.
Sən körpüsən, o tağ, adam,
Keçən mənəm, söyə-söyə!

Qurban kəsən qurban udur,
Kim kəsməsə, qurban odur.
Beləsinə sözüm budur;
Öldürəcəm, döyə-döyə!

## RÜŞVƏTXORUN ETİRAFI

Gedirəm, qalana nəsihətimdir,
Bu, mənim son anda vəsiyyətimdir:

Rüşvətlə parlayıb ucaldım eldə,
Bir gün tufan olub yıxdı məni də.
Əvvəli xoş idi, sonra nar kimi
Bir qızıl kasaya sıxdı məni də.

Rüşvətə uyma ki, rüşvət ilandı,
Oxşayıb, oxşayıb çalacaq səni.
Çərlədib, çürüdüb vaxtından qabaq,
Ömrünü zirvədən salacaq sənin.

Gəzin bu ölkəni, göstərin mənə,
Bir uzun ömürlü rüşvətxor hanı?
Rüşvətxor oğlunam, ay ana, bir vaxt,
Yatardı yanında o, xor-xor, hanı?

Tanıya bilməzsən, yorma gözünü,
Dəyişib qanımı, üzümü rüşvət.
Yox! yox! Tapa bilməz nə oğul, nə qız,
Eldən elə silib izimi rüşvət.

Məni bağışlayın, təmiz adamlar,
Mən sizi bir zaman avam bilmişəm!
Eh, avam mənmişəm, cavan yaşımda
Canla çarpışıram – çoxdan ölmüşəm!

Alın qızıl, yaqut, nəyim var, alın,
Sağlam, ömür verin mənə bir anlıq.
Rüşvət bombasından dağılıb ömrüm,
Yoxdu mənim kimi bəlkə viranlıq!

## QURBANLIQ ÜÇÜN

Doymayıblar tökülən hərzayi qandan-qadadan,
Biri «Xox» gəlsə, qaçıb tez çıxacaqlar bacadan,
Yaradıb bunlar üçün bəlkə də xalqi Yaradan?!
Dolaşırlar keçilər meydanı qurbanlıq üçün,
Edələr nuş yenə də al qanı, qurbanlıq üçün!

Biri Nemət, biri Sərdar, biri kim, kim, nə bilim,
Tükü şeytan tüküdü, bir bax ona sən, mən ölüm,
Belə nadanlıq ilə söz, sözə gəlməz ki, dilim,
Dolaşırlar keçilər meydanı qurbanlıq üçün,
Yağlı qoçlar yığılır meydana, qurbanlıq üçün!

Belə xamlar, gədələr, ağlı gödəklər yeridi,
Dedilər çoxlarına: - «Ölkədə millət piridi»!
Kişitək öldü ölənlər, keçilər dip-diridi,
Gedəcəklər keçilər hər yana qurbanlıq üçün,
Seçir insan yeməyə heyvanı, qurbanlıq üçün!

Qana baislərə bax, indi hünərdən danışır,
Günahı olmayana, - Cani! – deyib hey dalaşır,
Elə bərkdən danışır, az qala şeytan dolaşır,
Dolaşırlar keçilər meydanı qurbanlıq üçün,
Azdırırlar keçilər madyanı qurbanlıq üçün!

## BİR MƏCLİSDƏ 10 KİŞİNİN YENİ İL DUASI

Yeni il, ay yeni il,
Qarışqamı elə fil!

II
Yeni il, ay yeni il,
Bir dənəmi üç elə,
Qardaşımı puç elə.

III
Yeni il, ay yeni il,
Bu milləti kor elə,
Qulağını kar elə.

IV
Yeni il, ay yeni il,
Kəmərləri boş elə,
Könlümüzü xoş elə.

V
Yeni il, ay yeni il,
Bu milləti ac elə,
Məni başa tac elə!

VI
Yeni il, ay yeni il,
Kreslomu betonla,
Hər tərəfi telfonla!

VII
Yeni il, ay yeni il,
Bu milləti qoyun et,
Al canını, toyun et!

VIII
Yeni il, ay yeni il,
Bu millәti daş elә,
Mәni ona baş elә.

IX
Yeni il, ay yeni il,
Qoyma ayıla millәt,
Adam sayıla millәt.

X
Yeni il, ay yeni il;
Açma bayılan dili,
Bağla ayılan dili!

## NEFT PUL OLUR

*(Prezidentliyә namizәdlәrin tәbirincә)*

**Etibar Mәmmәdov:**

Neft pul olur, cib dolur
Millәt acından solur…

Aşıb-daşan neftimiz,
Tez yem olur cinlәrә.
Leysan olur göz yaşım
Baxdıqca boş ciblәrә.

Yolunduqca yolunur
Tükü, xumar qazların.
Duruldaqca durulur,
Keyfi qumarbazların!

**<u>Nizami Süleymanov:</u>**

Yeganədi çox da ki,
Neft yatağı bölgəmiz;
Ən baha neft yurdudur,
Neft diyarı ölkəmiz.

*Qeyd: E.Məmmədov – siyasi lider.*
*H.Süleymanov – alim, partiya rəhbəri.*

## ÜNVANLI, ÜNVANSIZ ZARAFATLAR

Maliyyə naziri Fikrət Yusifov
Hər gün xəzinəyə atır hey tilov,
Tilova balıq yox, qurbağa düşər,
Qorxur ki, özü də qarmağa düşər.

* * *

Millət qədəm başı cinayət edir,
Dərdi Usubova sirayət edir,
Xəbəri yoxdu ki, nazirliyində,
Sağ əli sol ələ xəyanət edir.

* * *

Kimi oxdu, kimi təkər,
Mini sökər, biri tikər.
Dəyirmanlar işin görür,
Çax-çax niyə zəhlə tökər?

* * *

Çalışır həmişə Səfər Əbiyev,
Qorxusuz yaşasın ölkədə hər ev.
İmkanı olsaydı əsgərlərinə,
Deyərdi: - Topu yox, gözəlləri sev.

* * *

Necə güclü olsa eldə dalğalar,
Qırar, parçalayar Həsənov Eldar.
Şəkdə, şübhədədir, elə bilir ki,
Yazı masasında cinayətkar var.

* * *

Ciblərinə düşsə tilov,
Soruşma nə tilovudur?
Atan Elman Rüstəmovsa,
Anlayın ki, pul ovudur.

*Qeydlər:*
*Usubov – Daxili İşlər Naziri.*
*Həsənov Eldar – Baş prokuror.*
*Elman Rüstəmov – Milli Bankın rəisi.*
*Səfər Əbiyev – Milli Təhlükəsizlik naziri*

**«TƏK SƏBİR» ALIN**

Nurdu hər gözə,
Hər sözü məzə,
Həmişə təzə
«Tək səbir» alın.

Uymur tərifə,
Gülür hərifə,
Gəlin hər dəfə
«Tək səbir» alın.

Olma yuxulu,
Deyil qorxulu,
Sabir qoxulu
«Tək səbir» alın.

Fikri təzədi,
Sözü məzədi,
Özü lüt qalıb
Eli bəzədi.

Yaxına gəlin,
Oxuyun, gülün.
Qapana bilər
Qədrini bilin.
Gözü tox olub,
Sözü ox olub.
Atıb hədəfə,
Hədəf yox olub.
«Tək səbir» alın,
«Tək səbir» alın!...

## AY ALAN

Qoşquyuq, açıldıq, bağlanaq gərək,
Yağış olmaq üçün buğlanaq gərək,
Yük çəkən təkərik, yağlanaq gərək,
Yağ gətir, ver həvəs Azərbaycana,
Ay alan! Qaç, tələs Azərbaycana!

Yadların yanında dili gödəyik,
Kimsə sürücüdür, biz də yedəyik,
Kim hara – hoo!... desə, ora gedərik,
Ay alan! Qaç, tələs Azərbaycana,
Nefti çək, ək vələs Azərbaycana!

Ay keçir, il keçir, itir elmimiz,
Zirvədən ətəyə enir elimiz,

Dilənçi vərdişi tapıb əlimiz,
Ay alan! Qaç, tələs Azərbaycana,
Pul gətir! Ver nəfəs Azərbaycana!

Baxma ki, hər nə var, bitirir Vətən,
Hər şeyi yad eldən gətirir Vətən!
Nəyi var, azını götürür Vətən.
Azdı, qulaq da kəs, Azərbaycana,
Ay alan! Qaç, tələs Azərbaycana!

Millət avamlaşır, buna çox şadam,
Mal olar, nə qədər az bilsə adam.
Nə millət, nə vətən? Bunlara yadam,
Pul gətir bu qəfəs Azərbaycana!
Ver nəfəs, ver həvəs Azərbaycana!
Ay alan! Qaç, tələs Azərbaycana!

## QARABAĞ DAVASININ ON İLLİYİNƏ

İçdiyim su, çörək, hava yalandı,
On ildi sürünən dava yalandı,
Uduzduq! Deyənlər! Bu da yalandı!
Yalanlar sel olub qoparır bizi,
Varlıqdan heçliyə aparır bizi!

Günəşin istisi, odu yalandı,
Yediyim çörəyin dadı yalandı,
Əvvəli şirinin ardı yalandı,
Yalanlar hər yerdə bağlayıyb qarın,
Doğrular hər yerdə yalındı, yalın!

Yudu içimızın təmizliyini,
Yudu sözümüzün dənizliyini,

Əritdi milləti, yedi piyini,
Yalanlar kökəlir, millət əriyir,
Bu ölü canlılar hara yeriyir?

## RÜŞVƏT – ŞOĞƏRIB

Eldə çiçəkləri alaq edəndi,
Halal çörəkləri yalaq edəndi.
Kəsib ümidini, alıb ruhunu,
Doğrunu əyriyə calaq edəndi.

Sanma ki, bu qaya, bu dağ bədəndi,
Yox, yox, peyin dolu yağlı gödəndi.
Bu rüşvət dediyin şoğərib ki, var,
Adamı döndərib ulağ edəndi.

## SƏRÇƏLƏR

Qartal haqda fikir deyib,
Hökm edərlər bayquşlara;
Bircə-bircə Tanrı payı –
Yem olarlar bəy quşlara.

Üzə astar, astara üz
Deməyini hünər bilər;
Deyər; - aya hürməyin də
Ləzzətini hürən bilər.

Bir zərbədən yüz sərçənin
Dümbücünün piyi çıxdı;
Bu siyasət tuluğunun
Aman, nə pis iyi çıxdı.

## CİBİMƏ BOŞ GİRİB – BOŞ ÇIXIR ƏLİM

Yetənə əl açıb dilənən bala,
Allaha and içib dirənən bala,
Qəm yeyib kədərə bələnən bala,
Cibimə boş girib – boş çıxır əlim,
Mənim nəyim var ki, sənə nə verim?

Sənin görkəmindi məni göynədən,
Bu dərd ki, gəlməyir Yerə göylərdən,
Bala, tökülməyir Yerə göy nədən?
Cibimə boş girib – boş çıxır əlim,
Mənim nəyim var ki, sənə nə verim?

Arıqsan, sümüyün batır dərinə,
Ürəyi kövrəyi çəkmə dərinə,
Baş daşı olardım bala, dərdinə;
Cibimə boş girib – boş çıxır əlim,
Mənim nəyim var ki, sənə nə verim?

Gəl sığın anaya – qadına, isin,
Bala, Nəsiminin adına isin,
Yanan ürəyimin oduna isin,
Cibimə boş girib – boş çıxır əlim,
Mənim nəyim var ki, sənə nə verim?

## GÜNÜN SUALLARI VƏ CAVABLARI

- İndi quldur kimlərdir?
- Polislər, həkimlərdir.

* * *

- Ölkədə kimlərdi ki;
Pul verəni döyürlər,
Verməyəni söyürlər?

- Əqidəsiz, məsləksiz
Müxbirlərdi, yozurlar,
Ağı qara yazırlar.

* * *

- Kim deyər – kimlərdilər;
Beçə kimi banlayan,
Millətini danlayan?

- Siyasət dəllalları!
Kim tanımır onları?

* * *

- Söyləyin kimlərdilər:
Dərd əlində əsirdi,
Diş dilini kəsirdi?

- Dodağları çatlayan
Adi şora, çörəyə
Təqaüdü çatmayan
Qocalardı, qocalar!

* * *

- Kimdi xalqın pulunu,
Yığıb eli döydürür,
Hey özünü öydürür?

- Bunu kimdi bilməyən,
Hər yetənə deyim mən?

## DEMOKRATİYA BUDURMU

Bayraq edib əlləri,
Haray çəkir: - Tez gəlin!
Arvad, uşaq, qız, gəlin,
Alver edir şıdırğı.
- Demokratiya budurmu?!

Dalan, küçə bağlanır,
Beş-on nəfər yağlanır,
Qazan kimi buğlanır,
Pul qazanır şıdırğı.
- Demokratiya budurmu?!

Başda beyin pas tutur,
Alim olan yas tutur,
Nadan üçün tas tutur,
Tər də tökür şıdırğı.
- Demokratiya budurmu?!

Qızlar elə sürtülür,
Hər tərəfə dürtülür,
Açıq qapı örtülür,
Gör nə olur şıdırğı.
- Demokratiya budurmu?!

Kresloya kim keçir,
Rüşvət üçün yol seçir,
Sanki əkib pul biçir,
Aldı, verdi şıdırğı.
- Demokratiya budurmu?!

Tolkuçka var yaxında,
Adam çaşır baxanda,
Bu seldə, bu axında,
Nadan coşub qudurdu.
- Demokratiya budurmu?!

Vəzifədə duranlar,
Bığlarını buranlar,
A piy basan qarınlar,
Ac-yalavac qoturdu.
- Demokratiya budurmu?!

Vətən leşdi, çökürlər,
Yavaş-yavaş sökürlər,
Hər tərəfə çəkirlər,
O, durdu, bu oturdu,.
- Demokratiya budurmu?!

Tuman satır tumansız,
İman satır imansız,
Aman vermir amansız,
Hər yetəni tuturdu.
- Demokratiya budurmu?!

Xəstə ölür həkimsiz,
Adam deyil hər kimsiz.
Ay kasıblar, siz kimsiz?
Tox söyür, ac udurdu.
- Demokratiya budurmu?!

Umma çörək bacından,
Bacın ölür acından,
Bərk yapışıb tacından,
Başçı baxıb susurdu,
Demokratiya budurmu?!

## ÖLMƏLİSƏN

Çox qapı bağlamısan,
Çox sinə dağlamısan,
Ölməlisən!

Elə bilmə quransan,
Ümidləri qıransan,
Ölməlisən!

Haqqı batil elədin,
Sən utanıb ölmədin,
Ölməlisən!

Pərdələmə özünü,
Görmüşük hər üzünü,
Ölməlisən!

## HƏMİŞƏ SABİRLƏYƏM

*Sabirin ev muzeyində*

Bu beşik – Sabir evi,
Qəmin, dərdin yuvası.
Göy Yeri yuyndurur,
Dərdin duya bilməyir.
Bu evin dərdlərini
Allah yuya bilməyir,
Varmı kimsə yuyası?!

Bu evdə – bu komada;
İsrafil sur çaldı ki,
Surunu gur çaldı ki,
Yatan hisslər oyansın.
Şeytan təbil çaldı ki,
Qəm tələsik oynasın.

Bu evdə – bu komada;
Zülmət nura gülürdü,
Sısqa gura gülürdü.
Xəbis İblis bu evi
Özününkü bilirdi.

Şeytan bal oynadırdı
Gül ətirli zəhərdə.
Gəlməyə utanırdı
Şamaxıya səhər də.

Bu evdə, bu küçədə;
Allah əmirçi idi,
Sabir dəmirçi idi:
Sözü – qızaran dəmir,
Qələmi – əldə çəkic,
Kağızı – sindan idi.

Bu ev, küçə, bu şəhər,
Duyğuların, hisslərin
Zəlzələ mərkəzidi.
Zülm, zillət içində
Dahilik sərgisidi.

Bu eldə, bu şəhərdə
Xoruzlandı beçələr.
Sabir ayaq basanda
O başı şahə qalxıb
Başa dəydi küçələr.
Xəbislik şeşələndi,
Sabirin əzabından
Nadanlıq nəşələndi.

Bu evdə – bu komada
Qoca günün üzünə
Cavan günlər ağ olub.
Hadinin və Səhəttin
Sinəsi dağ-dağ olub.

Sabirə gülənlərin,
İt kimi hürənlərin
Nəvəsi addımlayır
Sabir adlı küçəni.
Qürur göyə qaldırır
Bu küçədən keçəni.

Bu gün dünəndi yenə,
Nadan güləndi yenə.
Əyrilər bığ oynadır,
Yalan gülləndi yenə.

Sabirin yolçusuyam;
Mənə də söz atan var…
Göydən enər mələklər,
Sözü sözlə ələklər,
Yalanlar kəpək olar.
Yalançı, Aya hürən
Gic tula, köpək olar.

## QƏLƏBƏ BAYRAĞINDI

*(M.Ə.Sabirin Bakıdakı heykəli önündə)*

İndi qədir bilirik:
Hər səhər heykəlinin
Dörd yanını silirik.
Bu fərəhli gündə
Səni təbrik edirik,
Bakıdan, qəbrin üstə
Ziyarətə gedirik,
Dərddən yaralı Sabir!
Bu gün işıqlı, parlaq,
Dünən qaralı Sabir!

Sənə gün qıymayanlar,
Gülməyə qoymayanlar,
Söyməkdən doymayanlar,
İçində, varlığında
Sel kimi tüğyan edən
Fəryadı duymayanlar,
Hanı, hanı, Sabirim?
O şişqarın, tirboyun,
Varlığı keçi, qoyun,
Kölgəni də güdənlər.
Külək olub gedənlər
Hanı, hanı, Sabirim?

Bu gün adın, heykəlin
Qələbə bayrağıdı.
Hər an, hər gün Vətəndə
Doğuluş bayramındı.

## (M.Ə.SABİRİN QƏBRİ ÜSTƏ NƏSİHƏT)

Qoru oğlum! Bu qəbrə
Millətimiz od qoyub.
Qoru oğlum! Sabirdən
Nə biz, nə də yer doyub!

Torpağ gördü kimlərsə
Salır Sabiri gözdən,
- Əzizlərəm mən! – deyib
Aldı Sabiri bizdən!
Tanrı çox istəyib ki,
Tez çəkib dərgahına,
Bir də qorxub, bu dünya
Düşər dərya ahına!

Sabir qeyrət toxumu;
Əkiblər ki, cücərsin,
Bu millətin canında
Qeyrət eşqi cücərsin!

Qoru oğlum! Bitməsin
İnadının səbiri.
Utancaq dahilər
Tanıdıqca Sabiri!

Dünyada bir dahi də
İnan, deyil təkrarsız;

Yer də, Göy də ALLAHDI,
Bir də Sabir təkrarsız!

**M.Ə.SABİR ÜSYAN EDİR**

Canıma dərman bilib
Vətən eşqi yeritdim.
Vətəni yox, özümü
Millət üçün əritdim.

Şeir, sənət yolunda
İlləri qabıqladım,
Vaxtdan iti axıb mən,
Zamanı qabaqladım.

Sətirlər ki, el deyir,
Canımın yonqarıdı.
Sözümdən ağrı çəkən,
İllərin donqarıdı.

Harayımdı, səsimdi
Pələngləşən misralar.
Mən ordayam! Harda ki,
Tüfəngləşən şeir var.

Ölürəm oxunanda
Ölü sözlü şeirlər.
Utanıram, görəndə
Araq iyli şairlər.

Vaxt daralır, zülmətin
Ürəyinə nur düşür.
Bu inləyən bəşərin
Qəlbinə qürur düşür.

Kölgəsindən ürkənlər,
Qorxudan ət tökənlər,
Həmzələrə çəkənlər,
Öyünməsin adımla,
İsinməsin odumla!

Yuxarı yarınanlar,
Hünərə darılanlar,
Özgədən barınanlar,
Önümdə çökməsinlər,
Adımı çəkməsinlər.

Boynu yoğun, qarnı şiş,
Kabab yeyən yeddi şiş,
Həyatı, ömrü vərdiş,
Ruhuma yad! Ləkəsən,
Sən sürünən kölgəsən!

Boğazı his buxarı,
Sözü dildən yuxarı,
Yazdığı - söz çıxarı,
Nə bilir ki, söz nədi,
Yanan bilər köz nədi!

Araqla qaynayanlar,
Yetəni qınayanlar,
Mənə dildə yananlar,
Öyünməsin adımla,
İsinməsin odumla!
Mən şimşəyəm, çaxıram,
Buludları sıxıram,
Yalan doğru olanda,
Yer altından çıxıram!

**SABİR, SƏNDƏN UTANMAZ**

Beş-on araq düşgünü,
«Açar» xeyli müşkülü.
Başa çatar iş günü,
Sabir, səndən utanmaz!

«Ley-pey» olar, baş qızar,
Dolu qalar, boş qızar,
Lap dil açıb daş qızar,
Sabir, səndən utanmaz!

İşi silib-yumaqdı,
Əyilməkdən yumağdı,
Şairliyə yamağdı,
Sabir, səndən utanmaz!

Yaltaqlanıb kef edir,
Sözü fikrin kəfidir,
Şair deyil, əfidir,
Sabir, səndən utanmaz!

Tək özünü bəyənər,
Yaltağ ilə öyünər,
Kişi görsə, deyinər,
Sabir, səndən utanmaz!

* * *

Araqla qəsd etdilər,
Gözləri məst etdilər,
Sözü şikəst etdilər,
Sızladı ruhun, baba!

Şər atdılar adıma,
Dedim yaltağ adama:
- Çap atını, çap bala,
Çap, yetəni çapbbala!

Köşə bezdən utanmaz,
Dəli sözdən utanmaz,
Qazan közdən utanmaz,
Səadətdi, qovuşsa
Utanmazla utanmaz!

## ŞEİR DEDİM

Şer dedim, - Mən! – deyən
Oyandı yuxusundan,
Kürkünə birə düşdü,
Tük saldı qorxusundan.

O, Sabirdən danışıb,
Cəsarətdən ötürdü;
İldırımötürəntək,
Doğru sözü ötürdü.

Sabiranə şerdən
Yaman qorxdu, titrədi.
Nəsə demək istədi,
Dili çaşdı, büdrədi.

## GETMİYƏCƏM MƏKTƏBƏ

Məktəb olub tindəki alverxana,
Kim satır alma, kimi də al xına,

Az məni incit ay ata, az qına,
Ət baha, paltar baha, dəftər baha,
Getməyəcəm məktəbə, əl çək daha!

Gündə müəllim – gətirin pul – deyir,
Gah çığırır, gah da ki, usul deyir,
- Anlamırıq əsla yetim, dul – deyir,
Baxmayır heç kim nə dula, nə aha,
Getməyəcəm məktəbə, əl çək daha!

Bir yekə məktəbdi bu alver işi,
Dahi olur bir neçə ayda kişi,
Pul çoxalır, işlər olur kişmişi,
Fərq eləmir şeylər ucuzdur, baha,
Getməyəcəm məktəbə, əl çək daha!

Baş yoran işdi ata, məktəb, kitab,
Kim görəcək xeyrini etsən də tab?
At elimi, hörməti alverdə tap,
Hörməti yoxsa, kim əyər baş şaha?
Getməyəcəm məktəbə, əl çək daha!

## MƏNƏM KÜRSÜ MƏCNUNU

Mənə qalmır, qan olsun,
Oğuldan, dostdan olsun.
Qoy bu da dastan olsun;
Bilsin yerlə göy bunu,
Mənəm kürsü Məcnunu!

Sənə bağlı şüurum;
İpin, taxtan, şünurun,
Bir balaca şurupun

Boşalmasın, hürərəm,
Hürə-hürə ölərəm!

Göydən düşdün əlimə,
Qənim oldum elimə.
Kim göz dikə yerimə,
Sinəsinə çökərəm,
Gözünə mil çəkərəm!

Bir Tanrı var, bir də mən,
O göydədi, Yerdə mən.
Ocağ da mən, pir də mən,
Bu el mənə nəzirdi,
Məni çoxdan gəzirdi!

Başı bağlı qutuyam,
Göyün yeddi qatıyam,
Tərəf kimi altıyam,
Nə üz desən varımdı,
Bu da mənim varımdı!

Baxma, ayıq quş-qazam,
Sənsiz çürük bir qozam,
Ayağına boz tozam,
Silmə məni, toz qalım,
Qalım, çürük qoz qalım!

## İNSAFDAN DEYİL

*(Nadana cavab)*

İki gözlü iki başıq ikimiz…
Bu baş, o başdan deyil,
O baş, bu başdan deyil.

Bir ocaqda iki yaşıq, ikimiz;
Bu yaş, o yaşdan deyil,
O yaş, bu yaşdan deyil.

Hörülürük günlərinə illərin;
Bu daş, o daşdan deyil,
O daş, bu daşdan deyil.

Ağlayırıq ölənlərə, qalana;
Bu yaş, o yaşdan deyil,
O yaş, bu yaşdan deyil.

Qocalmışıq, yetmiş olur yaşımız;
Bu yaş, o yaşdan deyil,
O yaş, bu yaşdan deyil.

Sözü dilsiz yetirməyə, deməyə;
Bu qaş, o qaşdan deyil,
O qaş, bu qaşdan deyil.

Buz bağlayıb ürəyimiz soyuqdan;
Bu qış, o qışdan deyil,
O qış, bu qışdan deyil.

Sənə, mənə adam deyir adamalr;
Bu ki, insafdan deyil.
Görünür, çox görünür,

Çox ayrıdır irsimiz,
Kimsə, insandan deyil.

**XƏBİSLƏR**

İblis ilə bacıdı,
Şeytan ilə qardaşdı.
Bəşərin ürəyində
Tikandı, qara daşdı
Xəbislər.

Tülküdü, arzusuna
Çatınca quzu olar.
Arzuya yetmək üçün
Ovçuya tazı olar
Xəbislər.

Elə gəzər, dolanar,
Deyərsən: - yuxuludur.
Boğaz çəkər, dil tökər,
Gürzədən qorxuludur
Xəbislər.

Önə keçsən, arxadan
Gizli badalaq vurar.
Dönüb deşən: - kimdi bu?
Qorxub fərəqat durar
Xəbislər.

Fərqi yoxdur o, kimdir,
Ya kimin balasıdır.
İstedada düşməndi –

Bəşərin bəlasıdır
Xəbislər.

Harda elm, hünər var
Orda yuvalanırlar,
Tor hürürlər, düşməsən
Qəmdən havalanırlar
Xəbislər.

Ölün, itin biryolluq,
Söz desin ağıllı baş.
Siz olmasaz, həyatda
Çiçəkləyər qara daş,
Xəbislər.

Gəzər yarasa kimi,
Gözü kordu - nur görməz.
Gülsə dostu, qardaşı,
Qıdıqlasan da gülməz,
Xəbislər.

Fikrin hisi, pasıdı,
Küçələrin tozudu:
Faydası olmaz elə, -
Bağın çürük qozudu
Xəbislər.

Qardaşının içində
İşıq görsə söndürər:
Üzdə gülər, yolunda,
Düzü dağa döndərər
Xəbislər.

Xəbis, xəbisliyindən
Bil kimsə ölməz, itməz.
Yeyirsən öz içini,
İçində sevgi bitməz.

## VƏZİFƏLİ LOTU

Qırma qanadımı, -
qırma qolumu,
Kəsmə
Zirvələrə gedən yolumu.
Mən bu elə gərəyəm,
Qan, bu yurda gərəyəm.
Yerdə bəşər oğluyam:
Namərd, xəbis adamlar
Cəhənnəmə atsalar,
Görərsən ki, gəlirəm.
Müqəddəsəm, üzümə
Əli nurun çiləyib.
Mənim ruhum, vicdanım,
Namərd çimən dənizdə,
Qurbağalar yarışan
Gölməçədə çimməyib.
Qisas almaq kiçiklik!
Kiçilməsən yaxşıdır.
Sənin qisas həvəsin
İskəndərə naxışdır.

## VƏZİFƏLİ QUMARBAZ

Mən! Mən! – deyib öyünmə,
Yox xəbərin özündən,
İçin elə boşdu ki,

Oxunursan gözündən.
Mən doluyam, sənə hey…
Söz tökürlər, dolursan.
Bəzəyirlər boyunu,
Sən də adam olursan.

Kimliyini deyirəm,
Tanınasan sən sənə.
Sənə olan el kini,
İnanma bir gün sönə.
Siyasət də qumardı,
Qalma qumardan bala.
Təzə deyil bu vərdiş,
Gəlir damardan, bala.
Oyna oyunbaz kişi,
Oyunçular qulundu,
Yuyulanda «günahlar»
Qul uduzar! Qanundu!
Bir də gördün zamanə
Zəlzələsin çalxadı;
Ha yandın, ha alışdın,
Oyunda tuz çıxmadı;
Kişi deyilsən, səni
Kürsü kişi tanıdır.
Göydə Allah, Yerdə də
Kürsüdəki Tanrıdır!

Doğru deyib atalar,
Doğru elə güzgüdür.
Fəqət, hələ həyatda
Qorxu düzdən güclüdür.

Daş atma, bilmək olmaz,
Kimin başın yarar daş.

Soyunma ki, bilərlər
Kimdə əski yaşdı, yaş.

Qızma, çıxartma mıxı,
Dəyər Yerə, gah başa.
Uzun elə örkəni,
Yaşa, mıxında yaşa.

Vətən satıb, Vətənə
- Can! - demək mərdlik deyil.
Vətənə dərd verən, bil
Bu Vətən dərdlik deyil.

İçin dolu cinayyət,
İçin dolu xəyanət.
Adam ola bilərsən
Görən sən də nəhayət?!

Kişi kəsər, öldürər,
Şərləməz qisas üçün.
Mərd edərmi namərdlik,
Qisas yesə də için?

Sən bilirsən mən kiməm,
Mən bilirəm sən kimsən.
Mən atəşəm, odum var,
Sən ocaqda son külsən.

Təbəssümün nə soyuq,
Elə bil ki, kötüksən.
Maşınsan, işləyirsən
Yad əl ilə düdük, sən.

## YANAN DESİN

Sözüm düşdü boş başlara:
Qazan kimi danqıldadı,
Harda adım dilə gəldi,
Ayı kimi donquldadı.

Milyon-milyon oxucunun
Bir qananı bəsdi mənə.
O bir qanan hər ölkədə
İllər ilə səsdi mənə.

Nə qaldı ki, deyilməli,
Deməmişəm, qanan desin.
Mən nəçiyəm, mən kiməm ki,
Söz oduna yanan desin.

## QUMARBAZ

Qumarbaz köpəkoğlu,
Dili uzun, çox uzun,
Ağlı az köpəkoğlu.
Hərə bir cür bazdı, baz:
Sən dostlara don tikən
Qumarbazsan, qumarbaz!
Zəhərlidir vicdanın,
Damardakı al qanın:
Anlamadan düzünü,
Peyinlədin sözünü.
Asvalthamarlayantək,
Haqqı ayaqlayırsan.
Çoxdakı imkanlısan, -
Vicdanı tikanlısan.

Eşq! Piylənən canında,
Qisasdı, ancaq qisas!
Aç əlini əl vurum,
Lotusan! Bərəkəllah!
Sənin gücün, pulun var!
Mənim arxam, dayağım
Böyük Allahdır, Allah!...

## BÖHTANÇI HƏŞƏRATLARA

Həqiqətdən xəbərsizin
Dili böhtan düdüləyir.
Xəbərsizdi dədəsindən,
Yol keçəni dədələyir.

A qor-qoduğ, İskəndəri
Əvvəl sına, sonra qına.
Yalan-palan dildə qalar,
Yüz il desən, keçməz qana.
Bu, qaydadır, abırsızlar
- Qeyrət! – deyib küylər eli.
Erkək olan kişi olar
Ölər, böhtan deməz dili.

Hırıldayar tülkü kimi,
Böhtançılar-talançılar.
Ədəb, ərkan bilməz nədir,
Vəzifədə palançılar.

Bizləmişəm, çoxu yanır
Soncuğlayır, köpüklənir.
Hürə-hürə zingildəmək
Adətidir köpəklərin.

Böhtan yayan guruldamaz
Bilsə nəyi eşidəcək.
Yalan qışdı, buz bağlayıb
Yalançını üşüdəcək.

Hürün, hürün böhtançılar,
Hürməklə su bulanmaz.
Dəyirmanı su işlədir,
Yalan ilə çarx dolanmaz.

Həqiqətin dalğasında
Ləpələnən yalan batar.
Laçərlərin adətidir
Təmizlərə çirkab atar.

İskəndərəm, zirvədəyəm
Böhtan atma, mənə yetməz.
Həqiqəti, doğru sözü
Rəngləməklə məna itməz.

Qohum da var, yaddan betər
İçər, doymaz al qanımdan,
İt niyyətli, xislətlidi,
Cumur qapa dal yanımdan.

Boylarını yerə soxum,
Eldə qohum şayəbazın.
Onlar üçün sazlamışam,
İrisini yağlı pazın.

Kişilənən kişiciklər,
Böhtanlardan utansınlar.
Təmizliyə çıxmaq üçün
Ocaq çatıb tullansınlar.

## İT HÜRMƏSƏ, DARIXAR

Eldə şayiə deyənlər,
Yeyilməzi yeyənlər,
Hürsün, hürsün, hey hürsün.
İt hürməsə, darıxar.
Pıspısalar - Mən varam!
– deməz, pis iy buraxar.

Hürsün, hürsün, hey hürsün
Eldə ağzı cırıqlar,
Yurdda zatı qırıqlar!
Hürsün, hürsün, hey hürsün…
Daş atmaram hürənə.
Kim neyləyib bəd itə,
Mən neyləyim mühitə?

## PAZ ADAM

Görüşərdik ara-bir:
Sel gələndən-gələnə
Görüşən çaylar kimi.
Bir gün yanaşı düşdük
Rəqəmli saylar kimi.

Köhnə qəlibi hazır
«Təzə şeirlər» yazır.
Nə söz qayası çapır,
Nə də ki, sözdə azır.
Qalın dodaqlarını
Gəmirərək o kindən,
Dedi Əli Kərimdən,
Ustad Rasul Rzadan,

Kimdən, kimdən, kimlərdən…
Bilmədim ki, nə deyim
Bu özündən razıdan –
Ovçudan öndə gedən
Kəsikqulaq tazıdan.

Çoxlarını pislədi,
Yamanladı, hislədi.
Dedi: - şair sayılar
Mənim kimi az adam.
- Mən hələ görməmişəm
Sözə belə paz adam.

**PUL**

Döşəyim, tük balıncım,
Yorğanımdı pul, pul, pul.
Həyatımın uğrunda
Yorğunumdu pul, pul, pul.

Hər əxlaqa, namusa
Kimya çəkib pul etdim.
Mən özümü, nəfsimi
Təkcə pula qul etdim.

Pul siçandı, mən pişik,
Onun marığındayam.
Gecə-gündüz yatmıram,
Pulun marağındayam.

Pul həmişə, hər yerdə
Allahım, fərmanımdı.

Həkim, dərman nə şeydi,
Pullarım dərmanımdı.

Pullarımı arvadın
Tumanında gizlətdim.
Mən pulumun naminə
Arvadımı gözlətdim…

Yalan sözdü, deyirlər:
- Pul ki var, əl çirkidi.
Öyrənmişəm, bilirəm:
- Ömür pulun çirkidi.

## RÜŞVƏT GEYİNƏN XANIM

Əzilib-büzülmə – qudurma belə,
Hər ana naz ilə doğulma, xanım,
Nazından sökülüb-dağılma, xanım.
Hər işə qulp qoyub, belə deyinmə.
Bərq vuran əlcəyin kimin dərisi?
Divar çilikləyir harın gülüşün,
Kimdən öyrənmisən sən belə dərsi?

O kişi bir az sənin,
Bir az kimin əridi?
Əlini tutan əli,
Elə bil ki, zəlidi.
Dili dedi: – Can! – sözü,
Səni yedi qurd gözü.
Səni bəzəyən nə var;
Balaları sızlayan,
Dərd anası buzlayan

O nər-hünər kişinin,
Axan alın təridi!

Baxma ki, o bir sümük,
Bir də quru dəridi.
Çox da arxayın olma,
Qalacaq boğazında,
Süfrəndə, - Gəl! Gəl! - deyən
Yanağ kimi ağ alma,
Saplağı kirpik armud.

Ərini yox, sən hər gün
Yad kişi geyinmisən.
Nə ərin, nə də ki sən
Bu hissin fərqindəsən.
O da, sən də hələ ki,
Həyatın fövqündəsən.

Yerə, göyə sığmırsan,
Xanım, sənə min əhsən:
Günəş də qorxar deyə,
Günəşli günlərdə sən
Evdən çölə çıxmırsan:
Qulbeçənin, qulların,
Ürəyi qorxub düşər, -
Sən qəzəblə çımxırsan.
Unutma, unutmasın
Sözlərimi ərin də
Özgə atına minən
Yerə tez düşər, xanım.
Rüşvətdən damarların
Ərp tutar, şişər, xanım.

## O

Bir oymaqdı beyni
Şumlanıb, tumlanmayıb.
Qayıtmayıb naxırdan,
Çöldədi -------------
Ayaqlayıb qardaşı,
Dostu keçib qabağa.
O, hay-küydə bənzəyir
Paslı, dəmir tabağa.
Ümidi yox, yol gedə
Bu günündən sabaha.
Beləlləri olmasa,
Nə var ki, yaşamağa.

## AĞCAQANAD

Ağcaqanad, qan içib
Yaşamaq istəyirsən –
Özünü sabahlara
        daşımaq istəyirsən.
Sözüm yox,
Vallah yalan demirəm:
Keflə, vızıltısız gəl,
Qan verim, iç doyunca,
Get, yaşa ürəyincə.
Bu nə qəsdir edirsən?
Hey gəlirsən, gedirsən,
Bir damla  qandan ötrü
Məni dilxor edirsən,
Gözümdən yuxu qaçır,
Diksinirəm, elə bil
qapımı ölüm açır.

## NƏÇİDİR

Məni büllur tanıyır göydəki, bəndə nəçidir?
Məni Allah şad edib, kim sala dərdə nəçidir?
Mini şayə desə də eynimə gəlməz biri də,
Məni Allah tanıyır, şayəçi Yerdə nəçidir?
Məni pak bildi ki el, dərdinə həmdəm elədi,
Ürəyi, qəlbi çürük, ölkədə, eldə nəçidir?
Söz olur söz, ki, deyir qəlbi təmizlər həmişə,
Sözü nadan çürüdüb söyləyə zildə, nəçidir?
Yaxşıdır oğraş atandan deyəsən şayələri,
Anası fahişə olan, söz deyə dildə, nəçidir?
Gec edər, çox güc edər nadana Allah, bilirəm,
Bunu arifdi bilən, kor gəzə sirrdə, nəçidir?
Sirli dünya verəcək sirrini arif olana,
Yol gedə nadan adam elmdə, dində, nəçidir?
Quyruğun gizlədənin quyruğun aşkar edir Allah,
Elə quyruq da qoyur, tay ola dəndə, nəçidir?
Yeri murdar eləyir pozğun adamlar, onu da
Eləki Tanrı yonur, yonmağa rəndə nəçidir?
Dəfn edib sevgilisin, eşqə düşüb, şair olub,
Dəyişir sevgilisin həftədə, ildə, nəçidir?
Xoruzu ölmuş hinin ki, toyuğu hakim olub?
Toyuğun haqqı nədir, banlaya hində? Nəçidir?
Nə günə qaldı ki, el, nəşəxoru başçı olub,
Dahisi ac dolanır, bağlıdı tində. Nəçidir?
Deyə İskəndərə şər, bir kişi bir də, nəçidir?

II

İtmərəm, doğru sözəm, böhtanı yellər aparar,
Quyruğu dik keçinin olduğunu gördü hamı,
Qoyunun pak adını – tər gülü dərdi, nəçidir?
Üfürüb, köhnə qumarbazdı deyən şayələri,

Qisas almaq diləyir. Köhnədi dərdi. Nəçidir?
Əqlinin zirvəsi bu, çox da özü tində durub,
İstəyir kölgələsin ölkədə mərdi, nəçidir?
Başı qarpız kimidi, baxma durub zirvədə o,
Zilə çıxmaz dilinin zurnası dəmdi, Nəçidir?
Atası yoldan edib öz gəlinin hansı gecə?
Bu işi köhnə qoca, körpə də bildi, Nəçidir?
Açaram sandığı, pambıq tökülər hər tərəfə,
Tora bilməz, rəqibin hiyləsi, fəndi, Nəçidir?
Sıxmayın ki, deməyim mən də sözün doğrusunu,
Deyələr: - dərdi bunun Yer ilə təndi! Nəçidir?
Hünərim var döyüşəm şirlər ilə, sən birəsən,
Dedim əvvəlcə bunu, öyrənəsən, sən biləsən!

## BU DA ADAMDI?

Deyin, bu da adamdı:
Vəzifədə şellənir,
Şiş göbəyi yellənir.
Hırıldayır yetənə,
Utanmayır, ölməyir.

Kimdən alıb dərsi bu,
Avand görür tərsi bu.
İçi peyin tuluğu,
Axıdan dərəsi, bu.

Var qəribə bir gözü,
Bayquşa bənzər üzü.
Pul ovlayır həyatda
Hər gecəsi, gündüzü.

Eşşəkmi, atmı, qatır,
Dahiyə şıllaq atır.
Alverçidi, - bal! – deyib
Şoruna ayran qatır.

Adam deyil, bəs nəsən
Ay adama oxşayan?
Puldan ötrü gözünü
Yetənə yağışlayan.

Soğan qatdım aşına,
Qall qaşına-qaşına.
Pis niyyətin, ay tula,
Öz başına-başına!...

## HARIN

Həftə keçir, gün keçir,
Torumda ceyran qalır.
Baxan gəlir heyrətə,
Məşqimə heyran qalır.

Qəfəsdi ölkəm mənim,
Qəfəsbazam köhnədən.
Göndərərəm, him elə
Ehtiyacın var nədən.

Sən məni qoru, satım
Ölkəni başdan-başa.
Verim sənə hər nə var,
Millət ölər? Sən yaşa.

Ac olsa millət əgər,
Olar quzu, hey mələr.
Tök axura, harayla
Yesin çürük meyvələr.

Tox olsa millət, coşar.
Hücum çəkər üstümə.
Özgə nədir, keşikçim
Evdə durar qəsdimə.

Elin bütün sərvəti
Olub beş-on nəfərlik.
Kütlə kütdü, kütləni
Hər tərəfə hərlərik.

Eldə qanan olsa da
Çərlədərik bir ilə.
Adətimsizdir bu iş,
- Uf! – deməik bir gilə.

Kələkbazıq, kələkdə
Nida nədir, nöktə yox.
Hər hiylədə, planda
Vergülümüz çoxdu çox…

Oturmuşam. Düz yüz il
Bu kürsüdə son canam.
Qohum nədi, balam da
Gəlsə yaxın, sancaram!..

## ÇƏKİL, ÖNDƏ DAYANMA

Sən kimin nadan ilə
Getsə yolu bu millət –
Yol bürünər zülmətə,
Vətən düşər zillətə.
Qara geyər qırmızı,
Torpağ udar qızılı.
Qurd da yeyər quzunu.
Qaçar ruzu, bərəkət.
Donar eldə hərəkət.
Düşünmə çağlar bulaq,
Düyün düşər yol, cığır,
Gələn olmaz! Hey çığır.
Maymaq olar el-oba,
Viran qalar yurd-yuva.
Canında varsa qeyrət,
Et elə, yurda hörmət:
Çəkil, öndə dayanma,
Yolu görsün bu millət!

## HİYLƏ, KƏLƏK, YERLİBAZ

Millәti xırdaladın,
Nəyi var, xırd elədin.
Cənnəti – Qarabağı
Düşmənə yurd elədin,
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

El-obanı hayladın,
Hər tərəfə huyladın.
Kəlbəcərdə, Laçında

Daş üstə daş qoymadın,
Dili saz, qeyrəti az,
Hiylə, kələk, yerlibaz!

Millətin ağlın yedin,
Ermənyə: - Qov! – dedin,
Qaça-qaçda düşmənə
Ovlamısan ov dedin,
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

Gündüz nədi, gecə də,
Millət qaldı küçədə:
- Demokratiya! – çığırdı
Hər toyuq, hər cücə də,
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

Yalanlar sellə gəldi,
Göz ovan yellə gəldi.
Elə hay-küy eylədin,
Daşlar da dilə gəldi,
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

Şayələr şüşələndi,
Ağıllar nəşələndi.
Boyaqçı, pinəçi də
Üstümə şeşələndi,
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

Güllə töküb oğrudan,
Qisas aldın doğrudan.

Erməni türk kəsəndə,
Nəşələndin ağrıdan,
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

Nadan, dəli curlaşdı,
Millət, Vətən cırlaşdı.
İtdi hörmət, ehtiram,
Yeni nəsil zırlaşdı,
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

Ayaq açır gop, yalan,
Olur Vətən, el talan.
Sevinc ilə atıl-düş,
Ölkə boyu var tulan,
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz

Qarabağı satan kim?
Eli dərdə salan kim?
İçində sirr qaynadıb, -
Saralan kim, solan kim?
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

Vətən səndən nə umsun?
El bilmir hara cumsun.
İnanma illər ötsün,
Bu dərdi el unutsun.
Qeyrəti az, dili saz,
Hiylə, kələk, yerlibaz!

## CƏSUS QADINA

Ömrə balta vuransan,
Çəkilib yan duransan.
Vaxt gələr ki, baltana,
Özün qurban olarsan.

Hardan ötüb-keçirsən,
Orda torba tikirsən.
Sən yüksələn həyatın
Yarpağını tökürsən.

Mənə də tor qurmusan,
Ürəyimdən vurmusan.
Vətən alma kimidi,
Onda alma qurdusan.

Yanıram ki, tüstüm var,
İsitməyə istim var.
De, sənə neyləyib ki,
İskəndərə qəsdin var.

Ovçun bəlli tulasan,
Ev dağılar ulasan.
Çox güman ki, ölərsən
Bu peşəni tullasan.

Ahım yandırar səni,
Bir gün qandırar səni.
Kələyindən üşüdüm
Sözüm dondurar səni.

Görünmürsən gözümə,
Tuş olarsan sözümə.

Qadınsan, sənə qıysam,
Qıymalıyam özümə.

Yolu dumanlayırsan,
Başı dolandırırsan.
Sanki qara milçəksən,
Ürək bulandırırsan.

Korşalıb duyğun, hissin,
Göz çıxardır kor hisin.
Sən pissən ki, görürsən
İnsanın ancaq pisin.

Qapırsan kimi tapdın,
Bilmirsən kimi qapdın.
Nəyinə gərək, döşünə
Sən, – Sağ ol! – sözü taxtın.

Tüpürüm bu peşənə,
Yaman yatıb döşünə.
Səni sənə tanıdan
Başın yoxdu düşünə.

## SƏN DƏ HÜR

*Həyat məcbur etdi ki,*
*Satiraya qayıdım,*
*Zamanın kölgəsində*
*Yatanları ayıldım:*

Ulduz axdı Yerətək,
İtin onu görəntək:
Dedi: - yıxıldı göydən

Ulduzlar mən hürəntək!
Meydan açıqdı qaç, gir,
Hürən çoxdu, sən də hür!...

Dönmə bala, işindən.
Hür, qalma vərdişindən.
Qapaz vuran tapılar,
Qan çağlar hər dişindən.
Ölkəmizdə deyil sirr,
Hürməlidir it, hür, hür!...

Gördün ki, düşdün dara,
Hürdün, ağ olmur qara,
Hür ulduza, hür Aya,
Gedincə eldən gora.
Bəlkə dilin yağdı dürr,
Qoduğların yığdı dürr!

Səni salıb kim tora,
Hürdürür ora, bura?
Gecikmisən ay yazıq,
Tük qurtarıb, qıl dara!...
Qəzəblənib olma kür,
Qorxma ürəklə hür, hür!

Görkəmin haldan çıxır,
Nəfəsin daldan çıxır.
Neyləyəsən, çörəyin
Bu qeylü-qaldan çıxır.
Hürməllisən, hür bala,
Çox hür, qalarsan dala!...

## MƏNİ SEÇİN

*(Seçkiqabağı təbliğat)*

I namizəd

And içirəm:
İki başı bir edəcəm,
Alçaqları pir edəcəm,
Ömrünüzü Kir edəcəm,
Salam üçün ölçün, biçin,
Məni seçin.

II namizəd

And içirəm:
Balınıza yağ qatacam,
Yolunuza dağ atacam,
Əlsizlərə əl tutacam,
Balam üçün ölçün, biçin,
Məni seçin!

III namizəd

And içirəm:
Kor bulağı çağladacam,
Yeli, seli çaxladacam,
Yaranızı sağaldacam,
Qalan üçün ölçün, biçin
Məni seçin!

IV namizəd

And içirəm:
Hər hürənə daş atmıram,

Ürəyimdə yaşatmıram.
Siyasətlə iş görürəm,
İtə, qurda qəzəblənib,
Ürəyimdən yük atmıram,
Palan üçün ölçün, biçin,
Məni seçin!...

V namizəd

And içirəm:
Kim nə deyir, yalan deyir, -
Dərd satır o, alan deyil.
O, deyənlər olan deyil.
Olan üçün, ölçün, biçin,
Məni seçin.

VI namizəd

And içirəm:
Kimlər kimə kiçilibdir,
Seçilmədən seçilibdir.
Siz deyişin, «seçilənlər»,
Təzə yurda köç edibdir.
Yalan üçün ölçün, biçin,
Məni seçin.

VII namizəd

And içirəm:
Səs verməyin, səsi satın.
Aranızda kimdi satqın:
Boğazına kəndir atın,
Cilovlayın, sapand atın!
Talan üçün ölçün, biçin,
Məni seçin.

## TAZİYANƏLƏR

Cib dolu, baş boş,
Ha qayna, ha coş,
Sözün, söhbətin
Kimə gələr xoş?

* * *

Bəxtin dostdusa,
Qolun zordusa,
Hara gedərsən,
Ağlın kordusa?

* * *

Ürəyin qaranlıq zirzəmisində,
Yatıb qara fikir, itmək istəyir:
Tamahı böyükdür ağılsızların,
Ağılsız günəşdə bitmək istəyir.

***

Mən ayağa durandan Yer olubdur dayağım;
Çox ağıllı başlardan ağıllıdır ayağım.
Dalğalarda gəmiyəm, tufanlara dözürəm,
Nəsimidir, Sabirdir, Xaqanidir mayakım.

* * *

İçimdə bəslənən bir canavarsan,
İçimi yeyirsən məndən xəbərsiz.
Qanımdan qan içib gücə gəlirsən –
Özünü öyürsən məndən xəbərsiz.

* * *

Arxayın, səllimi gedir bu kişi,
Arabir qarnına sığal da çəkir;
Əyilə bilməyir geyə çəkməsin,
Vəzifə naminə əsir, diz çökür.

***

Ürəyim köksümdən çıxacaq indi;
Bütün qəzəbini, bütün kinini,
Nadanın başına sıxacaq indi.

***

Bu uşaq saqqız satar;
Dərdi sızlar içimdə.
Üşüyürəm, elə bil
Tanrı, buz var içimdə.

* * *

Sən o gün özünə quyu qazmısan,
O gün ki, millətin qanını tökdün.
Qanuna söykənib, qanun adından
Haqqın, ədalətin belini bükdün.

* * *

Dünya nadan əlində –
Nadanlar zirvəmizdir.
Təmizimiz, dahimiz
Əzilən zümrəmizdir.
Zəncirdəyik, azadlıq
Birinci cümləmizdir.

* * *

Sən dırnağın zərrəsisən, -
Alçağlığın zirvəsisən.

* * *

Qoduq bənzəsə də körpə ceyrana,
Eşşəkdi, tərbiyə kar etməz ona.

* * *

Qabağa yüyürmə, köpüklənərsən,
Dala da qalma ki, təpiklənərsən.

* * *

Sənin cibin dolu, ürəyin boşdu,
Mənim cibim boşdur, ürəyim dolu;
Bu dünya sənə də, mənə də xoşdu,
Gedirik yanaşı bir ömür yolu.

* * *

Cibi dolu, başı boşa yol neyləsin?
Bir yolçu ki, düzdə aza kol neyləsin?!

***

Baxan deyər kişidir,
Bu iş, bunun işidir.
Elədi boy-buxunu
Eldə ötüb çoxunu.
Tülkü kimi ağzı da
Hey ağardır dişini.
Susmaz qəzəbi, kini.
Yalanı bol, vədi bol,
Bu kişi də kişilik
Görən yoxdu bircə yol.

* * *

Allahım, əsrin dərdinə bax!
Biri pul yığmağa yer tapmır,
Biri başa qoymağa papaq.

* * *

Toyuq-cücə bilib sən bu milləti,
Taxta kəpəyinə düdüləyirsən.
- Xoruz təkcə mənəm, xoruzlanmayın!
Deyib bu milləti hədələyirsən.

* * *

Vətənin nəyi var, mədələyirsən,
Bu xalqı, milləti vədələyirsən,
Atanı öldürüb, körpə balanı
Hökumət adından dədələyirsən!..

* * *

Oturub dünyanın başı üstündə
Şeytan hər ölkədə şuluqluq salır.
Özü əzə-əzə – Haqq! – deyənləri,
Saxta demokratiya himnini çalır.

* * *

Rüşvət çıxıb taxta bu gün;
Hörmət, savad olub sürgün!
Yarmaq üçün dahi başı,
Rüşvət olub vətən daşı!

* * *

İtirib həyanı, atıb abırı,
Alverə qurşanıb qadın küçədə.
İtirib ömrünə düşən bəxtini:
Həyatın ləzzətin, dadın küçədə!

* * *

Ah, necə də qaranlıqdı bu adam,
Qurtar məni bu zülmətdən, İlahi!
Şirin sözə zəhər qatan dili var,
Qurtar məni bu zillətdən, İlahi!

* * *

Tətik dindi, susdu günah,
Töküldü qan, çəkdi gül ah,
Kimlər üçün, torpağımız
El qanından çəkdi gülab?

* * *

Qurtara bilmirsə öz tələsindən;
Kərə qan alırsa öz kürəsindən,
Millət silinəcək Yer kürəsindən.

* * *

Düşündün: - alçaldım, sındırım kimi?
- Qorxuncsan gözümdə sıldırım kimi;
Məni həlim bilib qudurma bala,
Səsini üstümə qaldırma bala,
Çaxaram başında ildırım kimi!..

* * *

- Böyük vəzifədə kiçik adamlar,
Böyük fikirləri biçir ot kimi.

Tayları yanında – Dahiyəm! – deyib
Kişnəyir meydanda harın at kimi.

* * *

- Bəsdi, bəsdi, eşitdim;
Bu nalə – gül ahıdır.
Mən bilirəm, bu işlər
Kimlərin günahıdır!..

* * *

Kimlərdi sökdürür Azərbaycanı?!
Çarmıxa çəkdirir Azərbaycanı!
Çökməzdi yağsa da «Atom», «hidrogen»,
Yalanlar çökdürür Azərbaycanı!

* * *

Biri zurna çalır, mini züy tutur,
Başlar dumanlanır – eli küy tutur.
Kimi arıqlayır, kimi piy tutur,
Ay mənim Vətənim, nə bəxtəvərsən!

* * *

Atılıb-düşmə belə, zənd eləyirlər dəlisən,
Fikrini cəm eləyib qoy hələ odda dəmə sən.
- Bizdə bəzi kişiyə pul gərək olmur – demə sən,
Köhnədən biz beləyik, - aləmi tutmuş səsimiz,
Verələr yer kürəsin, bir kərə etməz bəsimiz.

* * *

Kəsilməsə Vətəndə
Yaltağ yetirən tağlar,
Gələcəkdə uşaqlar
Yurda yaltağ doğular!

* * *

Həkim: - qaraciyərin şişib.
İskəndər Etibar:
- Millət haray çəkir, millət inləyir,
Mən də bu meydana atılmalıydım;

Sabirin yolunu gedirəm deyə,
Sabirin dərdinə tutulmalıydım.
*Bağdad 1999.*

Dağılıb millətimiz dərbədər olmuş Vətənində,
Qopur ah-nalə, inilti gecə-gündüz bədənində,
Eşidir arvad, uşaq da çalınır züy gödənində
Batar Allah, qulağı hər gələnin də, gedənin də
Yetişər bəs nə zaman bir belə ah-nalə sona?!

* * *

Alır arvad, satır arvad küçədə yalvarış ilə,
Döyülür də, söyülür də acı sözlə, qayış ilə,
Yer alırlar gecədən yalvarış ilə, xahiş ilə,
Böyüdürlər vətən oğlu Vətən üçün bu qadınlar,
Döyülürlər, söyülürlər niyə, neyçün bu qadınlar?!

***

Kimə iş versəm, onu oğru edib çullayıram,
Guyə ki, görməyirəm, rüşvət ilə pullayıram,
Səsi çıxcaq, yapışıb türmələrə tullayıram,
Neyləyər banda mənə? Bandaların başçısıyam!

* * *

Bu böyük millətin böyüklərini
Həmişə xırdalar məhv eləyibdir.
Xırdalar haqqında böyük düşünən
Böyüklər həmişə səhv eləyibdir.
Xırda böyüklərə düşmən olsa da,
Böyüklər xırdanı əvf eləyibdir.

* * *

Mən daha çox görürəm,
Gözlərim o göz deyil.
Hədəflərə düz dəyir,
Sözlərim o söz deyil.
Söndürə bilməz tufan,
Közüm də o köz deyil!

Əyilməzəm, sınmazam,
Həyat mənə – döz - deyir!
- Əbədidir yananlar!
Gələn bu səs düz deyir?!

* * *

Yalana çıxarsa eldə düz sözüm;
Ağlar gecə-gündüz bəladan gözüm…

***

Alıb ələ Vətən daşı,
Atdı ölkə vətəndaşı,
Yaralandı Vətən başı!
Ağlayıram için-için,
Mənə baxıb gülür naşı!

* * *

Qan tutub gözümüzü;
Görmürük özümüzü.
Dünya elə kar olub,
Eşitmir sözümüzü.

* * *

Hərə sevir özünü,
Çəkir özünə tərəf
Bir ocağın közünü,
Ocaq da tüstülənib,
Çıxardır el gözünü.

* * *

Dahi piyadadır, nadan maşında, -
Nadan da bir yükdü dahi başında;
İlahi, sən özün yetiş dadıma,
Kölgə salma mənim istedadıma!..

* * *

Elmə qaçan milləti bir sürü mal etdi kim?
Çəkib dilin millətin daş kimi lal etdi kim?
Ümman idi millətim, dünyaya xal etdi kim?

* * *

Cavab verin, cavab verin, sizinləyəm ay ellər,
Kim çağırdı üstümüzə bir-birindən bəd illər?!

* * *

Tanrı, bu millətin günahı nədir,
Düşüb küçə-küçə dilənir bu gün?
Daş idi, dinməzdi olacaqlara,
Gör necə dil açıb dillənir bu gün!

## HİKMƏT

Fillər tula ilə gəzməyə çıxsa,
tula elə bilər fil də tuladır.

* * *

Kürsü üçün milləti al qana qəltan elədin,
Elləri qaçqın eləyib dalınca yortan elədin.
Yun kimi əlçimləyib üstünə yorğan elədin.
Dərinlədib dərdini, qəlbini yarğan elədin.

* * *

Dilim susa bilər ağrı, acıdan
Qələmim heç zaman susmayacaqdır.
Bir nadan yayınsa söz gülləsindən,
Qələmim dilimi suçlayacaqdır.

***

Ağlayır sinəmin qəmi nə vaxtdır,
Qurumur gözümün nəmi nə vaxtdır,
Gecikir, ləngiyir yolda nədənsə,
Verilib ölümün əmri nə vaxtdır.

* * *

Yaşayıram ölüm adlı hədədə,
Haya yetməz bacı, qardaş, dədə də.
Açılmayır düyünləri ömrümün,
Zəhər gəlir təzə səhər badədə?!

* * *

İndi hamı lider olub,
Lider ilə ölkə dolub.
Çoxaldıqca liderimiz,
Cənnət idi ölkə, solub.

* * *

El nə bilir hiylə nədi, küy nədi,
Bu milləti heyvərələr küylədi.

* * *

Düm-düz edib əyri olan qəddini,
Millət aşıbdır ay aman həddini.
Nə qıymaram, nə qoymaram dahinin
Kimsə qızıb eldə söyə cəddini.

***

Kimi yaralı qıçdan,
Kimi axsayır başdan.
Axsayıb çox dahilər…
Axsaq başın nə fərqi
Peyindən, qara daşdan?!

* * *

Gülümə – Güldür! – demək üçün gədə, sən
İçinin qurdunu öldürməlisən.
Bu qədər gülməli ikən sən özün,
Nədən ey gic, mənə sən gülməlisən?!

* * *

Gic bic imiş sən demə:
Güldü dahi şairə,
Dahinin qələmində
Adı düşsün tarixə.

* * *

Düşmənim necə çoxmuş:
Səbəbkar məni bilir,
Köhnədin gözü çıxmış.

* * *

Qız, məni aldadırsan:
Yalançı kirpiyinlə,
Saxta al yanağınla.
Utanma çıx qarşıma
Allahdan olanınla,
Küsdürmə ürəyimi
Ay xanım, yalanınla.

* * *

Mənim balam, körpəsən:
Qohumlar arasında
Məhəbbətə görpüsən.
Bu gün nə görmüsən ki,
Sabaha ağlayırsan,
Ürəyi dağlayırsan!...

* * *

Xəbisliyin güc gəldi,
Şeir yazdın gücənib.
Sısqa çaydı ilhamın,
Elə bildin güclənib.

* * *

İt balası it olar:
Sən adama bənzədin,
Adam ola bilmədin.
Vətən – badam ağacı,
Bu ağacda boy atdın,
Badam ola bilmədin.
Çürüdü için, çölün,
Əl dəyəndə iy verdin
İt nəfəsli it kimi.
Baxdın ələ, nə gördün,
Pay verənə yalmandın,
Verməyənə hey hürdün.

* * *

Bir şey deyil şayəçi –
Ürəyi bulandıran
bir qara milçəkdir o.
Ürəyimə gör necə
dağ üstə dağ çəkdi o.

## BİZ

Biz hərəmiz bir cürə gopçuyuq,
Biz hərəmiz bir cürə topçuyuq.
Biz hərəmiz bir cürə talançıyıq,
Biz hərəmiz bir cürə yalançıyıq.
Biz hərəmiz bir cürə rüşvətxoruq,
Biz hərəmiz bir cürə xor-xoruq.
Biz hərəmiz bir cürə əclafıq,
Biz hərəmiz bir cürə əfəlik.
Biz hərəmiz bir cürə acgözük,
Biz hərəmiz bir cürə şorgözük.
Biz hərəmiz bir cürə siyasətbazıq.
Biz hərəmiz bir cürə bazıq, bazıq.

## BU

Elə bayağıdır bu, -
Məğlub bayrağıdır bu.

Danışdı bu, dindi bu,
Bilmədim ki, kimdi bu?

Səsi qarışıq düşüb,
Astar çıxıb üzünə,
Üzü qırışıq düşüb.

Ha seçdim, ha aradım,
Ha sökdüm, ha quradım,
Bəlkə bir şey yaradım;
Heç oğlu heçdi zalım,
Heçdən heç nə olmayır.

Adamdı, heyvandı bu?
Söy, vecinə almayır.
*06.01.1999*

## DƏRS

Niyə dərs olmadı Stalin ömrü,
Yıxdı şəxsiyyətə pərəstiş onu.
Yaman əməlləri coşqun sel oldu,
Sellərə qərq oldu ömrünün sonu.

Dağın dağ dərdi var, təpənin təpə,
Böyükdü böyüklük faciəsi də.
Tarixə nəzər sal, nə qədər uca,
Kül oldu ucalıq faciəsində.
*31 yanvar 1999-cu il*

## YALTAĞIN OĞLUNA NƏSİHƏTİ

Hər sözünü dəstələ,
Tərif ilə məst elə,
Ver yuxuya, qəst elə;
Çap, yetəni çapbala,
Çap atını, çap, bala!

Hər nə qədər bassa kif,
Piylə başın! Qoy hərif
Zənd eləsin mifdi, mif,

Çap, yetəni çapbala,
Çap atını, çap, bala!

Tərif elə oğrunu,
Rüsvay elə doğrunu,
“Eldə” apar sorğunu;
De: - Tanrısan az qala,
Çap atını, çap, bala!

Gündə şirin dil ilə,
Milçəyini fil elə,
Tərif ilə al ələ,
Apar sağa, çək sola,
Çap atını, çap bala!

Nəyinə gərək el, vətən,
Çaşıb demə:-ey vətən!
Nə zaddı, nə şey vətən,
Hər yetəni çapbala,
Çap atını, çap bala!

Yansa tükü, fəryad ol,
Qəm dağına Fərhad ol.
Olsa gərək, arvad ol,
Çap, yetəni çapbala,
Çap atını, çap, bala!

Pul elə dərmandı ki,
Bir elə fərmandı ki,
Baş elə fırlandı ki,
Inanma ki, sağ qala,
Çap, yetəni çapbala,
Çap atını, çap, bala!

*16 mart, 1999-cu il*

## OYAN, A MİLLƏT, OYAN!

Qarabağın
Bağrını hicran dəlir,
Güllərin qızlığını
Şuşada yadlar dərir,
Dan yeri ağlar gəlir,
Oyan, a millət, oyan!

Başsız qalıb ağılar,
Bizi söyür yağılar,
Oyanmasan, ağ olar,
Oyan, a millət, oyan!

Hay çəkir Dədə Qorqud;
Çək başına külünü,
Küldə qalan qoru ud,
Zamandı, qalx, qoru yurd,
Oyan, a millət, oyan!

Külək çırpar, qapın ağlar,
Saçın töküb qəbrin üstə
Qadın ağlar.
Uşaq oğlum, uşaq qızım,
Divarlara yazdığın
Adın ağlar.
Ocaqda köz-köz olan
Odun ağlar,
Oyan, a millət, oyan!

Torpaq ana, dağlar döşü,
Bu döşləri düşmən əmir.
Alt daşısan? Çıx bu altdan,

Sən nə daşsan, nə də dəmir,
Oyan, a millət, oyan!

Sağına bax, soluna bax,
Qeyrət olub qoluna ax,
Yurda baxıb çəkmə gəl, ah,
Vallah, günahdır, günah,
Oyan, a millət, oyan!
*9 iyun, 1999*

## BƏZİ TARİXÇİLƏRƏ CAVAB

*(Bir milyon 500 min yaşı olan Azıx gözəlinə)*

Mən səni sevmişdim
milyon il əvvəl,
Yenə sevirəm.
Dəyişib həyatım
yerlə-göy qədər,
Eşqim, məhəbbətim
dönməyib fəqət.
Qaralır xal kimi ilk ocaq yeri,
Sənə olan eşqim
sönməyib fəqət!
Yer üzünün ilk qızı;-
Ilk mayası-aynası,
Ilk insanın anası-
türk qızı!
Çox ölkənin insanları
Səndən alıb ilkinliyi.
Sən silmisən dünyadan,
Sən, ilkin çirkinliyi.
Dünya bölünməmişdi
Ölkələrə, xalqa hələ,

Sən, insan səpirdin
Yer üzündə hər yerə!

Nə Adəmdən, nə meymundan,
Yerə düşən ay nurundan dönmüsən,
Ay nurutək həlimsən,
Ilk günəşdən düşən oda;
Sən demisən;-ərimsən!
Sənə qayıtmadılar,
Səndən gedənlər;
Özlərini qova-qova
ov güdənlər...
Harda azıb qaldılar,
Orda məskən saldılar
ac gödənlər!
Yola salıb min illəri,
Yadlaşdılar,
Ocaq çatıb adlaşdılar!

Indi nadan tarixçilər,
Sənə sual verirlər;
“-Söylə, hardan gəlmisən?”
Indi yadlar doğmalaşıb,
Sən gəlməsən!?

## BƏS NİYƏ DOLMUR YENƏ DƏ BÜDCƏMİZ

Nə var, verib ingilisə, cinlərə,
Oturmuşuq “Mersedes”ə, “Cip”lərə.
Tor atmışıq astarı üz ciblərə;
Gör nə qədər tərləyirik eldə biz,
Az olsa da, anlayırıq bizcə biz,
Bəs niyə dolmur yenə də büdcəmiz?!

Əldə çomaq hoylayırıq milləti,
Dincin ala qoymayırıq milləti,
Ordan-ora qovlayırıq milləti;
Bəzilərin şərləyirik eldə biz,
Az olsa da, anlayırıq bizcə biz,
Bəs niyə dolmur yenə də büdcəmiz?!

Millətimiz dözdü, dözür gör necə,
Eydiririk sağmaq üçün hər gecə,
Qan tökərik, banlasa yersiz beçə;
Pir başına hərləyərik eldə biz,
Az olsa da, anlayırıq bizcə biz,
Bəs niyə dolmur yenə də büdcəmiz?!

Çalxamışıq əyriləri, düzləri,
Yağ yenə çıxmır, quruyub cibləri.
Meydana çəkdi nə qədər bicləri;
Nə iş qalıb bilməyirik eldə biz,
Az olsa da, anlayırıq bizcə biz,
Bəs niyə dolmur yenə də büdcəmiz?!

Biz başıyıq, millət ayaqdır bizə,
Qeyrət, əmi, rəngdi, boyaqdır bizə.
Ölkə də var, sözdə dayaqdır bizə;
Bir belə ki, əsnəyirik eldə biz,
Az olsa da, anlayırıq bizcə biz,
Bəs niyə dolmur yenə də büdcəmiz?!

Dopdolu qandı, çay olub hər damar,
Çırtma vura kimsə bizə, yağ damar.
Ölsün ölən, ölməmişik, biz ki, var;
Huri-mələk bəsləyirik eldə biz,
Az olsa da, anlayırıq bizcə biz,
Bəs niyə dolmur yenə də büdcəmiz?!

*21 iyun 1997-ci il*

## ARAQ "ÇƏLLƏYİ"

Bəzi araq "çəlləyi",
İçir, doymur araqdan.
Gicəllənir baş, beyin,
Ayrı düşür ayaqdan.

Bu "çəlləyin" gözləri
Bulanıbdır sel kimi,
Yağır, yağır üstünə,
Yağış kimi el kini.

Bənzəsə də insana,
Donuz kimi fınxırır,
Bəlli deyil məqsədi,
Ortalıqda vurnuxur.

Hürür dili, ağacda
Zəncirlənən it kimi.
Boş ağızda söz yanır,
Hey tüpürür söz külü.

Qızıldandı dişləri,
Ağzı ocaq kimidi.
Nə danışır, nə deyir,
Söz deyil, söz kiridi.

Əl verin, ay əl verin,
Dirildəyin "çəlləyi".
Dirilməsə, tövləyə
Dirlədəyin "çəlləyi".

*26 avqust 1999-cu il*

**“TƏK SƏBİR”**

Yarı ciddi, yarı məzə,
Adı köhnə, özü təzə
“Tək səbir”.

Yağlı tikan, acı bibər,
Nə sirri var, özü bilər
“Tək səbir”.

Öz yağında bişər sözü,
Ürəklərə salar közü
“Tək səbir”.

Mirzə Cəlil nəfəsidi,
Ulu Sabir nəvəsidi,
“Tək səbir”.

Həqiqətin aynasıdı,
Vətən üçün yanasıdı
“Tək səbir”.

Rüşvət almaz, haram yeməz,
Ölər, elə yalan deməz
“Tək səbir”.

Sənin olsun, mənim olsun,
Namərdlərə qənim olsun
“Tək səbir”.

*26 avqust 1999-cu il*

## DƏDƏ QORQUDLA SÖHBƏT

Dədə Qorqud,
Nə tökürsən gözlərinin qorasını,
Yağı düşmən yağmalayıb
Oğuz elin qalasını.
Nökər edib oğlunu, hərəm edib xatunların
Gözəl-göyçək balasını.
Ağlama, Dədə Qorqud, ağlama,
Uşaq kimi kövrəksən –
Bu, gəlməzdi ağlıma.

Dədə Qorqud,
Şikayətə gəlmişəm.
Hər sözündən qan sızan,
Hekayətə gəlmişəm.
Qol qolla,
Yol yolla,
Günahımı qaxınc elə;
Sıyır məni qılınc elə
Ver döyüşən bir ələ.
Bəyən!... deyən
Elə bilmə bəylik edir,-
Yağı düşmən meydan açır,
Bəylərimiz səylik edir.
Elə dönüb “Qazan xan”,
Indi olub Qazanc xan!
Beyrək olub ağciyər,
Bir nahara yeddi dənə ac yeyər.

**NƏ QƏDƏR Kİ**

Yuxum – çırpına-çırpına,
Gözümü açıb,
Gözümdən qaçıb.
Yuxumun izləri
iynə kimi batır gözümə,
gələ bilmirəm özümə.
Yuxumu ha səsləyirəm,
Uzaqdan-uzağa ha bəsləyirəm,
Şirin-şəkər sözlərimlə,
Saymır məni,
Soyunur məni.
İlan vuran yatıb,
Mən hələ qovruluram.
Hər şey: - kitablarım,
Divardakı şəkillərim,
Bütün günü guruldayan
qaz sobası,
qoltuğumda likgildəyən
çiban da,
elə yatıb, səsi çıxmaz
başlarını kəssən də.
Mən çapalayıram yataqda,
Sudan çıxan balıq kimi.
Beynim püskürür,
narahatdı -
Olandan, olacaqdan
xəbərdar Xalıq kimi.
Yaman pis ulayır
Siyasət bayquşları…
Ümidi yoxdur səhərə,
Neçə kəndin, şəhərin.
Neçə milyon insanın

canı qurban veriləcək,
Bir atımlıq zəhərə.

Yuxum çəkilib ərşə,
Mən, məndən xəbərsizlərin
halına yanıram,
Bu mənzərə:
Barak Obama, Sarkazi üçün
nəşədir, nəşə.
Nə qədər ki, doğru yatıb,
yalan meydan sulayır.
Belə olacaq həmişə.

1. Barak Obama – ABŞ prezidenti
2. Sorkazi – Fransa prezidenti

*16.05.11.*

## ŞAİR ÖNÜNDƏ

Neştərdi sözlərim sancılar sənə,
İllərlə zülm edər sancılar sənə.
Mənim söz ordumun sayı bilinməz,
Nə ili, nə də ki, ayı bilinməz.
Həmişə hazırdı sözüm döyüşə,
Cücəsən, o, şirlə durub döş-döşə.
Görürəm qudurub yolu azmısan,
İzimə, yoluma çıxma, yazıqsan.
Bütün vəzifələr gəldi-gedərdi,
Şairlə döyüşmək, vallah hədərdi.
Şairi ucaldır qan da, ölüm də,
Quldu hökümdar da şair önündə.

*07.05.11*

**NƏ OLAYDI**

Atışma
dartışma deyil:
Dartışmada
köynəyin cırılar,
yanağın cızılar,
Ayağın sü rüşər,
yıxılıb bir də durarsan,
Səni yıxana
yağlı kötək vurarsan,
yerdə qalan papağını
götürüb gedərsən.
Qisas üçün fürsət güdərsən,
Ya da unudarsan.
Bu qəzəbi
ürəyinin böyüklüyündə
itirərsən,
Ürəyində pöhrələnən bir sevincə.
Kübrə edib boy-buxunlu
sevinc bitirərsən.
Baxır idrakının ucalığına.
Ağılı olan,
Belə çəkişmələri
Aparmaz ömrün uzaqlığına.

Atışma;
Güllədi – nöktə-nöktə;
Göz qırpımında
qoyar ömrünə nöqtə.
Atışma;
Ölüm yaşadan qurğuşundu.
Ona da bu haqqı verən insandı.
Nə olaydı:

İnsan ömrü boyu uşaq qalaydı;
Öldürmək istəyindən,
xəyanətdən, paxıllıqdan
uzaq qalaydı.
*20.05.11.*

## MƏN

Qorxmuram tufandan, toronadadan,
Həyatımın eşq adlı zirvəsindəyəm.
Əyilməz vüqarım, tükənməz eşqim,
Xaqani, Nəsimi zümzəsindənəm.

Nadanlar önümdə dingildəyirlər,
Əl vursam, miss kimi cingildəyirlər,
Söz vurdum, it kimi zingildəyirlər,
Aslanlar, pələnglər süfrəsindəyəm.
*02.06.11.*

## SIĞMAZ

*(Nəsimiyə nəzirə)*

Mən elə dərdliyəm ki,
dərdim cahana sığmaz,
hər dərdim iki dünya,
Yerdə can ona sığmaz.
Gözlərimdən ürəyə axır neçə dəryalar,
Neyləsəm, iki dərya
candakı qana sığmaz.
Kin dilimin yarası,
mərhəmətdi dərmanı,
Dərdim batar eşqimdə,
eşqim bir cana sığmaz.
Bəxt yatıb, dilim susub,

haraya Yer, göy gələ,
Dərd elə sonsuzdu ki,
canım bir yana çığmaz.
Bilmirəm mən nəyəm ki, dəryalar sığar mənə,
Bu dəryalar, dənizlər məndəki ana sığmaz.

*01.05.11.*

* * *

Bu necə zamandı;
Ərəb öləndə bayram,
İngilis öləndə fəryad,
Alman öləndə haray!
Barak Obama[1],
Niyə sığmırsan
Elinə, obana?

[1] ABŞ prezidenti

**İNSAN**

Sızlaya-sızlaya
doğulan insan,
Bu dünya sənlik deyil,
Qayıt geri.
Qan tutub, keyləşib ki,
Özündə deyil,
Oyat Yeri.
Gəlişin heçnədirsə,
Yerin nə vecinədirsə,
Niyə gəlirsən Yerə?
Bu dünyanı yandıran
Dərdi görə bilmirsən,
Barı bircə nəfərlik

Dərdi bölə bilmirəsn,
Yerə niyə gəlirsən?

Qarın güdən ağılsız;
Mal-qaranın tayısan,
Əzrailin payısan,
Niyə – Varam! deyirsən?
*05.06.11.*

## ALLAHA XİTAB

«…Allah diləsəydi əgər, hamınızı
yönəldərdi düz yola». (ənam S.a.149)

Şeytanlar haca gedir:
Yolda hamını ötür
Həcəri ilkin öpür…

Yanında boyun burur,
Şirin-şirin dil töküb,
Düzlərinə tor qurur.
Coşur, elə qudurur,
Pələng ödünü udur.

Sən görürsən, Allahım:
Bilmirəm ağlayırsan,
Ya gülürsən, Allahım.

Yaratdığın şeytandan
De, səndəmi qorxursan?
O gələndə diksinib
Ayağamı qalxırsan?
Hər yerdə açıqdısa,
İblisə, şeytana yol,

Niyə bizə deyirsən;
- Ay insan, ağıllı ol!
Haqq hələ beşikdədi,
Ayağ açıb gedir şər.
«İncil», «Quran» göndərdin,
Hələ də Yer üzündə
Nizamsızdı bu bəşər.
Hökm sənin hökmünsə,
Elçilər nəyə gərək?
İstək səninsə əgər,
Nədən ötrüdür ürək?
Ver hökmünü bir kərə,
Bu çiçəkli dünyada,
Yerini bilsin hərə.
Uymasın insan şərə
Bağışla ay Allahım,
Sənə şübhə etmirəm.
Şeytan yetib murada,
İnsan qalıb arada.
Niyə, niyə Allahım:
Cığır düzdü, yol düzdü,
Neçə milyon illərdi
İnsanın əyri gedir,
Bu hikmət məni üzdü.

*03.02.11*

## AY ALLAHIM

Səni sevirdim canım kimi,
Sən də məni təmizlədin.
Hər fikrimi, düşüncəmi
Ay Allahım, dənizlədin.
Ürəklərə, fikirlərə,
Paylayıram söz nurumu,

Əlindədir ağ əllərim,
Saxlayıram qürurumu.
Çəpərlədi dörd yanımı,
Dəmir-beton namərd adam.
Sən od verdin, alovlandım,
Gördülər ki, sönməz odam.
Alim artdı, çox iş görək
Robot – «İnsan» yaratdılar:
Sevindilər, öyündülər,
Guya bizi yarıtdılar.
Nöktə boyda bir cücüyə
Sən verdiiyn canı, qanı,
İnsanına həyəcanı
Verə bilən varlıq hanı?
Səni duyub tanımayan
İnsan deyil, tullantıdır.
Bənzəsə də ona, mənə,
Əslində o, gul altıdır.

*06.01.11.*

## ŞAMAXI QODUĞLARI

*Şamaxının diplomlu və diplomsuz müdirklərindən, Vətən və millət* ruhu *ilə yoğrulan, vətəndaşlarının dərdini öz dərdi bilən insanlarından üzr istəyirəm. Bu şeir Xaqanini, Nəsimini didərgin salan, Sabirin, Hadinin və Nalənin, bir çox müdriklərin həyatına qəsd edən, şəbədə qoşan* nadanlara aiddir.

Dahiyə şıllaq atar,
Şamaxı qoduğları.
Anqırıb ara qatar,
Şamaxı qoduqları.

Peyini qızıl bilər,
Saralan çöpə gülər,

Qardaşına qəm dilər,
Şamaxı qoduqları.

Çox deyil, tək-tük olar,
Mələyib şişək olar,
Böyüyüb eşəşk olar,
Şamaxı qoduqları.

Varlısı, yoxsulu da,
Nə görsə yuxusunda,
Yaşadır qorxusunda,
Şamaxı qoduqları.

Həqiqətdən uzaqlar,
Yalanlara qucaqlar.
Nadanlıqda qoçaqlar,
Şamaxı qoduqları.

*22.03.11.*

## RÜŞVƏTXOR DEYİR Kİ

Atamı, anamı qıymışam sənə,
Atımsan, nəyim var, qoymuşam sənə.
Yalandı! Kim desə doymuşam! Sənə
Rüşvət yox, qoy - həyat! – desin qananlar,
Səninlə dövr edir bütün qanunlar!

Xırda-xuruş gəlir ilə yox aram,
Doğrular əlində qalsa da yaxam,
Gücüm var, təpə yox, dağları yıxam,
Həyatın dadısan, duzusan, rüşvət,
Qışın odu, yayın buzusan, rüşvət!

Haram pulun dəlisiyəm,
Millətimin zəlisiyəm,
Düz bellərin əyrisiyəm,
Səbir düzəltməz məni,
Qəbir düzəltməz məni.

*30.01.11.*

* * *

Baş düşündüyünə,
Dilim, dediyinə,
Gözüm, gördüyünə,
Dişim, yediyinə,
Vaxtım, uğurumda
Ölümə peşiman.
Ayaqlarım yolu
Yeriyir peşiman,
Halım da pərişan!
Yaşadım, yaşamadım?

* * *

«Dolanım başına, dönüm başına»
Sən məni oxşatma düyü aşına,
Yeyilə bilmərəm, qoyma qarşına,
Mən insan balası – mərd qalasıyam.

İştahan böyükdü, daş da yeyərsən,
Qarnına nə getsə, onu öyərsən.
Sən mənə, sözümə – zəhər deyərsən,
Yeməli deyiləm, - dərd balasıyam.

Bilmirsən zəfəran, ya nədi qanqal
Nəfsin əxlaqına qandaldı, qandal
Uduzdun! Salasan deyə qalmaqal,
Nadan, səndən ötrü nərd olasıyam?

*05.01.11.*

## XEYİR OLA

Xəbislikdə geri qalmaz birimiz,
Yalançıdır hər ölümüz, dirimiz,
- Gətir! – deyir ocağımız, pirimiz,
- Al! – demərik, dağılsa da Yerimiz.
Yer, övladın Allah olub! Xeyir ola?

Oyun açdıq təbiətin başına,
Zəhər qatdıq torpağına, daşına,
Soğan tökdük Yerin isti aşına,
Qan ağlayır Yer qaşına-qaşına,
Yer, övladın Allah olub! Xeyir ola?
Bəşər oğlu hara gedir bu yolla?
*14.01.11.*

## NİYƏ YURDU PİSLƏYİRSƏN

Vətən səni əzizləyib,
Yollarını təmizləyib,
Ürəiyni dənizləyib,
Hər gecəni gündüzləyib,
Hara qalıb gül düzməyib?
Verir, yenə istəyirsən!

Sən Vətənə nə vermisən:
Yurdu minib heyləmisən,
Haylamısan, küyləmisən,
Hər yetəni hisləmisən,
Dədəni də pisləmisən,
Guya nəsə eyləmisən.
Qoy süfrəyə neyləmisən!..
Niyə yurdu pisləyirsən?
*14.01.11.*

## AYAĞA DUR, AZƏRBAYCAN

Sərvətinə kim daraşıb?
Kimlər üçün kim dalaşıb?
Əyri gülür, düz dolaşıb,
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Gədaların bütündülər,
Nəşə dolu tütündülər,
Dahilərin yetimdilər,
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Erməni yurd təmizləyir,
Əli bizi verib nəzir,
Axçıları əzizləyir,
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Cəbhələşib qadın, kişi,
Didişmədi hər gün işi,
Kimdi ərən, kimdi dişi?
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

İgidlərin axtarılır,
Düşdü ələ, axtalanır,
Hər tərəfi taxtalanır,
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Başda duran baş axtarır,
Yanıb quru, yaş axtarır,
Arıq başa daş axtarır,
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Keçər, desə nə, qərblilər,
Nə dil bilər, nə qəlb bilər,
Yerlilərin qəribdilər,
Ayağa dür, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Günəşdi Qərb, aldadacaq,
Yanaşma çox, yandıracaq,
Atıb səni, yan duracaq,
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Bill Klinton[1] verib huşa,
- Topdu! – deyib, atdı Buşa,
Jak[2] oynadır pusa-pusa,
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Əsir külək kələk kimi,
Kim aldadır görək kimi,
Kimi silər külək, kimi?
Ayağa dur, Azərbaycan!
Zərbəni vur, Azərbaycan!

Öndə Ayı, arxada Şir,
Oturduğun taxtı eşir,
Ölməlisən, aşın bişir,
Ayağa dur, Azərbaycan!

Zərbəni vur, Azərbaycan!
Azərbaycan! Azərbaycan!

[1] Bill Klinton – ABŞ prezidenti.
[2] Jak – Jak Şirak – Fransa prezidenti.

*8 mart 2001.*

## BƏZƏ İSKƏNDƏRİ, NADAN

Kim ki düşməndi elə, öydürür eldə özünü,
Özünü öymək ilə pərdələyir el gözünü.

Hər kəsi hər kəs üçün mən daha artıq sevirəm,
Bu səbəbdən deyirəm aləmə Sabir sözünü.

Kim sevib rüşvəti, rüşvətlə çatıb arzusuna,
Əyirdi, əyri bitib, sevməz o, xalqın düzünü.

Gədələr meydan açıb çox qaraya-ağ-dedilər,
Ölmədik, çox gədənin qap-qara gördük üzünü.

Özgə yox, doğma paxıllar bəzəyir dahiləri,
Bəzə İskəndəri nadan, bükər haqqım dizini!..

## O

O, həmişə əhalinin 90 faizini kül,
10 faizini də sərgi üçün gül edib.

## ERMƏNİ MONOLOQU

Acdı gözüm, doymaram,
Kimsəni dinc qoymaram.
Dərya mənimdir, yada
Damlasını qıymaram;
Erməniyəm, erməni,
Al qoduğu, ver məni!

Dünyada açdım bazar,
Hər elə saldım azar,
Yaxın, uzaq qonşular,
Livan əlimdən bezar;
Erməniyəm, erməni,
Al qoduğu, ver məni!

Hər tərəfə getmişəm,
Qamış kim bitmişəm,
Süfrə açıb kim mənə,
Süfrəni zay etmişəm;
Erməniyəm, erməni,
Al qoduğu, ver məni!

Deyin, məndə günah var?
Allahımdı günahkar;
O yaradıb, indi də
Əlimdən çəkir ahlar;
Erməniyəm, erməni,
Al qoduğu, ver məni!

## 2000-Cİ İLİN 2001-Cİ İLƏ HESABATI

Lider olub yalançılar,
Baş aldadır talançılar,
Sığışmayır sayğaca da
Gör nə qədər yalançı var,
Öndə gedən palançı var!

Bilməsə də qələm nədir,
Oğru, nadan qələmlədir;
Hökm verir, fərman yazır,
Üstümüzə qəm ələdir,
Qoyunları hey mələdir!

Yol, küçə də bulvar olub,
Olmayanlar, - pul var? Olub.
Şair, alim, müəllim də
İş axtaran qullar olub!

Tir kimidir bədənləri,
Buldozerdi gödənləri.
Çəpər çəkib, qoymur gedə
Gələcəyə, gedənləri!

## YALANDI

Yalan yalan içində, doğru yalan içində,
Çiçəkləyir, barlanır yalan talan içində!

Əyri güdür əyrini, yalan güdür düzü də,
Əyri düzdən güclüdü, dağ eləyir düzü də!

Dənizdə, göydə, Yerdə yalan qovur doğrunu,
Doğru qaçır, hey qaçır-yalan yarıb baağrını!

Ermənıiyə – Can! Deyir, boşdu mırıldanmağı,
Yalandı, ağ yalandı Buşun qırıldanmağı!

Yer kürəsi fırlanır, - yalandı fırlanmağı,
Yalan! Yalan! Günəşin göydə qürurlanmağı!

*Buş – ABŞ – prezidenti.*
*22 mart 2001.*

# ƏRUZ VƏZNLİ ŞEİRLƏR

## NƏ DƏXLİ

Ala gözün, qara gözə nə dəxli?
Köhnə sözün, təzə sözə, nə dəxli?

Paxır misə, çox da qızıl demişəm,
Keçəl qıza, - saçlı qızım, - demişəm,
Sizli qışa, - sizli yazım,-demişəm,
Qızın misə, misin qıza, nə dəxli?
Yazın qışa, qışın yaza, nə dəxli?

Siyasətdə çiy ət kimi biş görüm,
Bişməmisən, çəkil geri, iş görüm,
Mənim kimi xoruzlanıb şiş görüm,
Siyasətdə işin işə, nə dəxli?
Dişin dilə, dilin dişə, nə dəxli?

Siyasət də qumar kimi oyundu,
Udan keçi, udmayanlar qoyundu.
Udan uddu. Uduzmusan, toyundu,
O keçinin, bu qoyuna nə dəxli?
Bu oyunun, o oyuna, nə dəxli?

Bu millət sərçə kimi ütmüşəm,
Palıd kimi göbəyində bitmişəm.
Kimsə görər, bir gecədə itmişəm,
Kim itməyə, kimlər itə, nə dəxli?
Kim yem olub hansı itə, nə dəxli?

Od tökülür hər yetənin dilindən,
Min işlərin xəbərdarlıq birindən,
Əkdi Əli, aldı Vəli əlindən,

Bu Vəlinin, o Əliyə nə dəxli?
O dəlinin, bu dəliyə nə dəxli?

Bilənlərin çox az bilir, ən çoxu,
Çox dəriyə işləməyir söz oxu,
Baş ağrıdır dəyirmanın çax-çaxı,
Unun dənə, dənin una, nə dəxli?
Bunun ona, onun buna, nə dəxli?

Ağdı biri, bozdu biri günlərin,
Çəmən birdi, rəngi mindi güllərin,
Yanan mindi, rəngi birdi küllərin,
Bir çəməndə gülün gülə, nə dəxli?
Ocaq yanır, közün külə, nə dəxli?

*13.01.99*

## ÇAŞQINDI FİKİRLƏR

Gəlmiş cana el, sel kimi coşqundu fikirlər,
Bilmir hara getsin, elə çaşqındı fikirlər!

Millət bölünüb tayfalara, məhləyə, bəh, bəh,
Millət qırılır, tayfabaşı etmədə cəh-cəh,
Şeytan da baxıb ləzzət ilə çəkmədə qəh-qəh,
Gəlmiş cana el, sel kimi coşqundu fikirlər,
Bilmir hara getsin, elə çaşqındı fikirlər!

Qürbət sola, Əhməd sağa, Elmar dala səslər,
Yırtar qulağı, daş da dələr, ar qala səslər,
Salmış Vətəni, milləti haldan hala səslər,
Gəlmiş cana el, sel kimi coşqundu fikirlər,
Bilmir hara getsin, elə çaşqındı fikirlər!

Qaynar qazan imiş, necə gör daşdı bazarlar,
Meydan, küçələr oldu bazar, evdə bazar var,
Yandı ciyərim, halımı görsə kim, azarlar,
Gəlmiş cana el, sel kimi coşqundu fikirlər,
Bilmir hara getsin, elə çaşqındı fikirlər!

Dönmüş çox adam gic qoyuna, durduğu yerdə,
Bilmir necə düşmüş oyuna, durduğu yerdə,
Şeytan qamış ölçür boyuna, durduğu yerdə,
Gəlmiş cana el, sel kimi coşqundu fikirlər,
Bilmir hara getsin, elə çaşqındı fikirlər!

Əllər çalır əl. Kimlərə? bilmir özü əllər,
Gəlmir dilə başdan, desə tərif kimə dillər.
Yanmış əli, bilmir kimə versin əli, ellər,
Gəlmiş cana el, sel kimi coşqundu fikirlər,
Bilmir hara getsin, elə çaşqındı fikirlər!

Ağlar qaraya,-qara-deyir, qara bəyənmir,
Çıxmış gözünə çara deyir, çara bəyənmir,
Kimlər yaradır millət üçün, çara bəyənmir,
Gəlmiş cana el, sel kimi coşqundu fikirlər,
Bilmir hara getsin, elə çaşqındı fikirlər!

Düşmüş vətənin canına bitlər, vətən ağlar,
Gəlmir kara dərman, nə də bütlər, vətən ağlar,
Yurdu dağıdıb-sökmədə itlər, vətən ağlar,
Gəlmiş cana el, sel kimi coşqundu fikirlər,
Bilmir hara getsin, elə çaşqındı fikirlər!

*5 mart, 1999-cu il*

## YOXDU SÖZÜM DAŞ-BAŞINA MİLLƏTİN

Yoxdu sözüm daş-başına millətin,
Rüşvət atıb daş, başına millətin!

A millətə öndər olub, bilənçi,
Eyləmisən yurdu, eli dilənçi.
Yaxşı gündü bu günkü, ya dünənki?
Su qatmısan bozbaşına millətin,
Rüşvət atıb daş, başına millətin!

Zaman dönüb, əbləh elə umsunur,
Salam versə, qız atadan pul umur,
It sümüyün, görsə pəri pul, cumur,
Yoxdu sözüm daş-başına millətin,
Rüşvət atıb daş, başına millətin!

Hər dəlinin – vur! – deyəni var deyə,
Sahib olub bu ölkədə hər şeyə;
Torpaq atır, su çiləyir şöləyə,
Kül də atır göz-qaşına millətin,
Görməyə göz, hey qaşına millətin!

Başda duranlar daraşıb yardıma,
Pusqu qurublar bu işin ardına,
Qalsa, qalanlar dönəcək yurduna,
Doğra soğan, qat aşına millətin,
Şumla, nə var, ək başına millətin!

Gəlsə də yardım nə qədər, yoxdu, yox,
Ac elə acdır, yenə də toxdu tox.
Var daha bundan betəri eldə, qorx,

Balta verə el çaşına millətin,
Qüzey kimi hey aşına millətin!

Acları sübhdən ulaşır millətin,
Dərdi-səri başdan aşır millətin,
Dolub kasa, səbri daşır millətin,
Gözləmə, qəmdən yaşına millətin,
Verdiyi sözdən daşına millətin!
*2 iyun 1999-cu il*

## QURD LƏLƏ

Ay erməni, çox da ki, yazılmayıb şərtimiz,
Nəqd, nisyə, hörmətə az olmayıb şərtimiz,
Dərdin alem, incimə, pozulmayıb şərtimiz,
Hayım-küyüm ay axper, bir balaca səngiyər,
Pozulmaz əhdim, fəqət, bir balaca ləngiyər.

Seçdi məni, nəslinə etdi ata bu millət,
Nəşəsini bol etdim, bəlkə yata bu millət,
Yatmadı, gündən-günə etdi xəta bu millət,
Ay erməni, erməni, sən məni məndən alma,
Səbr edirəm xeyrinə, sən mənə əngəl olma!

Erməniyə güllə, daş atanları kül etdim,
Əllərinə əl verib, öpənləri gül etdim,
Kim ki, küsüb, inciyib, əzizləyib dil etdim,
Asta basıb, bərk kəsib, gör nə tufan etmişəm,
Bilməlisən, xeyli çox mətləbə mən yetmişəm.

Pul üstünə pul gəlir, sərvətimiz sellənir,
Qohumlarım, qardaşım, balım-balam şellənir.
Ip üstə yox, pul üstə körpə nəvəm yellənir,

Çoxdu pulum, sərvətim, ay erməni, neyləyim,
Yetişməyir vaxt, zaman əhdə vəfa eyləyim.

Salıb məni xəlvətə, hey sınama sən məni,
Yetirmədim kamına, çox qınama sən məni,
Az hədələ, vəlvələ sal canıma sən mənim,
Mən deyən olmayıb ki, sən deyəni etmirəm,
Hər havaya əl çalıb, hər oyuna getmirəm.

Bağışladım mən sənə gör nə qədər torpağı,
Kəlbəcəri etmişəm qollarına qolbağı,
Külli Azərbaycanı eyləmişəm pulqabı,
Pul mənim haqqımdısa, yer də sənin payındı,
Unutma, ay qurd lələ, kimsə sənin dayındı!

*25 avqust, 1999*

## BƏŞƏR, MƏHVƏ GEDİRSƏN

Yer kürəsi qazandı, Amerikalı çömçəsi,
Qarışdırır elləri, gülümsəyir çöhrəsi.
Müsəlmanı yun bilib əyirdikcə cəhrəsi;
Müsəlmanın qanından don biçilir canlara,
Barak baxıb zövq alır, gülür axan qanlara!

Bax, necə qan çağlayır Şərqdə bütün dağ, dərə,
«Tvist» gedir Fransa, şellənir İngiltərə.
Çox da zəfər görünmür, pay götürübdür hərə.
Bombalanır ölkələr, silkələnir Yer şarı,
Lovğalanır Yerdəki, gülür səbirlə Tanrı!

Haray çəkir, sızlayır zəlzələdən yaponlar;
İmtahandı, dərsdi bu, oyanmayır yatanlar.
Ümidlənir, kefdədi Şərqə tilov atanlar:

Dənizlənib nəfslər dünyanı boğmağ üçün, -
Tanrı silir insanı bir daha doğmaq üçün.

Yer kürəsi küllznir – alovlanıb zərrədən,
Hər yeri zülmət basır, xəbər yoxdu səhərdən.
Ağıl, baş da fırlanıb-nəşələnib zəhərdən,
Nərə çəkir zəlzələ, qopur Yerdə vəlvələ!
Bəşər, məhvə gedirsən şərlə verib əl-ələ!..

*28.03.11.*

## HAQQ SÖZ

Kimki düşməndir elə, öydürür eldə özünü,
Özünü öymək ilə pərdələyir el gözünü.

Hər kəsi hər kəs üçün mən daha artıq sevirəm,
Bu səbəbdən deyirəm aləmə Sabir sözünü.

Kim sevib rüşvəti, rüşvətlə çatıb arzusuna,
Əyridir, əyri bitib sevməz o, xalqın düzünü.

Gədələr meydan açıb çox qaraya ağ dedilər,
Ölmədik, çox gədənin rap-qara gördük üzünü.

Özgə yox, doğma paxıllar bəzəyir dahiləri,
Bəzə İskəndəri nadan, bükərsən söz dizini.

*28 may 2001.*

## ÇAĞIRIŞ

Birləşəyin! Birliyi möhkəm edək,
Zərbə vurub düşməni məhkum edək!

Bəsdi, didişmə Vətəni xar edib,
Yurdu satıb, ölkəmizi dar edib,
El qızını erməniyə yar edib,
Birləşəyin! Birliyi möhkəm edək,
Zərbə vurub düşməni məhkum edək!

Hər quduran-Mənəm!-deyib coşmasın,
El sözünü öz adına qoşmasın,
Qeyrət edib -Mən!- sözünü boşlasın,
Birləşəyin! Birliyi möhkəm edək,
Zərbə vurub düşməni məhkum edək!

Birdi vətən, paritya yüz-yüzdüsə,
El-deyir, el;-kim ürəyi düzdüsə,
Gəlsin önə! Kimlər əgər bizləsə,
Birləşəyin! Birliyi möhkəm edək,
Zərbə vurub düşməni məhkum edək!

Gəlsin oğullar, qız oğul qeyrətə,
Təslim olaq başda duran heyətə,
Zərbəni vur, düşməni sal heyrətə,
Birləşəyin! Birliyi möhkəm edək,
Zərbə vurub düşməni məhkum edək!

Bəsdir itirdik, qazanaq indi də,
Koroğlu, Babək dirilib dindi də,
Qardaş olub cəbhədə də, dində də,
Birləşəyin! Birliyi möhkəm edək,
Zərbə vurub düşməni məhkum edək!

Zarımasın kimsə, nə də inləsin,
Düşmənə qarşı ürəyin kinləsin,
Kimdə hünər var, səsimi dinləsin,

Birləşəyin! Birliyi möhkəm edək,
Zərbə vurub düşməni məhkum edək!

Uydu, uduzdu sizə el, Cəbhəçi,
Arxada yox, öndə gedir cəbhəçi.
Cırıldama ay nənmin cəhrəsi,
Birləşəyin! Birliyi möhkəm edək,
Zərbə vurub düşməni məhkum edək!

Alay-alay, dəstə-dəstə.
Hücum! Hücum! Düşmən üstə,
Biz hazırıq! VƏTƏN! VƏTƏN!
Təki bizdən sən can istə!

## CAVAB

Doğru deyən olsaydı, yalançı usanardı,
Avara qalanlar dəxi bir söz də qanardı!

**M.Ə.Sabir.**

Doğru dedim ustad, daha da qızdı yalançı.
Kəsdi yolumu, rişəmi də qazdı yalançı!

Sabitqədəm oldum nə qədər, saymadı millət,
İldən ilə haqqımda yalan yazdı yalançı!

Mən zillət içində gəzirəm, bəxtəvər olmuş, -
Açmış yanağı gül kimidi, yazmı yalançı?

Sən seç, ya da seçmə, seçilir hər yerə zalım,
Guyə bilici, həddən oyaq qazdı yalançı.

Meydan da onun, at da onun, meydana bax, bax,
Meydan dolanır, göz çıxarır, - tozdu yalançı.

Qanun yaza yüz alim əgər yüz günə, bir gün,
Aldı qələmi, bircə ana pozdu yalançı.

San ki, yalan ilə qurulub ölkədə millət,
Bax, bax, bu səbəbdən hamıdan sazdı yalançı.

*8 mart 2001.*

## MÜKAFAT

Bəh, bəh yığılır bir yerə tez-tez düz adamlar,
Görsün bu Vətəndə nə qədər düz adam var:
Əlli kişi varsa, görünür yüz də qadın var,
Hər kimdi min üzlü, ona ad-san da verilsin,
Pul azdı, mükafat təzə bostan da verilsin!

Şərti o deyil, kimdi görən əyrini əyri,
Şərti odu ki, kim verəcək kimlərə xeyri,
Kimlər edəcək kimlərə hardan, necə meyli,
Kim qonşudu, sırtıqdı, ad alsın, dilə düşsün,
Kim odludu, yansın oda, sönmüş külə düşsün!

Xidmət demə, hörmət gərək olsun ad alanda.
Alsın, bölə bilsin nə alıb köhnə dalanda,
Yoxdursa fərasət, qanacaq hər od olanda,
Almaz da mükafat yerinə adi saman da,
Çünki, qızılın rəngi var arpada, samanda!

Ölsün sənət eşqi, kimə nə kimdi Füzuli,
Sabir nə çəkib, ya kim idi ömrü uzunu?!
Kimlər yem edib şirlərə, Aslana quzunu,

Qüdrətdi, verin yağlı vəzifə, hünər etsin,
Ölsün sənət eşqi, kişilər kamına yetsin!

Əlbəttə, siyasətdi bu da, hiylə, kələk var,
At ağzına sevsən ovutu, amma külək var!
Sən doğru danış, bilki bunu, bir də kürək var,
Birdən kürüyərlər səni, səndən xəbər olmaz,
Dostlar demirəm, doğmaca qardaş xəbər almaz!

## SƏN

Nəfsinə qurban elədin milləti,
Üstünə yorğan elədin milləti,
Gəncliyə yarğan elədin milləti,
Keçilməz oldu keçilən yollarım,
Seçilməz oldu seçilən yollarım!

Qaçqın edib, köçkün edib elləri,
Taleinə küsgün edib elləri,
Niyyətinə kürsü edib elləri,
Səhnə bilib rol oynadın Vətəndə,
Oldun ocaq, su, qaynadın Vətəndə!

Siyasətin dahisisən sözüm yox,
Millət üçün ocağ çatan közün yox,
Çox hiylədə var əllərin, özün yox,
Cin nədi, şeytan da sənə qul idi,
İş də görən, özgə verən pul idi!

II

Erməni əllərində ələnmisən ay köpək,
Ermənıyə un qalıb, bizə gəreksiz kəpək,

O da yeyib-yağlanıb milәltә çırpır kötәk,
Sәn dayanıb baxmısan, gözlәrin döymüsәn,
Ürәkdә bu millәti, üzdә onu söymüsәn!..
*30.01.11.*

**BU ӘRKÖYÜN CӘBHӘÇİLӘR**

Tәlim alıb Fransadan, ABŞ-dan,
Bu millәti oyatdılar obaşdan,
Beşi burdan, on beşi dә o başdan,
Küylәdilәr, hayladılar millәti,
Hәr tәrәfә payladılar millәti!..

Azadlığın yolunda yol azdılar,
Külüng alıb xalqa quyu qazdılar,
Dahilәri nökәr kimi yozdular;
Bilmәdilәr kimdi gedәn, kim gәlir,
Ocaq sönür, od yerinә kül gәlir!

Kibrit kimi alışdılar, yandılar,
Yaxşı nә var, - Pisdi! Deyib dandılar.
Söz demәyin, xәtadılar, qandılar;
Harda inam, harda işıq gördülәr,
Daş gәtirib qarşısını hördülәr!..

Kimdәdi pul? İylәdilәr, tapdılar,
Zorladılar, tovladılar, qapdılar.
Doğma deyil, özgәdilәr, yaddılar;
Bir fikiri yüz tәrәfә çәkdilәr,
Zülmәt olub mәmlәkәtә çökdülәr!..

Ölәnlәri yamanlayıb söydülәr,
Qalanları qapazlayıb döydülәr,

Çıraqçını, motalçını öydülər;
Parçalayıb çox şəhəri, bölgəni,
Bir xoruza yük etdilər ölkəni!...

Yamsılayıb Klintonu, Reyqanı,
Millət oldu yad əllərin heyranı!
Haray çəkib çağırdılar hər yanı;
Dahimizə dodaq büzüb güldülər,
Bağırdılar: - Ocaqdakı küldülər!..

El elə bil göydə qısır buluddu,
Guruldadı, yağmağını unutdu.
Vədə topun o tulladı, bu tutdu;
Hap-gop ilə qaraldı ağ kağızlar,
Açıq qaldı ümid güdən ağızlar!..

Gec anladıq, cəbhəçilər küy idi,
Əbülfəzlər bişməmişdi, çiy idi,
Ələkçinin qıl vərəni kim idi?
Kimlər idi eldə yolu çəplədi,
Ruhumuzu alver ilə köklədi?!..

Bulanmışıq, durulmarıq bir də biz,
Bilindi ki, kimlər imiş «dahimiz!»
Ovçu kimdi? Tülkü kimdi? Ahu biz,
Ovlanırıq «dahilərin» ucundan,
Kim tox olur, kimlər ölür acından!?

Sağ olsaydı Seyid Əzim Şirvani,
Göstərərdi tülkü hanı, şir hanı.
Heyvərələr taladılar Şirvanı,
Yurdumuzu yaman günə saldılar,
El ağladı, zurna-qaval çaldılar!..

*Sentyabr, 1993*

## EL GÖRÜR

Dildə – «Demokratiya!», «Azadlıq!» Dedin,
Çöldə nökər, evdə ac olduq! Dedin,
Xalqı qırıb – Vay! Vay! Azaldıq! Dedin.
Astarın üzdü, bunu, bu el görür,
Əyridi, düzdü kim, onu el görür!

Abrı atıb, vicdanı dondurmusan,
Badənə də el qanı doldurmusan,
Olmayanı, zor ilə oldurmusn,
Astarın üzdü, bunu bu el görür,
Əyridi, düzdü kim, onu el görür!

El səni gözdən salacaq ay kişi,
Daş divara bərk sıxacaq ay kişi,
Qəlbinə millər soxacaq, ay kişi,
Astarın üzdü, bunu bu el görür,
Əyridi, düzdü kim, onu el görür!

*14 iyun 1992*

***

Şeytana uyduq, buladıq cənnəti,
Keçmədi Allah; - yaladıq cənnəti,
Göz yaşımızla suladıq cənnəti,
Biz beləyik bu dünyada əzəldən
Qorxmamışıq Əzraildan, əcəldən!..

*Sentyabr, 1993*

## BİLİNMƏYİR

Zatı qırıqsan, tfu saqqalına,
Dönmüsən ac, bic meşə çaqqalına,
Salmısan iştah köpəyin yalına;
Bilinməyir, sən nəçisən, sən nəsən,
Heykəl adam, yoxsa kələk, fitnəsən?!

Vermisən artıq vətəni düşmənə,
İstəmisən güllədə tuş düşməyə,
Qıymamısan düşməni el döşləyə;
Bilinməyir, sən nəçisən, sən nəsən,
Heykəl adam, yoxsa kələk, fitnəsən?!

Ay gözü çıxmış, üzü astar, padoş,
Burnu xiyar, ağzı cırılmış qaloş,
Qəlbi qara, vicdanı yox, əqli boş,
Bilinməyir, sən nəçisən, sən nəsən,
Heykəl adam, yoxsa kələk, fitnəsən?!

Ürəkdə yadla, biz ilə üzgəsən,
Cəsur kimi guya hələ bizləsən.
Noxtalarıq, düşsən ələ bir də sən;
Bilinməyir, sən nəçisən, sən nəsən,
Heykəl adam, yoxsa kələk, fitnəsən?!

Olsun haramın vətənin neməti,
Gör nə  günə saldın axır Neməti,
Qanlı yaş oldu gözünün heyrəti;
Bilinməyir, sən nəçisən, sən nəsən,
Heykəl adam, yoxsa kələk, fitnəsən?!

Kim deyəcək doğru sözü millətə,
Düşməyəcək bir də bu el zillətə,

Yurdu atıb getməyəcək zülmətə;
Gəl vətən oğlu, beləsi, hardasan?
Sən gələcəksən, hələlik dardasan!
Həsrət ilə el gözü yol gözləyir,
Tez gəl oğul, gəl ki, ürək dözməyir!

*4 avqust 1993*

## DEMOKRATİYA AŞI

Yaxşı günə yaxşı təpik atdılar,
Yaxşını da zorla pisə qatdılar,
Hay-küy ilə milləti aldatdılar;
Daddı bu aşdan elə ki, hər yetən,
Azdı bu millət, oda düşdü vətən!

Olmasa da sonrası nadanlığın,
Güclü imiş zorbası nadanlığın.
Doldu yaman torbası nadanlığın;
Daddı bu aşdan elə ki, hər yetən,
Azdı bu millət, oda düşdü vətən!

Çox təkəsaqqal yeridi şəst ilə ,
Milləti yıxdı, sürüdü qəsd ilə,
El tora düşdü baş-ayaq dərs ilə;
Daddı bu aşdan elə ki, hər yetən,
Azdı bu millət, oda düşdü vətən!

Hər küçədə, məhlədə bir partiya
İstəyir atom ola, tez partlaya.
Kim tutacaq üz zavoda, tarlaya;
Daddı bu aşdan elə ki, hər yetən,
Azdı bu millət, oda düşdü vətən!

İş ki düşüb eldə yatan rəhbərə,
Get başını vur divara, qəmbərə,
Milləti böl, yurdu, eli qəlpələ,
Daddı bu aşdan elə ki, hər yetən,
Azdı bu millət, oda düşdü vətən!

Oldu siyasət dəlisi körpə də,
Kəsdi yolu dar küçədə, körpüdə,
Hikkələnib bəzi gəda köpdü də;
Daddı bu aşdan elə ki, hər yetən
Azdı bu millət, oda düşdü vətən!

*3 avqust 1993*

**BÖHTANQULU**

Fahişənin dilində
Mərd kişi namərd olar.
Düşər güllə ağzına
Millət üçün dərd olar.

Bax özünə, bax mənə,
Gülmə, qumarbaz kişi.
Uyub sən də şayiəyə,
Hürmə, qumarbaz kişi.

Nəşəlisən, gözlərin
Əyri görür düzləri.
Şərəfsizə aldanıb
Qeyri görür bizləri.

Cik-cik elə sərçətək,
Qarılda qarğa kimi.

Sən dediyin şayiələr
Dağıldı qorğa kimi.

Mən! Mən! deyib, ay kişi,
Oynama insan ilə.
Qorğa cücərməz, yüz il
Suvarsalar qan ilə.

Bilmə bütün vətəndə
Milləti naşı kimi.
Pisləri tərifləyib,
Tanıtma yaxşı kimi.

Faydası yox, qaynasın
Ürəyində qəzəb, kin.
Tanrı bilir mən kiməm,
Sən kimi nadan  da kim.

Tanrı bilir bülluram,
Yoxdu günahım mənim.
Kül eləyər bəxtini
Gündəlik ahım mənim.

Sığınmışam Allaha,
Qüdrətimi el bilir.
Sən dediyin böhtanı,
Millətimiz yel bilir.

Hey dolanıb başına,
Yaltaq olan yallanır.
- Ye! Desən, ifrazatı,
Yeyir, gülür, hallanır.

İşləməyir başın da,
Nəşə pozub, kallanıb.
El də bilir, başında,
Ağıl yoxdu, kollanıb.

Kolluğa nur düşməyir,
Tülkü qaçıb gizlənir.
Kolluq olan başların
Fəlakəti gözlənir...

Arxalanma yaltağa,
Arxaya paz vurandı,.
Səhv eləmir heç biri,
Ustadı, saz vurandı.

Alovlanıb belində
Samandan eşşək çulu.
Dur, ağılın varsa, tez
Qaç gölə böhtanqulu.

Tanrı bilir! Kim bilir
Sənmi, mənmi günahkar.
Sən haqqa, mən böhtana,
Bu dünyada karıq, kar.

Söz heykəli yonmadım,
El içində yalandan.
Allahım qisas alır
Məndən qisas alandan.

*24.03.05.*

## ÇƏKMƏRƏM ƏL KÜRSÜDƏN

*(Dəhşət odur ki, XXI əsrdə də əsasən müsəlman ölkələrində hakimiyyətə gələnlər ömürlük və nəsillikcə zorla da olsa hakimiyyətdə qalmağa çalışırlar. Hakimiyyət onlar üçün həyat amilinə dönür. Divin canı şüşədə, onların canı kürsüdə olur!)*

Damarlarım paslanıb, qan daha qovmur ürək,
Mədə də əldən düşüb həzm eləmir ət, çörək.
Can üşüyür, dözməyir, əssə də sakit külək,
Şimşək olub göydə yox, kürsüdə çaxsın canım,
Çəkmərəm əl kürsüdən, kürsüdə çıxsın canım!

Kürsüdə çağlar çayam, bitməyəcək söhbətim,
Əl çalınır, yüksəlir sürət ilə şöhrətim,
Çox da ki, çox görmüşəm baxışların heyrətin,
Şimşək olub göydə yox, kürsüdə çaxsın canım,
Çəkmərəm əl kürsüdən, kürsüdə çıxsın canım!

Olsam ölü, çatdırın, kürsü dirildər məni,
Əl eləyin, göstərin, görsə, dirildər məni,
Kürsü qoyun qəbrimə, gəlsə, dirildər məni,
Şimşək olub göydə yox, kürsüdə çaxsın canım,
Çəkmərəm əl kürsüdən, kürsüdə çıxsın canım!

Mən nəçiyəm kürsüsüz, kimdi sevən, kim gəzər?
Getsəm hara, ruhumu kin izləyər, kin gəzər,
«- Sözüm, gözüm – deyənlər gül istəməz, kül gəzər,
Şimşək olub göydə yox, kürsüdə çaxsın canım,
Çəkmərəm əl kürsüdən, kürsüdə çıxsın canım!

Kürsü ki var, görməyən nə anlayır kürsü nə?
Görsə onu, çəkməz əl, gündə çıxar köksünə,
Nallayaram övladı çıxsa əgər əksimə,

Çəkmərəm əl kürsüdən, kürsüdə çaxsın canım,
Bu el,Vətən cəhənnəm, kürsüdə çıxsın canım!

Çoxlarını kül etdim, kübrə yesin ölkəmiz,
Azlarını gül etdim, ətirlənə kölgəmiz,
Çoxalsın, artsın deyə ölkə sökən cərgəmiz,
Şimşək olub göydə yox, kürsüdə çaxsın canım,
Çəkmərəm əl kürsüdən, kürsüdə çıxsın canım!

Xalqı necə minmişəm, ağıl gərək dərkinə,
Övladımı, dostumu oturtmuşam tərkimə.
Mən olmasam, millətin çarxı dönər tərsinə,
Şimşək olub göydə yox, kürsüdə çaxsın canım,
Çəkmərəm əl kürsüdən, kürsüdə çıxsın canım!

*May, 2003*

## HƏŞƏRATLAR

I

Bəh, bəh yetişir hörmətə hər gün həşəratlar,
Bəh, bəh, daraşır millətə hər cür həşəratlar!

Rüşvətləri dəryazla biçirlər gecə-gündüz,
Millət yekə dəryadı, keçirlər gecə-gündüz,
Gah Parisə, gah Kiprə köçürlər gecə-gündüz,
Milyard yesələr də yenə doymaz həşəratlar,
Bu xalqı, eli bir kərə duymaz həşəratlar!

Qat-qat ucalan evləri istər Aya çatsın,
Pul! Pul elə artsın, sayı saymaz saya çatsın,
Sərvət sel olub Nil kimi coşqun çaya çatsın,
Xalqı gah ayı, gah cin edirlər həşəratlar,
Xalqın malını çin-çin edirlər həşəratlar!

Sərvət həya ilə qoşa düşməndir əzəldən,
Keçməz manatından, min işi keçsə əcəldən,
Baş açmaz o əsla nə şeirdən, nə qəzəldən,
Sərvət alıb ağlın, sözü qanmaz həşəratlar,
Daşdan key olublar, elə yanmaz həşəratlar!

II

Əzizi, sevgilisi bir qara itdir, ya pişik,
Bürünüb it qumaşa, bərq vurur ağzındakı diş,
Qohum acdır, yeyir itlər kababı bağçada şiş-şiş,
İtə, hərdən pişiyə meyl eləyirlər həşəratlar,
Pul üçün, sərvət üçün neyləməyirlər həşəratlar?!

Hərə bir falçı ilə ülfət edib iş aparır,
Qapır ağzımdan əti, olmasa ət, diş qoparır,
At otarmış o zaman, indi də eşşək otarır,
Nəyi görsə udacaq, kit kimidirlər həşəratlar,
Deyə bilməz sözünü, küt kimidirlər həşəratlar!

Eh, nəçidir, kimdir özü, hər kişi bilmir özü nə,
Bax, bayılıb! Dərman edirlər, gələ bilmir özünə,
Duracaq, dərmanı puldur, pulu sürtün gözünə,
Demə insan, həşərattək yaşayırlar həşəratlar,
Yuvya isti peyinlər daşıyırlar həşəratlar!

Ölən ölsə, yenə də təzə cavanlar yetişir ki,
Ürəyi, fikri, sözü, təbi rəvanlar yetişir ki,
Bəşəri eşmək üçün fikri yavanlar yetişir ki,
Leş ediblər bəşəri, leydi, çökürlər həşəratlar,
Bəhə-bəhlə girişib yurdu sökürlər həşəratlar!

Hərəsi bir cürə cındır, ya da cindar həşəratlar,
Siləcəklər... zövq ilə cındır həşəratlar.

*10-18.08.03.*

## BAŞÇILAR

*Bu da tarixdi əzizim, var onun xeyri bizə,*
*Var gücün hər nə qədər, xidmət elə şeirimizə!*

Gündə biri meydan açıb cəng edir,
Gah İvana, gah Harikə zəng edir.
Haray salıb baş-qulağı dəng edir
Hay-küyü çox, qeyrəti yox başçılar,
Dərk eləsən, göz qaralar, baş sınar!

Ermənıyə fit püləyir çoxları,
Etmir əsər erməniyə xoxları.
Öldü kasıb, şad elədi toxları,
Hay-küyü çox, qeyrəti yox başçılar,
Dərk eləsən, göz qaralar, baş sınar!

Dava-dalaş meydanına baş qoyub,
Çox təmələ – sevgi ilə daş qoyub,
Hər ocağa gah quru, gah yaş qoyub
Hay-küyü çox, qeyrəti yox başçılar,
Dərk eləsən, göz qaralar, baş sınar!

İtdi ümid, qaldı güman kimlərə?
Kimdi qovan, kimdi cuman kimlərə?
Millətə yox, verdi aman kimlərə
Hay-küyü çox, qeyrəti yox başçılar,
Dərk eləsən, göz qaralar, baş sınar!

Xalqın adın bayraq edir hər yetən,
Vədə verir, özün tutur dağla tən.
Saldı səni gör nə günə, ey Vətən,
Hay-küyü çox, qeyrəti yox başçılar,
Dərk eləsən, göz qaralar, baş sınar!

Axşama düşdük nə yaman yerdə gör,
Bu ölümü eldən əsən yeldə gör,
Milləti saldı nə yaman dərdə gör,
Hay-küyü çox, qeyrəti yox başçılar,
Dərk eləsən, göz qaralar, baş sınar!

Üzdə mələk, daxili şeytan bala,
Çəkmə əmək, qatma zəhər sən bala,
Var nə qədər, çox gələcək dərd, bəla,
Hay-küyü çox, qeyrəti yox başçılar,
Dərk eləsən, göz qaralar, baş sınar!

*Avqust, 1993*

## SƏNİN BALAN, MƏNİM BALAM

Sənin balan harındır, qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

Böyük, kiçik bilməyir, - ağnayır eşşək kimi,
Söz deməmiş anqırır, - çağlayır eşşək kimi.
Ağlı atıb, qarnını saxlayır eşşək kimi,
Sənin balan harındır qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

Sənin balan adamdı, mənim balam bəs nədi?
Millət-haray!.. deyəndə, sənin balan əsnədi.
Keçdi canından balam, sənin balan keçmədi,
Restoranda keflənib qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

Ölkə bizimdir! Niyə kimsə acdı, kimsə tox?
Mənim çörək pulum yox, sənin pulun çoxdu, çox.
Səndə ağıl çoxdu, çox, bizdə ağıl yoxdu, yox?

Nədən balan harındır qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

Boynumuzda oturtma gülməşəkər oğlunu,
Əsli qamışdır, kişi, bilmə şəkər oğlunu,
Yarışsa quş, qarışqa, ağlı çəkər oğlunu,
Nədən belə harındır,qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

Elinkidi sərvətin əsla deyil ağıldan,
Qıyma elə, qardaşa, əsirgəmə oğuldan,
Söylə görüm el oğlu, nədən, niyə, doğrudan,
Sənin balan harındır, qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

Sərvətin arta-arta abrın itib üzündə,
Yox xəbərin; tülkülük-hiylə bitib üzündə,
Hiylə ilə yamanlıq vəslə yetib üzündə,
Balan baxıb dərs alır qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

Nə vaxtan ki, səhərlər səninlə başlanıbdır;
Şor yeməklə mədəmiz gön kimi aşlanıbdır,
Yaman günə düşmüşük – ölkə də xışlanıbdır,
Balan baxıb zövq alır, qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

Ölən deyil, top atma həqiqətin dalınca,
Mənim balam xəstədi – qida yemir doyunca,
Söz utanır yanımda həqiqəti duyunca;
Sənin balan harındır qudurmuş itlər kimi,
Gəzir yağlı maşında, daşdır o, kütlər kimi!

*17 may 2001*

## ŞEYTANIN OYUNU

Gördüm yanır  el, kənd və şəhər, könlüm açıldı,
Güldüm o qədər, millətimiz yüz-yüz asıldı,
Yüz kənd yığılıb bir yerə, bir kəndə qısıldı,
Bildim ki, daha yol qısalıb, kürsü mənimdi,
Tilsimdə qalan, tilsim açan güzgü mənimdi.

Doğru deyəni, iş biləni hay-küyə saldım,
Çəkdim, qanana nifrətimi qeyz ilə çaldım,
Düşdü yerə taxtdan, sevinib kamımı aldım,
Bildim ki, daha yol qısalıb, kürsü mənimdi,
Tilsimdə qalan, tilsim açan güzgü mənimdi.

Tutdum kimə üz, baxdı mənə mənalı, sözlü,
- Əmr et, saman altından axaq hər yerə gizli,
Nə? Nə? Azarıq? Sən nə deyirsən? Bu necə sözdü?
Bildim ki, daha yol qısalıb, kürsü mənimdi,
Tilsimdə qalan, tilsim açan güzgü mənimdi.

Getdi Xocavənd, yüz belə kəndlə Qarabağlı,
Yetdi dığalar, tutmadığı yer hara qaldı?
Atdı vətəni, oldu oyuncaq qarabağlı,
Bildim ki, daha yol qısalıb, kürsü mənimdi,
Tilsimdə qalan, tilsim açan güzgü mənimdi.

Girdim əməli sazişə Ter Petrosiyanla,
- «Bax, verdiyimi qaytaracaqsan, məni anla»,
Hardan bilə idim bitəcək iş belə sonla?
Ağlım dirənib durdu üzə: - şeytana taysan,
Verdin bu eli, yurdu yelə, gör necə zaysan!

Söz verdim elə: - «Verdiyimi tez geri allam»,
- Girmişsə donuz, heyrət ilə el dedi: - ay xam,

Çıxmaz darıdan, it nə qədər etsə də – ham, ham!
Ağlım dirənib durdu üzə: - şeytana taysan,
Verdin bu eli, yurdu yelə, gör necə zaysan!

Zənd etdim – əgər başda mən olsam keçər hiyləm,
Yüz hiylə, kələk olsa, onu tez kəsər hiyləm,
Mən bilməz idim Vazgeni görcək əsər hiyləm,
Ağlım dirənib durdu üzə: - şeytana taysan,
Verdin bu eli, yurdu yelə, gör necə zaysan!

Bezmiş, utanır ölkədə tərifçilərim də,
Gizlincə yatır kölgədə tərifçilərim də,
Yoxdur daha çox bölgədə tərifçilərim də,
Ağlım dirənib durdu üzə: - şeytana taysan,
Verdin bu eli, yurdu yelə, gör necə zaysan!

Ah, ah, bu Qoçaryan bala, məndən də bic imiş,
Bu erməni haqda deyilən doğru, düz imiş,
Tülkü nədi ki, meydan açan zorba güc imiş,
Ağlım dirənib durdu üzə: - şeytana taysan,
Verdin bu eli, yurdu yelə, gör necə zaysan!

Avropa edib əldə oyuncaq məni indi,
Bill, Buş, nə bilim Jak Şirak ovsarladı mindi,
Susmuşdu, qəzəblə qaya, torpaq belə dindi,
Ağlım dirənib durdu üzə: - şeytana taysan,
Verdin bu eli, yurdu yelə, gör necə zaysan!

Ter-Petresyan - Ermənistan prezidenti
Bill, Buş – ABŞ prezidentləri
Jak Şirak – Fransa prezidenti

*11 mart 2001*

## ÖLKƏ CƏHƏNNƏMDİ DƏDƏ, MƏRD ÜÇÜN

Bir neçə nadan verərək əl-ələ,
Hay elədi, huy elədi hər elə,
Ağ günü verdik beləcə gur selə,
Dövr eləmir indi təkər xeyrinə,
Gecdi, alış, döy başına, xeyri nə?

Rəhbərimiz mərdi, düzü saymayır,
Qanda kimin var mütilik, haylayır,
El pulunu öz pulutək paylayır,
Qansa kim artıq, kəsilir ruzusu,
Qönçələmir, yolda solur arzusu.

Uzatdım əl, vermədilər əl mənə,
- Afərin! Əhsən də – dedi el mənə,
Bağrı başında elədi yer mənə,
Bildi ki, kimdir canavar, elsevər,
Dişləməyi, çeynəməyi qurd sevər!

Dünyada yoxdur belə dilsiz bir ər;
Nəfsi, siyasət tələb etsə əgər
Bir darıya ölkəni qurban verər,
- Kimdi bu məlun – deyib hay-küy salar,
Doğrulara, düzlərə quyruq calar.

Güclüdü çox, yaltaq adam ordusu,
Qəsd eləyir cana "madam" ordusu,
Bax, talayır yurdu tamam ordusu,
Alim adamlar cır olur, tullanır,
Nadan adamlar ucalır, pullanır.

Nadanı nadan yetirir yurd üçün,
Yağlı qoyunlar yetirir qurd üçün.
Ölkə cəhənnəmdi dədə, mərd üçün,
Şairi baxdıqca, yeyir dərd onu,
Tanrı, eşit, dərdimin olsun sonu.

Tərif elə, sən də tala yurdunu,
Mələk, ya da qılman elə qurdunu,
Erməni qırsn iki-bir ordunu,
Sən qala tikdir, pulu yığ çinbəçin,
Vermə pulu, ver, canını gəlsə cin.

Arxalı kəslər qudurub dik gəzir,
Qurd yerinə, dahini vermiş nəzir.
Bu quzu millət, yesə də qəm, dözür,
Bəsdi daha dözmə belə, millətim,
Qalx ayağa, çıx sonuna zülmətin.

*15.12.02.*

## MİLLƏT AĞISI

Verilib düşmənə torpaqlarımız, daşlarımız,
Başların boşluğudur çəkdi bəla başlarımz!

Qəmi gözdən-gözə sağmış bu qara qaşlarımız,
Qurumur, çağlayacaq dərdə hələ yaşlarımız
Dəmə doyduq, götürüldük, yeyilib aşlarımız,
Sızlayır yara kimi torpağımız, daşlarımız,
Başların boşluğudur çəkdi bəla başlarımız!

Hünərin eşqi ilə hər şeyə qurban gedirik,
Az imiş millətimiz, dünyanı heyran edirik,
Nə ki evdə, küçədə, cibdə də düşmən güdürük,
Verilib düşmənə torpaqlarımız, daşlarımız,
Başların boşluğudur çəkdi bəla başlarımz!

Verilib nadana hər şey, o da meydanlar açır,
Cibi doymur, nə qədər pul yesə də tezdən acır,
Təpik altında qoyur milləti pulgaha qaçır,
Sızlayır yara kimi torpağımız, daşlarımız,
Başların boşluğudur çəkdi bəla başlarımız!

Harın olduq, təpik atdıq açılan süfrələrə,
Cumduq iştah ilə bəhrəsi yox cümlələrə,
Sürüləndik quzu olduq o çoban zümrələrə,
- Quzu şişlikdi! – deyir gəlmə «vətəndaşlarımız»
Başların boşluğudur çəkdi bəla başlarımız!

Satılıb dağda meşə, çöldə üzümlük yerimiz,
Seyid Əzim cürət ilə çıxdı qəbirdən dedi: – Siz,
- Ona qurbandı! – deyin, həm ölümüz, həm dirimiz,
Baş kəsib, baş verərik, çatmasa torpaq, daşımız.
Başların boşluğudur çəkdi bəla başlarımız!

Nadanı dahi edib yer üzünə car elədik,
Damladı gözdə yaşı, ağladıb el, çay elədik.
Nəyimiz vardısa yaxşı, çevirib zay elədik,
Aparır sərçəni də qışda gedən quşlarımız,
Ox atıb oxlayırıq, yay kimidi qaşlarımız!

Yadların quyruğuyuq istəsə hər cür bulayar,
Oxşayar körpə kimi, sonra da yurdu talayar,
Görməsək ingilisi nəfsimiz ittək ulayar,
Qurumur ki, qurumur, yaşdı hələ yaşlarımız,
Boş başın boşluğudu çəkdi bəla başlarımız!

Əsrimn övladıyam əsrimə ayna tuturam,
İmzasız yazmayıram, hər sözə imza atıram,
Qanım Allah qanıdır! Mən nə köşək, nə qatıram,

Allahın hökmü ilə dərdlərə dərman yazıram,
Yerdə Sabirlik edib nadana fərman yazıram!
*15.12.04.*

**Tanrı, bizi susdurmaq ilə lal edəcəksən**

Tanrı, bizi susdurmaq ilə, lal edəcəksən?!
Üç-dörd ilə ağzında küləş mal edəcəksən?!

Neyçün bizi atmış, unudub yad eləmirsən?
Millətlər içində bizi də şad eləmirsən?
Qalmış duluq evdə, kiməsə ad eləmirsən!
Yoxsa, bizi susdurmaq ilə, lal edəcəksən?!
Üç-dörd ilə ağzında küləş mal edəcəksən?!

Harda olur olsun, yadı dəstəkləyirik biz,
Hər kim desə -Qurdam!- quzu tək bəsləklərik biz,
Yanğın kül olub söndü, durub  əsnəyirik biz,
Sanma, bizi susdurmaq ilə, lal edəcəksən!
Üç-dörd ilə ağzında küləş mal edəcəksən?!

Kim başdı, ona arxada quyruq kimiyik, bəh,
Soncuqlasa yadlar, bunu buyruq bilirik, bəh,
Odsuz, oda yanmış neçə Sabir külüyük, bəh,
Tanrı, bizi susdurmaq ilə, lal edəcəksən?!
Üç-dörd ilə ağzında küləş mal edəcəksən?!

Bir vaxt urus idik, oluruq ingilis indi,
Vay, vay, necə pismiş bu urus, indi bilindi,
"Qud bay"! Sözə bax, gir qoluna, tazə gəlindi
Tanrı, bizi susdurmaq ilə, lal edəcəksən?
Üç-dörd ilə ağzında küləş mal edəcəksən?!
*29.09.03.*

## ÖLƏNLƏRƏ SƏS VERƏK

Ölkədə meydan coşur, it yiyəsin axtarır,
Bıçaq düşüb kəsərdən, küt tiyəsin axtarır.
Sual qalıb cavabsız, el niyəsin axtarır,
Ölənlərə səs verə, qalanlara bilmir el,
Gah ağlayır, gah gülür, laldı nədi, dinmir el?!

Qəssabı piy hayında, eldə keçi can verir,
İşləməyir damarlar, kütlər ona qan verir.
Kimsə verir xoş xəbər, birdən həyəcan verir,
Ölənlərə səs verə, qalanlara bilmir el,
Gah ağlayır, gah gülür, laldı nədi, dinmir el!

Xəbər gəlir qəfildən, qırıldaşır qarğalar,
Yaman düşüb təşvişə quruldaşır darğalar.
Aşıb-daşır yalanlar, tüğyan edir  oğrular,
Ölənlərə səs verə, qalanlara bilmir el,
Gah ağlayır, gah gülür, laldı nədi, dinmir el?!

Üfürməyin gopları, partlayacaq bombatək,
Yedirtməyin gopları adamlara dolmatək,
Ay – haqq! - deyib hayqıran, qoşul bizə, qalma tək,
Dahiləri çərlədək, ölənlərə səs verək,
Bu ölkəni, milləti bölənlərə səs verək!

Özlərini gör necə dahi adam bilirlər,
Ölkədəki milləti nadan, avam bilirlər,
- Yaxşı - deyib, pislərə, yaxşı davam bilirlər,
Dahiləri çərlədək, ölənlərə səs verək,
Bu ölkəni, milləti bölənlərə səs verək!

Neyləyirik səsləyək, kimlərisə bəsləyək,
Gəlin, gedək, Misirdən köhnə ölü səsləyək,

Kürsümüzə əylədib hər nə desə, - hə - deyək,
Ölməliyik, ölmüşük, fərmanı versin ölü,
Bəlkə bir az dirildik, Misirdən aldıq dölü!

Viran qalıb ölkəmiz, tapılmayır bir diri,
- Mənəm! - deyib meydana atılmayır bir diri,
Ruhu ölüb! Seçkiyə qatılmayır bir diri,
Ay bərəkallah, görün biz nə gözəl millətik,
Alışmışıq, sönmüşük, indi tamam illətik!

Toyuqlarıq, banlarıq, xoruzları yanlarıq,
Doğmaların halına bir gilə də yanmarıq.
Donuz kimi yağlanar, şaxta gələ, donmarıq,
Ay bərəkallah bizə, ölkə bata, dinmərik,
Kim diridi ölkədə, kimdir ölü, bilmərik!

Yeyib, içib, keflənib hey yatarıq ölkədə,
Zər oynadıb, nərd ilə baş qatarıq kölgədə.
Gəzmə Yeri, tapılmaz hər ölkədə bəlkə də
Bizim kimi hünərvər! Ölkə bata, dinmərik,
Kim diridi ölkədə, kimdir ölü, bilmərik!

Utan, çəkin ay kişi, üzündə olsun həyan,
Kimlərə səs verirsən, düşün bir az, bir dayan.
Xəstəmisən, xəstəyə səs verəsən, dur, oyan,
Tərk elə sən, nadanı gətirməyi kürsüyə,
Yad incisin, eybi yox, gözlə Vətən küsməyə!

Dərddi məni dindirən,
Kimlərəsə güldürən.
Qalx, özünü dərk elə,
Daş yuxunu tərk elə!
Qorxu xofundan çıxıb,
Nifrətini sıx, sıxıb,

Çax üstünə, çax, çaxıb,
Kül elə şimşək kimi,
Yalan yazan hakimi!

Ay ziyalı, göy satan, çəkməsilən, çəkməçi,
Meydana gəl, fikrini sən kənara çəkmə ki,
De fikrini, arzunu, daldalanıb çökmə ki,
Kama yetişsin vətən, məqsədə yetsin yetən,
Ölkələrin, ellərin önündə getsin vətən!

*26.07.03.*

## BU BƏŞƏR

Yadı dahi bilir, özünü nökər,
Toxdu – acam – deyib, göz yaşı tökər.
Qabağa gedəni geriyə çəkər,
Bir dahi, min nadan yetirib, Allah.
Bu bəşər başını itirib, Allah!

Başı yuxu görür, qarnı kefdədi,
Fikri, düşüncəsi, əli nəfdədi.
Qıfıl saxlamayan çürük cəftədi,
Xalqları kim hardan gətirib, Allah?
Bu bəşər başını itirib, Allah!

Bu dünya çoxunun deyil eyninə,
Vətəni əyirib geyir əyninə,
Şeytanlar, iblilslər dolub beyninə,
Bilmir dahi ölüb, it ölüb, Allah!
Bu bəşər başını itirib, Allah!

Qalxmırıq, enirik hər ay, ay Allah!
Didişib, edirik ah-vay, ay Allah!
Oyat, çalma bizə lay-lay, ay Allah!

Kimlərdə nə pis var, götürüb, Allah,
Bu bəşər başını itirib, Allah!

Misdən qazandılar, - dibləri paxır,
Papağın götürsən, üfünət qalxır,
Artır sürü-sürü, hey naxır-naxır,
Ruhunu kim soyub, öldürüb, Allah!
Bu bəşər başını itirib, Allah!

Niyə paralanıb, pərən-pərəndi?
Odamı, bu Yerə sən göndərəndi?
Günahkar onunmu, mənim dədəmdi?
Kimdi bizi bölüb, böldürüb, Allah?
Kimlər qardaşını öldürüb, Allah!

Göydələn göyü yox, könlümü dəlir,
Baxıram boyuna, üstümə gəlir.
Çox şükür, kasıba kölgəsin sərir,
Acların toxları tərpədib, Allah!
Bu bəşər başını itirib, Allah!

İnsanın nadirdi, gəzmə, tapılmaz,
Paslı tüfəng kimi, dərdə atılmaz,
Desən – dünya yanır! Qaşı çatılmaz,
Başı var idimi, itirib, Allah?
Səni də cəzana gətirib, Allah!

*11.05.08.*

## HARA GEDİRSƏN YAZIQ

Hara gedirsən, yazıq;
Canavarlar, çaqqallar,
Dörd yanını bürüyüb,

Ayağının altını
Külüngləyib, kürüyüb!

Hara gedirsən, yazıq;
Külək belə əsirsə
Oğut yemək olarmı?
Düşmən içindədirsə,
- Qorxut! – demək olarmı?

Hara gedirsən, yazıq;
Öyə-öyə çəkiblər,
Uçrumun qaşındasan.
Düşmən deyir: - Necəsən?
Sən mənim qarşımdasan.

Hara gedirsən, yazıq;
Üfürülmüş şar üstə,
Elə bil ki, pələngsən.
Qorxulusan, qoxursan
Gülləsi yox tüfəngsən.

Hara gedirsən, yazıq;
Ağıllı başla, eldə
Nadan futbol oynayır.
El məhkum, rüşvət hakim,
Rüşvət yığır doymayır.

Hara gedirsən, yazıq;
Ağıllı – Dur! Deyincə,
Dəlilər vətən satır.
Ha qışqırım, hay salım,
Harayım hara çatır?

Hara gedirsən, yazıq;
Dövləti, eli, yurdu
Qohumlar, yerlilər yox,
Ağıllı baş qoruyar.
Eşşəyin quyruğuna
Qoşma dəvə, qorlayar.

Hara gedirsən, yazıq;
Az olsaq da, əzəldən,
Dağılıb qurtarmışıq.
İtirilən yerlərin
Hansını qaytarmışıq?

Hara gedirsən, yazıq;
Öyünürük; - dünyada
Biz uluyuq, qədimik!
Müsəlmanıq deyə, biz
Dahimizə qənimik!

Hara gedirsən, yazıq;
Vəzifədə qudurub,
Harınlayıb nadanlar.
Özəlləşib insanlar,
Satılmayan nələr var?

Hara gedirsən, yazıq;
Peşimandı yaradıb
Yaratdığın, Yaradan.
Nə həkim var, nə dərman,
Qan püskürür yaradan.

Hara gedirsən, yazıq;
Beş-on nəfər tulanı
Yedirdib hürdürürlər,

Yadları, yağıları
Bu elə güldürürlər.

Hara gedirsən, yazıq;
Nə olsun ki, sellənib
Aşır başından gəlir?
Mən yetimin, kasıbın,
Sənə yazığı gəlir.

Hara gedirsən, yazıq;
Dahiləri pusurlar
Nadan, xəbis cəsuslar.
Zəncirlənib, hayqırır
Kölgədədi  cəsurlar.

Hara gedirsən, yazıq;
Eh, bu gediş, bu gəliş,
Uzun söhbət, uzun dərd!
Namərdlərin kef çəkir,
Çürüyür yurdunda mərd!

Hara gedirsən, yazıq;
Elə  tərif deyirlər
Qatırın, qoduğun da
Qorxuram, qarpız tağı
Uzana  qoltuğunda.

*07.01.02.*

**ALLAHLA SÖHBƏT**

Allahım,
Gəl məni çəkmə zilə
ayrılıqla!

Az qalıb son mənzilə,
nə olar,
bu yolu getsəm gülə-gülə?
Ömür payından
nə verirsən, ver, Allah,
ağrı vermə.

Bir səs gəldi qeybdən;
Səni xali yaratdım
İnsan, hər cür eybdən,
neyləyim, neyləyim,
Sən yolu əyri getdin,
mən etmədim, nə etdin
özün özünə etdin.

*21.11.02.*

**DAHİLİK**

Yığıldılar,
Danışdılar, danışdılar,
Hey aşdılar, daşdılar;
Hünər, qüdrət, yaxşılıq
Dil batınca sayıldı.
Bir dahilik sayıldı;
Eşşəyin anqırtısı,
Toyuğun qaqqıltısı,
Təlxəyin laqqıltısı...

Dahilər Konyak, araq
Al şərab, çay paylayır,
Allahını haylayır,
Can süzür qədəhlərə
Söyə-söyə, qəzəblə
baxırdı qəhbələrə.

*09.04.04.*

## KÜÇÜKLƏR

Sahibsiz it küçükləri;
Küçələrdə  yallaşırlar.
böyükləri, kiçikləri,
Oynaşırlar, ulaşırlar.

Sahibsiz it küçükləri;
Hər şəhərdə dolaşırlar,
Hər sümüyə, yala görə
Yadlar kimi dalaşırlar.

*11.03.04.*

## QURDLU ADAM

Dedilər ki, - qurdun var!
Bir qutu dərman atdı,
Yatdı.
Səhər durub yerindən,
O, ora, bura getdi.
Bilmirəm hara getdi,
Tökülmədi qurdları.

Qonşuya baxdı, baxdı,
Burnunu qurdaladı,
Başında qurd uladı.

Işi düşdü cərraha,
Cərrah dönüb cəllada,
Yarıb açdı qarnını,
Yerə tökdü qanını.
Bu nə işdi, ay aman,

Bu kişinin mədəsi
Tər-təmizdi nə yaman?!

Güman gəldi beyinə:
Kəfən geyib əyninə,
Həkimə yalvardı ki,
Əl bulasın beyninə.
Həkim – Mənlik deyil bu,
Deyib getdi evinə.
O, əl açıb Allaha,
Yalvarırdı bir daha:
- Allah, bu dərd oturur
Mənə ölümdən baha:
Allah dedi: - Ay insan,
Bu, sənlikdi, mənlik yox.
Bu qurd səndən qurtarmaz,
Ilkinliyə qaytarmaz,
Sən olmasan gözütox.
Bundan pisi daha çox!
Götür şələ-şüləni,
Sanma səbr düzəldər,
Səni qəbir düzəldər!

*24.12.06*

## QOYUNLAR

Bir zaman insan idilər;
İçlərini çıxartdılar,
Başlarını piylədilər,
Qoyun kimi çoxaltdılar.

Daha insan deyillər ki,
Söy, təpiklə, hırıldasın.
Tox olsa da, ac olsa da,

It deyil ki, mırıldasın?!
Sən söy, onlar mələsinlər,
Sən nə desən, eləsinlər.

Imtahan et: - dərə, təpə,
Qar geyinib parıldasın.
Qoy, tüstüsüz bacalarda
Qarğaların qarıldasın.
Dolu elə mədəsini,
Tanımasın dədəsini.

Görüləsi iş görülüb,
Təkcə - Qurro..o!-demək qalıb.
Çobansız da sürü olar?
Ver yuxuya tütək çalıb.

- Adam!-demə qoyunlara,
Səni salar oyunlara!
*11.01.2007*

## SÖZ ŞİLLƏSİ

Sağa da, sola da atımı çapdım,
Hər sözüm sillədi, zamana çırpdım,
Yanar söz dağıyam, söz püskürürəm,
Yanar, hara düşsə sözüm bir çırtım.

Gözüm niyə belə alacalanmış?
Bədənim əriyib balacalanmış?
Kasıbın haqqını yeyib quduran,
Bəxtimin ağına qara salanmış!

Mənə yuxarıdan baxma, çaşarsan,
Qudurmuş it kimi əsib – coşarsan,
Baxıb unudarsan adını yazıq,
Gedib özgələrdən ad soruşarsan.

Şairəm, kasıblıq şanım, vüqarım,
Pul yox, tüpürcəkdi sənin pulların,
Yaxşı sabunlanıb girib-çıxanlar,
Qorxma, ağrı verməz sənə qulların.

Pörtüb yanağının tüpürcək yeri,
Nifrətdən yoğurub yazdım bu şeiri.
Pul səni yox edib, sən də nəçisən
Qoduq, aldadırsan eldə şairi?!

Çox da ki, belində palanduzun var,
Səni dondurmağa sözdən buzum var.
Baxma ki, kasıbam, sən ölsən əgər,
Xeyratda kəsməyə keçim, quzum var!

*13.05.2008*

## QARA GÜNLƏR

*“Öz qövmümüzün başına*
*əngəl-kələfiz biz” M.Ə.Sabir*

Günlər bizim günlərdi,
Çadırlarda gülləyib.
Solan bizim güllərdi,
Nədən bəxti gülməyib?

At kimi cidarlanan,
Günəşin istisinə,

Yağışa çadırlanan.
Yerdə bizim güllərdi,

Su yerinə göz yaşı,
Içəndi köklərimiz.
Daş dəlib dərinlərə,
Keçəndi köklərimiz.

Kədər budaqlamışıq,
Salxım-salxım barlanıb.
Yurdu atıb qaçmışıq,
Ermənilər varlanıb.

Dən olmadıq sünbülə,
Gül olmadıq bülbülə.
Yaşadıq ölə-ölə,
Ölürük bilə-bilə.

Kim becərdi, bitirdi,
Bizi kim əkdi belə?
Yerdə nadir inciyik,-
Pislikdə birinciyik.

II

Ey Sabir, - qəm Günəşi,
Odundan od götürdüm.
Üfürdüm ki, sönməsin,
Ürəyimə ötürdüm.

Ürəyim tonqallayıb,
Ətrafım qanqallayıb,
Ha yanıb-yandırıram,
Görürəm, qanqal qalıb.

Kövrəyəm, ağlayıram,
Qəmə qəm bağlayıram.

Sevinc körpə balamdı,
Gözümdə saxlayıram.

Biz Xəzər dalğasıyıq,
Ölüb-doğulasıyıq.
Bir darını böləndə,
Qeyrət dağarcığıyıq.

Yer üzündə təkik, tək,
Açarıq çiçək-çiçək.
Döyüş günü gələndə,
Vağamlarıq sünbültək.

Düşməni yox, qardaşı
Keçirdərik süngüyə.
Dözümlüyük, yaşarıq
Can sürüyə-sürüyə.

Yanırıq, hisimizlə
Sürmələnir gözümüz.
Bizi yox, özgələri
Isindirir közümüz.

## YOLUMDA

Yoluma atılıb daş, kəsək,
Atan atana deyir:
- Gərək yolunu kəsək!

Gedirəm buldozer kimi;
Yolumu əzizləyə-əzizləyə,
Daşdan, kəsəkdən
təmizləyə-təmizləyə.

Qalır ayaqlarım altında
Kiminin qolu, kiminin başı.
Quyruqlanıb bəziləri,
Deyir; - bu yola kim atıb bu daşı?!

*01.04.04.*

## PƏLƏNGLƏŞƏN QUZULAR

Ürəyim çox təmizdi,
Elə bil ki, dənizdi.
Ürəyimə atılma,
Özünü arzu bilib
Ürəyimə qatılma,
Adam, bata bilərsən.

Ürəyimin cənubu var,
Qərbi var,
Orda sızlar yaralar.
Ürəyimin
Doğması var, qəribi var;
O isidir Ay boyda,
Yer boyda arzuları.
Ürəyimin var həm də
pələngləşən quzuları...

*20.03.04.*

## MƏN VƏ SƏN

Mən məskunam göydə, Yerdə,
Sən həsrətsən göyə, yazıq.

Sürünənlər uça bilməz
Dəmir qanad geyə, yazıq.

Mən hürməyi bacarmıram,
Söylə, necə yola gedək?!
Mən deyirəm: - insanlığa,
Sən deyirsən: - yala, gedək!

Sən nadanlıq zirvəsində,
Mən insanlıq zümrəsində,
- Mən işığam! - söyləməyə
Haqqı varmı zülmətin də?!

*24.02.04.*

## QORXURAM

Qorxmuram canavardan,
Yeddi cüt canı vardan.
Quyruqlardan qorxuram.
Harda quyruq görürəm,
Tez ayağa qalxıram.

*16.02.04.*

## HARAY! DƏLİ KÖNLÜM, HARAY

Yalan atlı, mən piyada,
Haray! Dəli könlüm, haray!
Meydan qalıb namərdlərə,
Haray! Dəli könlüm, haray!

Uça bilmir qanadlılar,
Daş başların qanadı var,

Daşbaşlının inadı var,
Haray! Dəli könlüm, haray!

Demokratiya oyun olub,
Xalqlar gedir, qoyun olub,
Xəbərin yox, toyun olub,
Haray! Dəli könlüm, haray!

Dəli coşub, arif susur,
Ürəyinə, o, qan qusur,
İnsanları insan pusur,
Haray! Dəli könlüm, haray!

Demokratiya plemyotdu,
Hey biçir, hey, ərəb otdu?
Yadlar doğma, ərəb yaddı,
Haray! Dəli könlüm, haray!

Meydan açıb Yerdə Buşlar,
Mədəsi tox, ağlı quşlar,
Ürəyimdə hələ qış var,
Haray! Dəli könlüm, haray!

Zəlzələdi, dirək əsir,
Qorxusundan ürək əsir,
Külək susub, kələk əsir,
Haray! Dəli könlüm, haray!

Ayaq baxıb başa, gülür,
Kəsək baxıb daşa, gülür,
Quru yanır, yaşa gülür,
Haray! Dəli könlüm, haray!

Dünya sürtük bir maçadı,
Adamlarda dil haçadı.

Əyri düzdən çox ucadı,
Haray! Dəli könlüm, haray!

*10.02.04.*

## İKİ LÜT

Sən lüt,
Mən lüt.
Hara gedir iki lüt?
Soyuq sahildən qovmazlar,
Yeməkxanaya qoymazlar,
Ölsək də çay verməzlər.
Hamını görsələr də,
Eldə bizi görməzlər.
Axı niyə görsünlər,
Papağım yox, qapalar,
Börküm yox, aparalar...

*Noyabr, 2003*

## PUL DAĞARCIQLARI

Xaqanidən su içirəm,
Nəsimidən keçirəm,
Sabahlara köçürəm,
Heç nəsiz.
Pul dolu dağarcıqlar,
Məndən ötrü heçnəsiz!

Siz pulu sayın,
Mən, sözümü sayacam.
Siz banan soyun,
Mən
Ürəyimi soyacam
Misra-misra.

*31.12.03.*

## SİYASƏT SƏRÇƏLƏRİNİN MİTİNQİ

- Cik, cik,
Siyasət sərçəsiyik!
Eli azadlığa çəkəsiyik!
- Cik, cik,
Mən olacam prezident!
- Cik, cik,
Ay uşaq, işinə get,
Mən olacam, prezident!
- Cik, cik,
Ölməmişəm hələ mən,
Mən! Mən olan ölkədə,
Sən kimsən, ay sərçəcik?!
- Sərçəcik sən, dədəndi!
Mən qartalam, fikir ver,
Bədənim şux bədəndi,
Başım buludla təndi.
Quyruğum elə dikdi,
Baxan, demir ki, - tükdü!
- Yaxşı apar özünü,
Çıxardaram gözünü!
Sərçə balası, sərçə!
- Asta gəz, sərçəcik, bu böyük ölkə,
Ayağın altına sürünə bəlkə?
- Sərçə də, sərçəcik də
Özünsən, özün, əbləh!
Bəh, bəh!
Gör necə qartalam mən,
İstəsəm, ulduzları
Yerəcən dartaram mən!
- Mən prezident seçilsəm;
Yağ çəkəcəm daşlardan,

Erkəyi doğuzdurub,
Süd sağacam quşlardan.
Qışı bahar edəcəm,
Dərdi buxar edəcəm.
Düşməni xar edəcəm,
Hamıya bərəkəti
Bacasından tökəcəm,
Erməni - dığa kimdi?
Ürəyini çəkəcəm!
Sərçələr sarayını-
Bulud əmən evləri
Irəvanda tikəcəm!
Amerikadan Bakıya
Süd kəməri çəkəcəm!
- Mən prezident seçilsəm;
Məndə boldu səriştə,
İşlədirəm hər işdə.
Yazıqdı, qartal üçün
Mən kəsərəm ərişdə.
- Baxma ki, yuvamızdı
Divardakı hər dəlik,
Qartallar adı qartal,
Biz isə sərçə bəyik!
- Səhəri biz açırıq,
Qartallar uçub gəlir.
Süfrəmizə, meşədən
Ayılar qaçıb gəlir.
- Sərçələr, ay sərçələr,
Arzumuz gerçəkləyir.
Qartal köçsün zirvədən,
El bizi dəstəkləyir!
- Qartal, götür süpürgə,
Süpür mənim evimi.
Apar, bişir, turşula,

Hazır gətir yemimi!
Qartallığın qurtarıb,
Sərçəyə quyruq bula!
Mən ovçuyam, yanımda
Sənsən bu gündən tula!
- Gətir qarlı dağların
Gölünü, güzgüm olsun!
Sən yumurtla, biz içək,
Səsimiz güclü olsun!
- Nə olsun ki, qartalsan,
Biz xoruzuq, fərə siz!
Ha, ha, cənnət bağında
Biz neylərik fərəsiz?!
- Mən prezident seçilsəm;
Dəvələr bağlanacaq
Eşşəyin quyruğuna,
Baş əyəcək aslanlar
Tülkünün buyruğuna!

Dik-dik dikkilləşdilər,
Cik-cik cikkilləşdilər,
Gördülər qartal gəlir,
Girdilər kola-kosa,
Baxdılar pusa-pusa...

*03.10.03.*

## ÖZÜ ÜÇÜN YAŞAYAN

Özü üçün yaşayan
Nə görsə - Mənim!-deyir.
Daşdan yumşaq nə görsə,
- Mənim dənimdi! - deyir.
İtirib abrı, həyanı,
Ambara dadanan siçan tək
Gəmirirdi hər yanı.
*21.11.03.*

## PAXILLIQ QURDU

Qurdun yaman çoxalıb, çıxıb üzünə,
Yeyib dişlərini, keçib özünə.
Hələ çox cavansan, üç ondu yaşın,
Qeybətə, söyüşə qarışıb başın.
Nəfsinə güc gələ bilmir iradən,
Özün öz qurdunu yeyirsən, yazıq.
Mən niyə qorxum?
Qorxmuram, yox, yox!
Bu, paxıllıq qurdudu, -
Sahibinə qənimdi.
Təzə deyil, qədimdi,
Çox qədimdi!..
*26.10.03.*

## BAŞIM KÖTÜK ÜSTƏDİ

Başım kötük üstədi;
Millət üçün,

desin qurban başımı
kim istədi!..

Başım kötük üstədi;
baltaçının baltası
Əlində! Əli göydə.
Məni Tanrı qoruyur,
Kəsmək üçün
nə hünər var hansı keydə?!.

## TAZİYANƏLƏR

Tarixçilər,
Tarixi tərs yazmayın,
Ağı qara,
Qaranı ağ yozmayın!
Bəşərin insanlıq səhifəsində
Görsəniz ki, Buş[1] da var,
Məni yazmayın!
*19.05.03.*

Deyirlər həyatda sən də olmusan;
Heç kimə köməyin, xeyrin olmayıb!
Elə - ver - demisən, - gətir - demisən,
Odur ki, heç yerdə yerin olmayıb.
*19.05.03.*

Sözü atdım, ovlarımın
Bir neçəsi şil-küt olub.
İşləməyib söz birinə,
Çünki, yazıq çox küt olub!..

[1] Buş – 2001-2009-cu illərdə ABŞ prezidenti

***

Ariflər sözünü deyir,
Nadanlar gözünü döyür!..

***

Əlim suda alışar,
Yanar, su da alışar,
Banklar kasıb qəzetə
Versə suda, alışar.

*08.06.03.*

Baxma ha...a...
Gözünə balaca görünürəm.
Hələ gərilirəm!..

***

Yazdığımı oxudu,
Nəfəs yolu daraldı.
Bildim ki, uğurum var,
Paxıl yaman darıldı.

***

Ac ölür acından, xəbəri yoxdur,
Üzünə tutmağa xəlbiri yoxdur,
Evdə bir urfalıq xəmiri yoxdur,
Qonşuya getməyir, o, naəlacdır,
Bilir ki, qonşusu qonşudan acdır.

***

Həyətdə bir toyuq yumurtlayacaq,
Toyuğu gözləyir, yanmayır ocaq,
Ağlaya-ağlaya can verir uşaq!
Ölməzdi, yesəydi itin yeyəni,
Eşitsin harınlar, şair deyəni!

***

Əyri elə, düz belə,
Ocaq belə, köz elə,
Nadanlıq fərman verir,
Ay ürəyim, döz hələ.

## ÇƏRÇİVƏ

Ay kişi, ölmüş dirisən,
Çərçivədə!
Sənə nə var,
Dirilər də ölüdür,
Çərçivədə!
İclaslar çərçivədə,
Qurultay çərçivədə.
Ölmədik, ömür sürdük,
Ağladıq, çərçivədə!
Rəhmət sənə, Nəsrəddin,
Çıxmısan çərçivədən.
Yaşa, yaşa, ömrünü
İgidliyə sərf etdin.

*1984*

## KASIB EVİ

Kasıbın evi də
Şalvarıtək yamaq-yamaqdı.
Beli bükülüb evin də
Qarı kimi yumaqdı.
Neyləsin kasıb,
Uçulanı tikə bilmir,
Sınanı ala bilmir,
Bu gün.

Neyləsin kasıb?
Qurbangahda
Ölümünü gözləyən qoyun kimidi,
Bu həyat ondan ötrü,
Həmişə uduzduğu oyun kimidi.

Üzü itirib rəngini,
Gözləri ahəngini.
Evinin divarları sayadı.
Dərd yeyib keçmişini
Unudulub soy adı.

## «KÜÇƏLƏRƏ SU SƏPMİŞƏM» RUHUNDA MƏZƏLİ SATİRA

Küçələrə asfalt çəkdim,
Yar gələndə yıxılmasın.
Çayı, gölü qurutdum ki,
Yarım batıb yox olmasın.

Başı yara qurban dedim,
Baş nəyimə gərəkdi ki?
Tökdüm ətəkdən daşımı
Daş nəyimə gərəkdi ki?

Bağlamışam pəncərəni,
Yar yetənə baxa bilməz.
Yonub qaşı-kirpiyini
Baxıb evlər yıxa bilməz.

Köynək aldım yarım geyə,
Köynək yara dar gəldi, dar.
Paltarsızdı qurşağacan,
Nə gülürsən, burda nə var?

Küçəmizə işıq çəkdim,
Yar gələndə hamı görsün,
Açılıb üz, yoldan keçən
Üzündəki xalı görsün.

Parıldayır qızıl dişi,
Baxma yara, göz qamaşar.
Yar gözəllik sərgisidi,
- Gəl! Gəl! – deyən göz-qaşı var.

Mənim yarım quzu kimi...
Hər yetənə mələməz o.
Kirpiyini ələk bilib
Göz yaşını ələməz o.

Quzu edib əldə məni,
Asıb qara teldə məni.
Gəzdirir hər eldə məni,
Nazlı yarım, nazlı yarım.

Yar atılır tüfəng kimi,
Nərə çəkir pələng kimi.
Əsib keçir külək kimi,
Yazdı yarım, yazdı yarım.

Ağılı var hiylə üçün,
Sap axtrır iynə üçün,
Ər boşayır ildə üçün,
Sazdı yarım, sazdı yarım.

## TƏQAÜDÇÜNÜN GİLEYİ

Qocalmışdım, iş yerinə
Qurtarmışdı vurğunluğum.
Təqaüdə çıxdım ki, tez,
Çıxa candan yorğunluğum.

Qəm daraşıb qoca cana,
Canavardı, sökür məni.
Tər tökmüşəm düz əlli il,
Tər sel olub çəkir məni.

Təqaüdüm bir həftəlik,
Çörək edər, ya da etməz.
Bu qanunla, qayda ilə,
Bu millətin işi getməz.

Hökumətə arxalanıb,
Hər işimdə təmiz oldum.
Rüşvət gəldi, təpiklədim
Təmizlikdə dəniz oldum.

Rüşvət alıb sandığıma,
Qızıl-gümüş toplamadım.
Rüşvətxorlar cənnətdədi,
Mən cənnətdə tapılmadım.

Mənə baxıb gənc işçilər,
Necə rüşvət diləməyə?
Qocalanda ələ baxıb,
Dilənçilik eləməyə?

*28.11.04.*

**NADAN VƏ SÖZ**

Ölüncə nadanların
Düşə bilməz yadına,
Hansı gündə, ildəsə
Yanıb sözün oduna.

Mən yanıram halına,
Hey ağlaya-ağlaya.
O,yaşayır, külümdə
Hey ağnaya-ağnaya.

## HÜR, HARA GETSƏN, BALA

Pulun aşıb-daşsa da,
Coşub həddin aşsa da,
Buz ürəyin daşsa da
Yep-yekə itsən, bala,
Hür, hara getən bala!

Ömür yolun dolama,
Öz elini dolama.
İt kimi hür, dalama,
Yep-yekə itsən, bala,
Hür, hara getsən bala!

Filankəs, bəhmənkəsov,
İskəndəri bilmə ov,
Atma ona tor, tilov,
Yep-yekə itsən, bala,
Hür, hara getsən bala!

Şirvan igid eldi, el,
Qopdu tufan, əsdi yel.
Bildi hamı, bildi, bil,
Yep-yekə itsən, bala,
Hür, hara getsən bala!

## KRILOVVARİ

Çəkişmələr odunda
Qaynamışıq, bişmişik,
Siyasətin həm cikin,
Həm də bikin bilmişik.

Əlbir ola bilmədi,
Müxalifət, iqtidar.
Şil-küt olub hər biri,
Bir tərəfdə qaldılar.

Bu haləti uzaqdan
Görüb tülkü erməni.
Dedi: - Sıxır, incidir
Bu dağlarda Yer məni.

- Mənimkidir Qarabağ!
Deyib haray qopardı,
Gəlib tülkü erməni
Hazır ovu apardı.

Ovlamadın, ovun var,
Halaldı, ye, erməni.
Daha nə istəyirsən?
Gəl, bizə de,-erməni!

Müxalifət, iqtidar
Dişlərini qıcıyır,
Qardaşı qardaş üçün
Dərin quyu qazıyır.

Döyüşdükcə Ayı, Şir,
Meydan açır tülkülər,

Belə getsə, çox ötməz,
Şir qul olar, Tülkü ər.

Tülkü deyər: - Şirciyəz,
Sus, danışsan, döyərəm.
- Yer olandan, bu yurdda
Şir olmayıb, deyərəm.

Göydən gəlmə deyilik,
Yerdən çıxıb əslimiz,
Yer üzünə yayılsın,
Gərək tülkü nəslimiz.

*21.12.02.*

**MƏTBUAT KONFRANSI**

*(Krılovvari)*

**Ağa:**
- Çayı bulandırmısız,
suyu dayandırmısız!
**Redaktorlar:**
- Ağa,
Biz ki, səndən aşağıyıq...
Sən qocaman,
Biz günlərin uşağıyıq.
**«Tək səbir»:**
- Bu, ədalətsizlikdir!
**Ağa:**
- Necə?
Olsa da dovşan, lap it,
Məni ağa bilənə
Veriləcək kredit!
Dəli bilməz qədrimi.

**Bir redaktor:**
- Dəli yalan danışmaz!
Dəlidi ki, düz deyir,
Ölməmiş kəfən geyir.
**Ağa:**
- Qələm əhli ayılsın!
Qaranı ağ görməyən,
mən güləndə gülməyən,
xalqa düşmən sayılsın!
Təriflərin ordusu
sıra-sıra düzülsün,
Tənqidçinin sağ əli
Biləyindən üzülsün.

## PREZİDENT OLMAQ İSTƏYİRƏM

Vətən oğlu,
Anamın bətnində,
qabar olmuş əllərin
sözsüz sızıltısını
eşitmişəm, duymuşam.
Ömrüm boyu
qabarlı əllər ilə
oturmuşam, durmuşam...
Prezident olmaq istəyirəm,
məni seçərsən?

Vətən üçün, el üçün
Həyata doğulmuşam,
sözə dönüb
ürəyə dağılmışam,
Sizə arxa – dağ olmuşam:

Prezident olmaq istəyirəm,
məni seçərsən?

İndi lütəm, lüm-lütəm,
yenə lüm-lüt olacam,
nə oğurluq edəcəm,
nə də rüşvət alacam:
Prezident olmaq istəyirəm,
məni seçərsən?

Mən prezident seçilsəm,
beynəlxalq canavarlar
vətəndə – Mən! – Mən! – deməz.
Vətənin çörəyini
el yeyər, özgə yeməz.
Yurdumuzun sərvəti
bərabər paylanacaq,
ölkədə yalan-palan,
harınlar olmayacaq;
Prezident olmaq istəyirəm,
məni seçərsən?
El, səninəm, tut məni,
yetənə qatma məni,
mənə ana, atasan,
dağsan, sənin daşınam,
ətəyində durmuşam,
düşməninə atasan:
Prezident olmaq istəyirəm,
məni seçərsən?

*Dekabr 2002*

## BİR QOCA VAR

Dişi sökülüb,
Əti tökülüb,
Taqəti yoxdur,
Suyu çəkilib.

Sümük qəfəsdi,
Quru nəfəsdi.
Doya bilməyir,
Çox ac nəfisdi?

Qəzəbdi, kindi,
Ocaqda küldü,
Atası bəlli,
Anası kimdi?

Sağını söyür,
Solunu öyür,
Əli quruyub,
Dil ilə döyür.

Yolda kötükdü,
Yaman ütükdü,
Çəkin, qırılsın,
Tək qalan tükdü.

*Avqust, 2001*

## İKİ ARI

Qızılgülü unudub
Yada salmır Tanrısı;
Şirə çəkir doyunca
Güldən eşşək arısı.

Bal arısı qanqalda,
Elə bil manqaldadır.
Ona görə balımız
Süfrədə qanqal dadır.

*İyul, 2001*

## SÖZÜMÜZƏ GÜVƏ DÜŞÜB

Sözümüzə güvə düşüb,
Sözümüzdən nüvə düşüb.

Söz oyatmır ağılları,
Silkələmir oğulları.

Sözü başda iylədiblər,
Sözü yaltaq öyrədiblər.

İtib dilin söz kəsəri,
Hanı sözün bal-şəkəri?

Elə düşüb söz kəsərdən,
Əsər yoxdur bir əsərdən!

*İyul, 2001*

## PUL VER

Pul ver, talat,
Pul ver, yarat,
Pul ver, pul ver,
Çökər polad.

Pul ver, ağlat,
Pul ver, çağlat,
Günü öldür,
Ayı saxlat.

Pul ver,
Dəli olum,
Pul ver,
Mən Əliyəm,
Vəli olum.

*Avqust, 2001*

## ÖYÜNMƏ, LOVĞLANMA

Öyünmə, lovğalanma;
Vaxt adlı süpürgəçi,
Zaman adlı cəllad var.
- Mən! – deyəni saymayan
Həyat adında yad var.

Səni adi çöp kimi,
Dalğasında oynadar.
İçdən, samovar kimi
Pıqqa-pıqla qaynadar.

Vaxt səni silər, atar,
Adın, yoxluğa batar.
Öyünmə, lovğalanma,
Vaxt adlı süpürgəçi,
Zaman adlı cəllad var.

*21.09.08.*

## MİLÇƏK ADAM

Yenə də mızıldayıb
Zəhlə tökürsən, milçək.
Səndən ötrü eynidi
Peyin, zibil, gül, çiçək.

Çiynində içi bom-boş
Başı dolandırırsan.
Özün bir şey deyilsən
Ürək bulandırırsan.

Mızıltılar söz deyil,
Kimsə bilə, nə dedin.
Heyf, dostlar yediyi
Süfrədə sən də yedin.

Kal qarpıza bənzəyən,
Zahirini görmüşdük.
İçini də göstərdin,
Biz doyunca gülüşdük.

*17.02.07.*

## DİLİN VƏ SƏN

Dilin – şahə qalxan gürzədi,
İçindəki nadanlığı göstərən
Özün boyda güzgüdü;
Göstərdi, gördüm
Ürəyinin xıltını.
Bir sini aşdı ömrün,
Dilinlə daşdı ömrün.
Gördüm, gördüm,
Üstünü və altını!
Oturma ömrünün üstündə,
Fikrin cücə çıxartmaz!..

## ÖZGƏLƏRİ ÖYƏ-ÖYƏ

Özgələri öyə-öyə,
Özümüzü söyə-söyə,
Dizimizə döyə-döyə
Gözü yaşlı yaşadıq,
Başı daşlı yaşadıq.
Bəsdi, bəsdi, a millət.

İdrak ilə böyüdük,
Niyə belə bölündük?
İçimizə gömüldük,
Özümüzü daşladıq
Bəsdi, bəsdi, a millət!
***
Paxılların paxırı
Ürəyində qaynayır.
Qalayçı işi deyil,

Tanrı yazan qayda var;
Paxılın paxırını
Əzrail qalaylayar!
*03.07.03.*

**NEYLƏYİM**

Kədəri pəncərədən kişlədim,
Bacadan girdi;
Sevincimi qovladı,
Ürəyimi ovladı.

Baxma ki, yeririyirəm;
Ocaq üstə
Tavadakı yağ kimi
Çırtım-çırtım əriyirəm.

Belə bacadan düşən
Dərdlə yoxam.
Qəm dağıdır
önüm, arxam.
Neyləyim,
Dəli əlində qalıb yaxam.
*Yanvar, 2002*

**KİMİ QOYUN SOYUR, KİMİ DƏ VƏTƏN**

İndi qəssab olub nadan adamlar,
Kimi qoyun soyur, kimi də Vətən!
Gəlmələr sehirli açara dönüb,
Açılıb-bağlanan kilidə, Vətən!

Gədələr daraşıb səni soyurlar,
Pul edib xarici banka qoyurlar,
Kök atır hər yerə gədə çayırlar,
Dərdinə pul qıymaz biri də, Vətən!

Ata balasına qurdluq öyrədir,
Ata qıymadığın bala törədir,
Qurddu qurd balası, qurd da törədir,
Kasıb balasıdır gülün də, Vətən!

Bu harın gədələr dal öpər hər gün,
Vuruşar, yarışda dost ötər hər gün,
Ocağa hamıdan tez yetər hər gün,
Kasıbdır ocağın, pirin də, Vətən!

Vətənə daraşan birədi kimi,
Yurdu ələkləyən güvədi kimi,
Atom bombasıdır, nüvədi kimi,
Kasıbdır tökülən külün də, Vətən!

Enməsə torpağa göyün qatları,
Göyə sürəcəklər maşın atları,
Tarixə yazılsın təki adları,
Kasıbdır göyün də, yerin də, Vətən!

*20.09.01.*

## CIR ARI

Girib pətəyinə bal arısının
Haray saldı cır arı;
- Balım var, ay balım var!
Çağırdı qohumları,
Hayladı balasını...
Onları boğazlayıb

Bal arısı öldürdü.
Cır arı haray saldı;
- Balam vay, ay balam vay!..
Balım vay, ay balım vay!

*27.08.08.*

## QIZINACAQDIR

Tarix kitabına yazdım sözümü,
Bəxtiyar bilirəm daha özümü,
Qoy tökmək istəyən töksün gözümü,
Ellərin lənətin qazanacaqdır,
Gələcək şeirimlə qızınacaqdır.

Dost deyil, dost kimi yanıma gələn,
Eşir ipliyimi üzümə gülən,
Mən dedim sözümü, sən hələ külllən,
Küllükdə ağnayan, itər küllükdə,
Güllükdə gül sevən, bitər gülülkdə.

Qələmim döyüşdən zəfərlə çıxdı,
Gələcək günlərim əlimi sıxdı,
Hələ döyüş çoxdu, zəfər də çoxdu,
Baxıram, kabusun əlləri əsir,
Çırpınır! Özüdür özünə əsir!

*31 avqust 2001*

## AY MƏNƏ SÖZ BƏZƏYƏN

Harda oldu bir qəpik,
Bircə manat qazancın,
Ayaqlayıb hər şeyi,
Sən hər sifət qazandın.

Adamda bir üz olar,
Sənin ki min üzün var.
Bütün çirkin yollarda,
Cığırlarda izin var.

Mən işığam, yaxşı bil,
İşıq kölgə gətirmir.
Mən günəşəm, anla ki,
Günəş ləkə göturmür.

Ay mənə söz bəzəyən,
Kaş, balandan olasan, -
Görüm ağlar qalasan.

## NADANDAN

Torpağın aclığından,
Yağışın azlığından
Sünbül cücərə bilmir,
Qarğış yağır ağzından,
Günahı dəndə görür.

Nadandı, qana bilmir,
Söz ilə yana bilmir.
Fındıq deyil, qoz kimi
Kənəkdi sına bilmir,
Günahı məndə görür.

*18.02.07*

## VAY HALINA O KƏSİN

Yalanlardan, şayiələrdən,
Sürtük, maça şairlərdən,
İtdən, qurddan, “dahilərdən”
Ay Allahım, qoru məni.

Dərdim mərddi, kişi olar,
Kişilik mərd işi olar.
Vay halına o kəslərin,
Eldə dərdi dişi ola.

Qurd nəfisli dişilərdən,
Pis niyyətli kişilərdən,
Qalmaqallı işlərdən
Ay Allahım, qoru məni.

Xaqanini, Nəsimini,
Yurdun neçə nur nəslini,
Yad ellərə qərib salan
Gecə-gündüz zurna çalan,
Üç diplomlu nadanlardan
Ay Allahım, qoru məni.

## DEPUTAT GƏLİR

Qırın, qırın, kollları,
Təmizləyin yolları,
Geniş açın qolları,
Durun, deputat gəlir!

Maaşı sığmır cibə,
Minir «Hunday»a, «Cip»ə,

Əldə «Quran» hər cümə
Durun, deputat gəlir!

Dəniz kimi çağlayan,
Hər tərəfi çuğlayan,
Millət üçün ağlayan
Durun, deputat gəlir!

Dükanları, sexləri,
Heyran edir çexləri.
Yığmaq üçün «çekləri»
Durun, deputat gəlir!

Seçki günü küyçüdü,
Sanma şair, dilçidi.
Pulludur ki, elçidi,
Durun, deputat gəlir!

Azı hər gün işləyir,
Çoxu tozun kişləyir,
Bığın burub kişnəyir
Durun, deputat gəlir!

*17.02.07.*

## ŞEİRİM VƏ BƏDBƏXT

Axan göz yaşımın selidi şeirim,
Sevgisiz ürəkdə sevgi cücərdir.
Sözlərim şərabdı, nə vaxt içildi,
Məhəbbət yaşayan başı gicəldir.

Yaş ötüb, ağarıb saçın, hələ də
Məhəbbət alovu axmır qanından.

Bədbəxtsən ay yazıq, oxu şeirimi,
Bu «Bədbəxt» adını sil ünvanından.
*18.02.07.*

**EŞŞƏK VƏ YALTAQLAR**

Alıb əlindən pulu,
Qatır, qara eşşəyə
Qoydu vəzifə çulu.

Quyruqlar bulandılar,
Başına dolandılar.
İt kimi, tülkü kimi
Eşşəyə yalmandılar.

Elə ki, çul alındı,
Dedilər:-eşşək oğlu,
Gözümüzün dağısan,
Neçə ildi ürəyə
Qəm gətirən ağrısan.
*30.12.07.*

**XƏYANƏTİN**

Xəyanətin:
Dünyanın inam,
Sədaqət dirəyini,
Etibar ürəyini
Sındırdı,
Kişilik göyünü uçurtdu,
İnsanın insan məhəbbətini
Yer üzündən qaçırtdı.

İnsanlığı saxlayan
Sütunları kəsdi,
İnsanlıq ev-ev,
Ürək-ürək uçdu, -
Dünya xaraba qaldı.
Xaraba dünyanın
        viranə evlərində,
ulayırsan bayquş kimi.
Sən görmürsən, mən görürəm;
Baxışlardan yağır üstünə
İnsan kini!
Bilmirəm
Necə yaşayırsan insan kimi.

*11.02.07.*

**YOXSAN! YOXSAN!**

Sən üzümə gülsən də,
Sən gözümə girsən də,
Mələk olub mələklə
Yerə göydən gəlsən də
Yoxsan! Yoxsan!

Varsan yoxluq içində,
Yoxsan çoxluq içində.
Yağıya atmaq üçün
Oxsan, oxluq içində,
Yoxsan! Yoxsan!

İşığı yox qarasan,
Bütöv deyil, parasan,
Bilinməyir varlığın

Sən hardasan, harasan!
Yoxsan! Yoxsan!

Sən də varsan, qaya da,
Var, haya var qayada.
Sən yoxsan, olmamısan
Südlə gələn mayada,
Yoxsan! Yoxsan!

*19.09.04.*

## «QIZIL QƏLƏM»

Ürəyimin odundan
əllərimdə qızır qələm,
istəmirəm «Qızıl qələm».
Lələk ilə yazıldı
tarixi yorub gələn sözlərimiz.
«Qızıl qələm»lə yazılanı
oxudu gözlərimiz,
bulandı ürəyimiz,
Nə xeyirdə, nə şərdə
Olmadı gərəyimiz.

*Noyabr, 2002*

## DƏRD DEMƏDİM

Dərdsizə dərd demədim,
O, dərdi duymaz.
Toxlara – ac demədim,
Qorxdum ki, doymaz.
Daşlara – dur! – demədim,
Bildim ki durmaz!

Qorxaqlara;
- Zənciri qır! – demədim,
Ölsə də qırmaz.
Düşməni – vur – demədim,
Acizdi, vurmaz!
Adam – daş olar,
Daş adam olmaz!
*Sentyabr, 2001*

## BAŞIM KÖTÜK ÜSTƏDİ

### (II şeir)

Başım kötük üstədi;
Kəsilsə də yaşaram,
Mən hər gələn nəsillə,
Ömrü bir də başlaram.
Dağı gizlədən qarı
Günəşli yaz əridər.
Təpər varsa canında,
Zaman dağı yeridər.
Kim ki, məni kiçildir,
O, özünü kiçildir.
Fillər gedir yolunu,
Bilir, hürən küçükdür.
*27.06.04.*

## DƏLİ

İstidə tövşüyür,
Soyuqda üşüyür.
Çörəyi tanıyır,

Suyu tanıyır.
Qadını döyən kişiyə
Tərs-tərs baxır, qınayır.
Adamları sınayır,
Uşaqların
Göz yaşına dözməyir,
ağlayır.
Ürəyi elə həssasdı,
Qovaq yarpağı kimi
Xəfif səsdən titrəyir.
Yaxşılığa tələsir.

Belə də dəli olar?
Bəlkə də dəli deyil.
Ağıllı dəli görüb
Dəli olub?

*06.09.04.*

## NƏYİNƏ GƏRƏK

- Mələ! – desən, mələyir,
Bu torpağı başına
- Ələ! – desən, ələyir.
Yaşayır heyvan kimi;
Qulağı dinc, başı dinc,
Yeyir bozbaş, yağlı aş,
Qulağı dinc, başı dinc.
Nəyinə gərək ölkədə,
Ölən kimdi, qalan kim?
Başı, dişi ağrımır,
Cağıra hərdən həkim,

Mindirəcək, utanmaz,
Nəğd pulunu versə kim.
Təki, təki, yaşasın.
Nə istəyir ürəyin,
Qoy dalına, daşısın.

*15.05.04.*

## ƏYİLDİ «YOXSAN» GÖZÜ XURCUNUN

Yandırdı qəm, qadın da!
Yandım ilham odunda,
Qalım yadında, dünya!

Körpən idim, budaqda
Quş uçanda ürkərdim,
Qəm oynardı dodaqda.

"Cızza"dan keçə-keçə,
Ayağımı daş əzdi
küçə-küçə.

Bilmədim necə keçdi
Uşaqlığım, gəncliyim,
İllərə köçə-köçə.

Yaşatmısan çoxunu,
Qapında çökə-çökə.
Böyütmüsən, sinəmə
Od dağı çəkə-çəkə.

Əyilməz sinəmə baş!..
Susub ömrümü yedim,
Yemədim minnətli aş.

Açıb pələng ağzını
Sən mənə daddırırsan
Hər ağrını, acını.
Hərdən də gülüm deyə,
Şirin qaqqa qoyursan
Qəfil , açıb ovcumu.

Hərdən də - Gəl! Gəl! - dedin
Açıb cənnət qucunu.
Ömrü necə yaşadım,
Əyildi "Yoxsan!" gözü
Ömür adlı xurcunun!

*11.09.03.*

## BU PAXILLAR, NADANLAR

Bu paxıllar, bu nadanlar
Qətran kimi zülmətdilər;
Yerdə ağır zillətdilər,
Tarix boyu insanlara
Zülm etdilər.

*09.08.04.*

## ÖZÜNÜ OĞURLAMISAN

Qılınc kimi
Bu torpaqdan sıyrılmısan,
Bu vətənin oğlusan;
Görünən sevincsən,
Görünməyən ağrısan.
Gülsən, Ay işığısan.
Buludsan, ağlasan.
Nə olmaq istəyirsən,

Özün seç.
Ola bilmərsən «heçnə»,
Heç nəyi almayasan vecinə!
Onda üzünə tüpürər
Xaqani, Nəsimi
Deyərlər; - alçatma nəslimi!
İtirmə insan nəslini!
Ulusan, müdriksən,
İnsanın
İnsanlıq zirvəsində ağılsan.
Sussan, deməli,
Vicdanlı insanlar arasından
Özünü oğurlamısan, oğrusan!

*26.01.04.*

## BAŞIMDA ŞİMŞƏK ÇAXIR

Həyat düşür gözümdən,
Lap bezirəm özümdən;
Qızılgülə qarğanı,
Bülbül üçün qanqalı
Yazanda dünya.

Qocaları bəsləyib,
Bir körpəni həyatdan
Pozanda dünya.

Başımda şimşək çaxır,
Məni yandırıb-yaxır,
Az qalır ki, ürəyim
Çoşa, çıxa ağzımdan;
O zaman ki, hörməti
Arif uma azğından!

*İyul, 2001*

## QAR DAŞ

Necə deyim – qardaşsan,
Nə duyan, nə eşidən,
Soyuqluğu üşüdən,
qar daşsan.
Qardaş, qardaş, de, görüm
Sən kimin qardaşısan?
Xeyrin yoxdu, min il də
Sən bu adı daşısan.
Necə deyim – qardaşsan;
Kimsə səni götürüb
Baş yarası bir daşsan.

Necə deyim – qardaşsan;
Düşmən gəlsə durmarsan,
Elə bil ki, sal daşsan.
*14.10.04.*

## EY...Y...

Məni məndən çəkmə, qoy qalım məndə,
Yaşayım mən kimi, qalmayım səndə.
Məni məndən çəkib gəl, qoyma mənsiz,
Məni məndi yaşadan, mən kiməm mənsiz?
Çəkmə məni sənə, yaşamaz səndə,
Mən, səni mənim kimi daşımaz sən də.
*16.04.08.*

## BU XALQIN O ÜZÜNDƏ

Bu xalqın o üzündə;
Vətəndən, xalqdan ayrı
Çox «dahilər» boy atır.
Hey qışqırır, bağırır,
- Ay el! – deyib çağırır,
harayları, səsləri
Nə bir qəlbi oyadır,
Nə də elinə çatır.

Bu xalqın o üzündə;
Nəhəng ilanlar gəzir,
Vəzifəli nadanlar
Xalqı verirlər nəzir.

Bu xalqın o üzündə;
«Nəhəng» şairlər gəzir.
Bu günə, keçmişə də
Göz yumur, dodaq büzür.

Bu xalqın o üzündə;
Talelər həll olunur;
Kimi taxtdan salınır,
Kimi taxta qoyulur.

Bu xalqın o üzündə;
Bu xalqa don biçilir.
Sağlıq deyib adına
Qanlı kabab yeyilir,
Araq, konyak içilir.

*İyun, 1992*

**EL GÖRÜR**

Dildə – «Demokratiya!», «Azadlıq!» Dedin,
Çöldə nökər, evdə ac olduq! Dedin,
Xalqı qırıb – Vay! Vay! Azadlıq! Dedn
Astarın üzdü bunu, bu el görür,
Əyridi, düzdü kim, onu el görür!

Abrı atıb, vicdanı dondurmusan,
Badənə də el qanı dondurmusan,
Olmayanı, zor ilə oldurmusn,
Astarın üzdü bunu, bu el görür,
Əyridi, düzdü kim, onu el görür!

El səni gözdən salacaq a nalələr,
Daş-divara bərk sıxacaq a nalələr,
Gözünə millər soxacaq, a nalə,
Astarın üzdü bunu, bu el görür,
Əyridi, düzdü kim, onu el görür!

*14 iyun 1992*

## BU GÜN

Kimsə, kimə görəsə,
Pəh-pəh ilə öyülür.
Hər kütə, hər nadana
Eldə – Dahi! – deyilir.

Kimsə, kimə görəsə,
Hey söyülür, döyülür.
Əyilməyən vüqarı,
Dəmir kimi əyilir.

Əyrisi bayraq, şüar,
Düzü inkar edilir:
Gözünə mil çəkilir,
Qulağı kar edilir.

Başda başdı başsızlar,
Ürək ağlar, baş sızlar.
Bu necə vaxt, zamandı?
Sən bunu bu gün çürüt,
Ulu Tanrı, amandı,
Göndərmə gələcəyə.

*07.03.08.*

## NİTQ

*(Prezidentliyə namizədin yaltaqlar qarşısında nitqi)*

Yaltaqlar ordusu, səfərbər olun,
Hər kəndə, şəhərə, hər evə dolun.
Hər kimin canında varsa nəfəsi,
Mənə verməlidir imzalı səsi,
Yoxsa kəsiləcək odlu nəfəsi!
Kim qaçsa, burcutsa, gəlsin naləsi,

Doğması, qohumu qovulsun işdən,
Anlasın, mən kiməm bunu eşidən!
Sürü özbaşına qalsa qudurar,
Qoyun da, quzu da haray qaldırar.
Xərcləyin xeyrimə, pulum çoxdu, çox,
Xəsislik etməyə ixtiyarım yox.
Toxları susdurun, acı doydurun,
Tərsin, qudurğanın qulağın burun.
Nəzirləyin ocaqları, pirləri,
Qoymayın açmağa dil, Sabirləri.
Bir ölü Sabir var, o, bəsimizdir,
Qürurla deyirik: - O, fəxrimizdir!
Yalan paslanmasın, parlasın eldə,
Qara bulud kimi gurlasın eldə.
Arabir yalanı pisləyin dildə,
Həqiqət utansın, qaçıb gizlənsin.
Qorxudan meydana bir də gəlməsin.
Yalana bal qatın, doğruya zəhər.
Peyını göstərin, deyin: - zərdi, zər.
Kimini şərləyin, dili lal olsun,
Dünən adam idi, bu gün mal olsun.
Seçilsəm:
Yağlı vəzifələr gözləyir sizi,
Bir an yumşaltmayıb daş qəlbinizi,
Milləti qoyun tək otararsınız,
Sərvəti "N" qədər artırarsınız,
Haydı, "dəlilərim", haydı, irəli!
Sizinlə böləcəm o şən illəri!

*14.12.2011*

## DƏLİ OLMAQ İSTƏDİM

Dəli olmaq istədim;
Məni yaxıb-yandıran,
Dərdi unutmaq üçün.
Ürəyimdə hay salan
Mərdi uyutmaq üçün.

Dəli olmaq istədim;
Buludlayıb, yağdırıb,
Eşqi çağlatmaq üçün.
Dərd əlindən kövrələn,
Məni ağlatmaq üçün.

Dəli olmaq istədim;
Milyonların içində,
Nadana şillə vurum.
Düzü əyri yazana,
Bir neçə güllə vurum.

Dəli olmaq istədim;
Vaxt selinə yıxılım,
Nə var, nə yox, unudum,
Aşıb-daşan, çağlayan,
Birdən-birə yox olum.

Dəli olmaq istədim;
Quyruq, buyruq kişiyə,
Qəzəb tüpürmək üçün,
Adını, ünvanını,
Yerdən süpürmək üçün.

Dəli olmaq istədim;
Desinlər ki, dəlidir,

Fikir vermə sözünə.
Bəlkə də dəli deyir
Dəli deyir özünə.

*18.10.2011*

**NEYLƏYİM, ALLAH**

Kimə yaxşılıq etdim,
yamanlıq gördüm,
Neyləyim, Allah?
Dost üçün buğda səpdim,
Zəmi biçdim,
Sonda samanlıq gördüm,
Neyləyim, Allah?

Ürəyimdən;
Neçə dostun, tanışın,
İşıq səpdim yoluna,
Əvvəl-əvvəl güldülər;
Dedilər ki, ömrümüz
gecə idi bir zaman,
indi səhərdi.
Boğazlara bal tökdüm,
dedilər ki, zəhərdi,
Neyləyim, Allah?
***
Zəfərimdən, uğurumdan,
havası çatmayan dost,
Ürəyi parçalayan dost.
Gecə yatdı, səhərsiz.
Neçə dostum saraldı,
üzü döndü, sar oldu.
Neyləyim, Allah?
***

Əllərimdən su içib,
Şümal-şümal böyüyən,
Şöhrətimlə öyünən.
Alakərim, Tulakərim,
Rəisə quyruq oldu;
Ömrümə qəsd etdilər,
o, buna buyruq oldu.
Neyləyim, Allah?

*25.10.2011*

## KİM DEYƏR Kİ, KİMDİR O?

Ermənіyə dərs verən,
Ruhuna həvəs verən,
Millətinin, yurdunun,
Qəlbinə qəfəs verən,
İgidləri, mərdləri
Kürəyindən vurduran,
Qələbəni durduran,
Qəzəbdir o, kindir o,
Kim deyər ki, kimdir o?

Fırıldaqda, hiylədə,
Dahidir, birincidir.
Siyasət aləmində
Həmişə bir incidir.
Qurban verib kürsüyə,
Yurdunu, millətini.
İçirtdi ruhumuza
Qəlbinin zülmətini.
Qəzəbdir o, kindir o,
Kim deyər ki, kimdir o?

Ağa qara dedirddi,
Millətə qəm yedirtdi.

Harda ağıllı baş var,
Sıramızdan götürdü,
Cəhənnəmə ötürdü.
Ermənini Qarabağ
Vüsalına yetirdi.
Qəzəbdir o, kindir o,
Kim deyər ki, kimdir o?

Parçalayıb milləti,
Erməniyə - huy – dedi.
Yetir məni kürsüyə,
Kəlbəcər, Qarabağda.
Hay, sənin olsun,-dedi.
Qəzəbdir o, kindir o,
Kim deyər ki, kimdir o?

Hiylə, kələk dahisi,
Tufan, külək dahisi,
Hiyləsində yanılmaz.
Dahiliyi danılmaz!
Elə bişib, bərkiyib,
Söhbət ilə yonulmaz.
Qəzəbdir o, kindir o,
Kim deyər ki, kimdir o?

Hər obada, hər eldə,
Yaltaq, yalağ ordular.
Səylə yaratdı, getdi.
Yerlisini, dostunu
Eldə yarıtdı, getdi.
Qəzəbdir o, kindir o,
Kim deyər ki, kimdir o?

*26.05.2011*

# MÜNDƏRİCAT

Müəllifdən ... 3
«Sınmayan güzgü»də görünənlər ... 5
Dalğalı zaman gəlir ... 17
Rüşvət ... 17
Allaha müraciət ... 19
Reklam yağmuru ... 21
Mənim balam ... 22
Söz şilləsi ... 23
Bu millət ... 24
Ay xanım ... 25
İndi ... 26
Bəşər və dünya ... 27
Yaltağın qarğanı öyməsi ... 28
Haqqım var ... 29
ABŞ-ın bəyanatı ... 31
Qarınotaranlar ... 32
Rəngləmə məni ... 33
Zurnalist redaktorlara ... 34
Mənim polisim ... 35
Tapmaca ... 36
20 yanvar faciəsinin 11 illiyinə ... 37
Ölkə başdan-başa sirkdi ... 38
Həyatin dilindəkinə ... 40
Heyvan adam ... 40
Qocalıq ... 42
Yeralti keçid – yeralti cəhənnəm ... 43
Sabir ... 45
«Tək səbir» oxuyun ... 46
Belə şair ... 46
Şair və sən ... 47

Mal-qara ........................................................................ 48
Yenə ............................................................................... 49
Söndürün işıqları ............................................................ 50
Yaltaqlara sözüm............................................................ 51
Bu təkəbbür, bu inad ....................................................... 52
Yuxu................................................................................ 53
Neyləyim allah ................................................................ 54
Nə qəmim var mənim....................................................... 55
Varsa ümid, bəsdi bu........................................................ 56
Alimdi kişi........................................................................ 56
Müxalifət.......................................................................... 57
Nadan vəzifəlilər .............................................................. 59
Var .................................................................................... 60
Sahibini it tanımaz bəlkə də .............................................. 60
Kimdir o? .......................................................................... 61
Nəfsinə qurban eləmə milləti ............................................ 63
Azərbaycan bu gün............................................................ 64
Nəyə lazim ........................................................................ 65
Qulaq asma deyilən sözlərə................................................ 66
Etiraf ................................................................................. 67
Ya mənəm, ya da ki, allah.................................................. 68
Gül bala, gül, gül ............................................................... 69
Mən qəmin heykəliyəm...................................................... 69
Tanrı, ya al canımı ............................................................ 70
Haqqa gəlin, haqqa! ........................................................... 71
Ay ölülər ............................................................................ 72
Bəsdi.................................................................................. 73
Kimdi ................................................................................ 74
Yol boyu............................................................................. 74
M.Ə.Sabir tipləri bu gün ..................................................... 76
Kürsü dəliləri...................................................................... 78
Oyna bala, doyunca............................................................. 79
Eşşək .................................................................................. 80
Yerlibaz oğlu yerlibaz.......................................................... 81

Ölkədə ... 82
Var xatası bu işlərin ... 84
Vur bala, vur ... 85
Yaltağın oğluna nəsihəti ... 88
Biri kim? ... 89
Baş ... 89
Acizlər ... 90
Gəlin, gəlin ... 91
Seçki marafonu ... 92
Eşşəklər: ... 92
Qoyunlar: ... 92
Palanlar: ... 92
Kütlə: ... 92
Siçanlar ... 93
Canavar ... 93
Dovşan ... 93
Balıq ... 93
Duet ... 94
Maraqlanmırıq ... 94
Qurd lələ ... 96
Mənəm güc də, hünər də ... 97
Tanrı bizə qənim oldu ... 98
Doğmalara düşmənik ... 100
Kişiyə bax, kişiyə ... 101
Kimdi bu ... 102
Bəhri-təvil ... 103
Küylü şairə ... 104
İki dilənçi ... 105
Hər gün ... 105
Ölsün! Bu milləti cırlaşdıranlar ... 106
Şair ölür acından ... 107
Utan barı ... 108
Yaltağların fəryadı ... 110
Siyasət ... 111

Kim atdı, kim tutdu ........ 111
Elə bilmə dirisən ........ 111
Kimdi bizi avam bilən ........ 113
Gəlmələr ........ 113
Haray ay el, haray ........ 114
Bulvarda ........ 115
Elə can! Can! – deyə-deyə ........ 116
Rüşvətxorun etirafi ........ 117
Qurbanlıq üçün ........ 118
Bir məclisdə 10 kişinin yeni il duası ........ 119
Neft pul olur ........ 120
Ünvanlı, ünvansız zarafatlar ........ 121
«Tək səbir» alın ........ 122
Ay alan ........ 123
Qarabağ davasının on illiyinə ........ 124
Rüşvət – şoğərib ........ 125
Sərçələr ........ 125
Cibimə boş girib – boş çıxır əlim ........ 126
Günün sualları və cavabları ........ 126
Demokratiya budurmu ........ 127
Ölməlisən ........ 130
Həmişə sabirləyəm ........ 131
Qələbə bayrağindi ........ 133
M.Ə.Sabirin qəbri üstə nəsihət ........ 134
M.Ə.Sabir üsyan edir ........ 135
Sabir, səndən utanmaz ........ 137
Şeir dedim ........ 138
Getmiyəcəm məktəbə ........ 138
Mənəm kürsü məcnunu ........ 139
İnsafdan deyil ........ 141
Xəbislər ........ 142
Vəzifəli lotu ........ 144
Vəzifəli qumarbaz ........ 144
Yanan desin ........ 147

Qumarbaz ........ 147
Böhtançı həşəratlara ........ 148
İt hürməsə, darıxar ........ 150
Paz adam ........ 150
Pul ........ 151
Rüşvət geyinən xanım ........ 152
O ........ 154
Ağcaqanad ........ 154
Nəçidir ........ 155
Bu da adamdi? ........ 156
Harin ........ 157
Çəkil, öndə dayanma ........ 159
Hiylə, kələk, yerlibaz ........ 159
Cəsus qadına ........ 162
Sən də hür ........ 163
Məni seçin ........ 165
Taziyanələr ........ 157
Hikmət ........ 174
Biz ........ 177
Bu ........ 177
Dərs ........ 178
Yaltağın oğluna nəsihəti ........ 178
Oyan, a millət, oyan! ........ 180
Bəzi tarixçilərə cavab ........ 181
Bəs niyə dolmur yenə də büdcəmiz ........ 182
Araq “çəlləyi” ........ 184
“Tək səbir” ........ 185
Dədə qorqudla söhbət ........ 186
Nə qədər ki ........ 187
Şair önündə ........ 188
Nə olaydı ........ 189
Mən ........ 190
Siğmaz ........ 190
İnsan ........ 191

Allaha xitab ........ 192
Ay allahım ........ 193
Şamaxı qoduğları ........ 194
Rüşvətxor deyir ki ........ 195
Xeyir ola ........ 197
Niyə yurdu pisləyirsən ........ 197
Ayağa dur, Azərbaycan ........ 198
Bəzə İsgəndəri, nadan ........ 200
O ........ 200
Erməni monoloqu ........ 201
2000-ci ilin 2001-ci ilə hesabatı ........ 202
Yalandı ........ 202
Nə dəxli ........ 204
Çaşqındi fikirlər ........ 205
Yoxdu sözüm daş-başına millətin ........ 207
Qurd lələ ........ 208
Bəşər, məhvə gedirsən ........ 209
Haqq söz ........ 210
Çağırış ........ 210
Cavab ........ 212
Mükafat ........ 213
Sən ........ 214
Bu ərköyün cəbhəçilər ........ 215
El görür ........ 217
Bilinməyir ........ 218
Demokratiya aşı ........ 219
Böhtanqulu ........ 220
Çəkmərəm əl kürsüdən ........ 223
Həşəratlar ........ 224
Başçılar ........ 226
Sənin balan, mənim balam ........ 227
Şeytanın oyunu ........ 229
Ölkə cəhənnəmdi dədə, mərd üçün ........ 231
Millət ağısı ........ 232

Tanrı, bizi susdurmaq ilə lal edəcəksən ........................... 233
Ölənlərə səs verək ............................................................... 235
Bu başər................................................................................. 237
Hara gedirsən yazıq.............................................................. 238
Allahla söhbət ....................................................................... 241
Dahilik................................................................................... 242
Küçüklər................................................................................ 243
Qurdlu adam.......................................................................... 243
Qoyunlar................................................................................ 244
Söz şilləsi .............................................................................. 245
Qara günlər............................................................................ 246
Yolumda................................................................................ 248
Pələngləşən quzular.............................................................. 249
Mən və sən ............................................................................ 249
Qorxuram .............................................................................. 250
Haray! Dəli könlüm, haray................................................... 250
İki lüt..................................................................................... 252
Pul dağarcıqları .................................................................... 252
Siyasət sərçələrinin mitinqi.................................................. 253
Özü üçün yaşayan ................................................................ 256
Paxıllıq qurdu....................................................................... 256
Başım kötük üstədi............................................................... 256
Taziyanələr........................................................................... 257
Çərçivə ................................................................................. 259
Kasıb evi .............................................................................. 259
«Küçələrə su səpmişəm» ruhunda məzəli satira ............. 260
Təqaüdçünün gileyi.............................................................. 261
Nadan və söz ........................................................................ 262
Hür, hara getsən, bala........................................................... 263
Krilovvari ............................................................................. 264
Mətbuat konfransı ................................................................ 265
Prezident olmaq istəyirəm.................................................... 266
Bir qoca var.......................................................................... 268
İki arı..................................................................................... 269

Sözümüzə güvə düşüb ........ 269
Pul ver ........ 270
Öyünmə, lovğlanma ........ 270
Milçək adam ........ 271
Dilin və sən ........ 272
Özgələri öyə-öyə ........ 272
Neyləyim ........ 273
Kimi qoyun soyur, kimi də vətən ........ 273
Cır arı ........ 274
Qızınacaqdır ........ 275
Ay mənə söz bəzəyən ........ 275
Nadandan ........ 276
Vay halına o kəsin ........ 277
Deputat gəlir ........ 277
Şeirim və bədbəxt ........ 278
Eşşək və yaltaqlar ........ 279
Xəyanətin ........ 279
Yoxsan! Yoxsan! ........ 280
«Qızıl qələm» ........ 281
Dərd demədim ........ 281
Başım kötük üstədi ........ 282
Dəli ........ 282
Nəyinə gərək ........ 283
Əyildi «yoxsan» gözü xurcunun ........ 284
Bu paxıllar, nadanlar ........ 285
Özünü oğurlamısan ........ 285
Başımda şimşək çaxır ........ 286
Qar daş ........ 287
Ey...y... ........ 287
Bu xalqın o üzündə ........ 288
El görür ........ 289
Bu gün ........ 290
Nitq ........ 290
Dəli olmaq istədim ........ 292
Neyləyim Allah ........ 293
Kim deyər ki, kimdir o? ........ 294

**İSGƏNDƏR ETİBAR**
**Sınmayan güzgü**
Bakı, "Elm və təhsil", 2012, 304 səh.

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Bilgisayar tərtibi və dizayner:*
**Sevinc Hüseynzadə**

Yığılmağa verilmiş **05.01.2012.**
Çapa imzalanmış **14.01.2012.**
Şərti çap vərəqi **19.** Sifariş № **08.**
Kağız formatı **60x84 1/16.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.